Dr. Əbdülvəhhab
ibn Nasır ət-Tureyri

TAM TƏFƏRRÜATI İLƏ

# PEYĞƏMBƏRİN
*Allahın ona salam-duası olsun!*
# GÜNDƏLİK HƏYATI

Tərcümə edən
*Əbu Zeyd Həbibli*

SUNNA.AZ

*TAM TƏFƏRRÜATI İLƏ*

# PEYĞƏMBƏRİN

## (Allahın ona salamı olsun!)

# GÜNDƏLİK HƏYATI


***Müəllif:***

Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri

***Tərcümə edən:***

Əbu Zeyd Həbibli

بسم الله الرحمن الرحيم

# MÜNDƏRİCAT

## (kitabın içindəkilər)

Müqəddimə....................................................................................5
Sübh çağının şəfəqləri.................................................................. 8
Sübh namazından sonra..............................................................18
Peyğəmbər ﷺ məclisi.................................................................. 25
Mədinənin yollarında..................................................................37
Peyğəmbər ﷺ ziyarəti................................................................. 42
Peyğəmbərin ﷺ xəstə ziyarəti......................................................51
Mədinənin bağlarında..................................................................53
Günorta istirahəti.........................................................................56
Quba məscidinə doğru..................................................................62
Zöhrdən sonra.............................................................................. 64
Axşamüstü................................................................................... 71
Məğribdən sonra..........................................................................77
İşa namazı.................................................................................... 83
Yatmamışdan öncə.......................................................................86
Gecə ibadəti..................................................................................93
Gecənin sükunəti içində gəzinti...................................................103
Sübh öncəsi istirahət....................................................................107
Peyğəmbəranə günə ümumi nəzər............................................... 108
Kitabın ərsəyə gəlməsi................................................................ 126
Minnətdarlıq................................................................................130
Haşiyələr (kitabda qeyd edilən mənbələr)...................................131

# ~ MÜQƏDDİMƏ ~

Xurmalıqlar şəhərində...

Gözəl qəlbli insanların şəhərində...

Bu diyar onun diyarıdır! Bu şəhər onun şəhəridir! Buranın əhli də onun əhlidir! Mədinə şəhərinə daxil oldu və hər şey nura qərq oldu. Bu şəhərin həm təbiəti, həm də camaatı ona aşiq oldu! Bax budur “Uhud” dağı! O da ona aşiq olanlardan biri!

Bu küçələr onun ayaq izlərinə, addımlarına şahid olacaqdır. Həmçinin bu məscid və onun ətrafında olan bu kiçik evlər... Onun ətrafına toplanmış bu sadiq insanlar... Onu əhatəyə alırlar... Bu insanlar onu, o da bu insanları çox sevir... Onlarla görüşür, sonra isə Rəbbi ilə tənhalığa çəkilir...

Peyğəmbərin ﷺ gündəlik həyat tərzindən bəhs edən bu kitabla onun ﷺ həyatına səyahət etmiş, sanki bu həyatı onunla birgə yaşamış, evində, məscidində, Mədinə küçələrində, dostlarının yanında, həsiri üzərində, yatağında, süfrə başında keçirdiyi hər dəqiqəsi – bir sözlə, gecəsi və gündüzü ilə tanış olmuş olacağıq. Son dərəcə möhtəşəm, nizamlı, lakin bir o qədər də sadə və öz axarında gedən təbii həyat tərzi...

Bu həyat tərzinin hər bir anında hərəkət və canlılıq müşahidə olunur. Belə ki, onun ﷺ həyatında boş və faydasız keçən bir an belə yoxdur. Onun həyatı sübhlə başlayıb gecə

ilə bitən adi bir həyat tərzi deyildir. O ﷺ, vaxtının qədrini bilən, hər anından, hər saatından, hər günündən istifadə edən və istifadə etməyi bacaran biri idi.

Ətrafında olan dostları, sevdikləri ona və onun həyat tərzinə qarşı son dərəcə diqqətli idi. Gecənin qaranlığı bu Peyğəmbəri ﷺ sevən və onun gecə həyatını necə keçirdiyini bilmək istəyənlər üçün bir maneə təşkil etməmiş, evinin divarları da onun şəxsi həyatını gizlədə bilməmişdir. Onu sevənlərin qəlbləri və gözləri daima onunla birgə olmuş, yatağına çəkildikdə belə necə yatdığına və necə oyandığına diqqət etmişlər.

Kitabı vərəqlədikcə onun ﷺ həyat tərzinə – gecəsinə və gündüzünə şahid olacağıq. Onunla birgə Mədinənin küçələrində yürüyəcək, bir müəllim kimi şəfqətli səsini, bir imam kimi həzin qiraətini eşidəcək, mütəvazi süfrəsinə qonaq olacaq, əyləşdiyi həsirində əyləşəcək – bir sözlə, anbaan həyatına səyahət edəcəyik.

Dostları Peyğəmbərin ﷺ həyatını elə incəlik və dəqiqliklə vəsf ediblər ki, bu yolla sən onun ﷺ evinə daxil ola, yuxuda ikən qərq olduğu sükunətini, oturaq vəziyyətdəki fəaliyyətini görə bilərsən. Ola bilsin ki, sən onun qucağında südəmər körpə, belində isə onun bərəkətindən nəsibini uman uşaq görəsən.

Elə isə, görəsən, bu böyük şəxsiyyətin, bu kərim Peyğəmbərin ﷺ bir bəşər və bir peyğəmbər olaraq rəftarı, davranışı necə idi?

Gündəlik həyat tərzi necə idi?

Gününü necə keçirərdi?

Bu, bir peyğəmbər, bir rəsul, bir insan, bir ata, bir ər, bir dost olan şəxsin gündəliyidir. Bax budur, onun ﷺ gündəlik həyatı! Kitab şəklində sənin önündədir.

***✍ Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri***
***Məkkə Şəhəri***
***Hicri 20.07.1431.***

## ❧ SÜBH ÇAĞININ ŞƏFƏQLƏRİ ☙

Dan yerinin nuru gecənin zülmətinə xitam vermiş, sübh çağı səslənən Bilalın ﵁ azanı səmaya yüksələrək Mədinənin səssizliyini pozmuşdu. Bu vaxt Allah rəsulu ﷺ gecə ibadətinin yorğunluğunu bədənindən çıxartmaq üçün sübh öncəsi yatmışdı.

Bilalın ﵁ azanını eşidən kimi Allah rəsulu ﷺ yuxudan oyandı, ilk iş olaraq misvakını əlinə götürərək dişlərini təmizlədi[1] və sonra belə dedi:

«الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَمَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ»

[Əlhəmdulilləhilləzi əhyənə bə'də mə əmətənə və ileyhin-nuşur].

*"Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. Son dönüş yeri də yalnız Onadır!"*[2]

Müəzzinin azanda dediklərini eyni ilə o da təkrarlayırdı. Müəzzin "Allahu əkbər! Allah əkbər!" dedikdə o da *"Allahu əkbər! Allah əkbər!"* deyirdi. Müəzzin "Əşhədu əllə iləhə illəllah" dedikdə o da *"Əşhədu əllə iləhə illəllah"* deyir, müəzzin "Əşhədu ənnə Muhəmmədən rəsulullah" dedikdə o da *"Əşhədu ənnə Muhəmmədən rəsulullah"* deyirdi. Lakin müəzzin "Həyyə aləs-saləh, həyyə aləl-fələh" ("Haydı namaza! Haydı qurtuluşa!") dedikdə Allah rəsulu ﷺ *"Lə haulə və lə quvvətə illə billəh" ("Güc və qüvvət yalnız Allaha məxsusdur)* dedi. Daha sonra müəzzin azanın sonunda

“Allahu əkbər! Allah əkbər! Lə iləhə illəllah” dedikdə o da *“Allahu əkbər! Allah əkbər! Lə iləhə illəllah”* deyərək müəzzinin dediklərini eyni ilə təkrarladı.[3]

Azanın sözlərini təkrarladıqdan sonra bu cür dua etdi:

«اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ، وَالصَّلاةِ الْقَائِمَةِ،

آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ، وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِي وَعَدْتَهُ»

[Allahummə Rabbə həzihid-də'vatit-təmmə, vas-salətil qaimə, əti Muhəmmədənil-vasilətə val-fadılətə, vəb'ashu məqamən məhmudənil-ləzi va'adtəhu].

*“Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin təriflənən məqama çatdır!”*[4]

Daha sonra Allah rəsulu ﷺ yatağından qalxaraq ehtiyacı varsa, qüsl, əks təqdirdə isə dəstəmaz alardı.

Bəzi hallarda isə dəstəmaz almadan namaza qalxardı. Bu haqda ondan soruşduqda belə deyərdi: *“Mənim gözlərim yatsa da, qəlbim yatmır”*.[5]

Sonra sübh namazının iki rükətli sünnətini çox uzatmadan xəfif bir şəkildə qıldı. Ən qısa və xəfif şəkildə qıldığı nafilə namazı məhz bu namaz idi. Bəzən o qədər qısa qılardı ki, onu görən kəs öz-özünə: “Görəsən, namazda Fatihə surəsini oxudumu?” – deyərdi.[6]

Sübh namazının sünnətində birinci rükətdə Fatihədən sonra “əl-Kəfirun”, ikinci rükətdə isə “əl-İxlas” surələrini oxuyardı. Bəzən isə birinci rükətdə əl-Bəqərə surəsi, 136-cı ayəni, ikinci rükətdə isə Ali-İmran surəsi, 64 və ya 52-53-cü ayələri oxuyardı.[7]

Allah rəsulu ﷺ sübh namazının bu iki rükətli sünnətinə həris olduğu kimi, heç bir nafilə ibadətə həris olmamışdır. O

belə deyərdi: *“Bu iki rükət mənə dünya və içindəkilərdən daha sevimlidir”.*[8]

Sübhün sünnətini qıldıqdan sonra əgər həyat yoldaşı oyaq olardısa, onunla oturub xoş söhbət edərdi. Ərinin sevgi dolu söhbətləri ilə səhərini açan qadının hissləri barədə nə düşünmək olar?! Əgər zövcəsi yatmış olardısa, o zaman fərz namazının vaxtına qədər sağ çiyni üstə uzanardı.[9]

Bilal ﵁ camaatın məscidə toplandığını gördükdə Peyğəmbərin ﷺ yanına gələr və belə səslənərdi: “Ey Allahın rəsulu, namaza, namaza!”[10]

Beləcə Allah elçisi ﷺ namaza çıxardı. Evindən çıxdıqda gözlərini səmaya doğru yönəldərək belə deyərdi:

«بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، اللهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ،
أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ»

[Bismilləh, təvakkəltu aləllah va lə haulə va lə quvvətə illə billəhi, Allahummə inni əuzu bikə ən ədıllə, av udallə, av əzillə, av uzəllə, av azlimə, av uzləmə, av əchələ, av yuchələ aleyyə].

*“Allahın adı ilə! Allaha təvəkkül etdim. Güc və qüvvət yalnız Allaha məxsusdur. Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram”.*[11]

Məscidə girdikdə isə belə dua edərdi:

«بِسْمِ اللَّهِ، وَالصلاة والسَّلامُ عَلَى رَسُولِ اللَّهِ، اللَّهُمَّ اغْفِرْ لِي ذُنُوبِي، وَافْتَحْ لِي أَبْوَابَ
رَحْمَتِكَ، أَعُوذُ بِاللَّهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ»

[Bismilləh, vəs-salətu vəs-sələmu alə Rasulilləh, Allahumməğfirli zunubi, vəftəh li əbvabə rahmətikə. Əuzu

billəhil-azim və bivəchihil-kərim və sultanihil-qadim minəş-şeytanir-racim].

*"Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım, mənim günahlarımı bağışla və rəhmət qapılarını mənim üçün aç! Qovulmuş şeytandan Əzəmətli Allaha, Onun kəramətli Üzünə və əzəli hökmünə pənah aparıram".*[12]

Peyğəmbəri ﷺ məsciddə gördükdə Bilal ؓ iqamə verər,[13] səhabələr də namaza qalxaraq səfləri düzəldərdilər.[14]

Bəzən qüsl suyunun damcıları saçından töküldüyü halda namaza çıxardı. Bəzən isə namaza çıxar, iqamə verildikdən, hər kəs səfə düzüldükdən və mehrabında namaza durduqdan sonra cənabətli olduğunu və qüsl almadığını xatırlayar, beləcə camaata əli ilə işarə edərək *"Yerinizdə durun!"* deyər, sonra da evinə qayıdaraq qüsl alardı. Daha sonra saçından su damladığı halda məscidə qayıdardı.[15]

Allah rəsulu ﷺ bu kimi şeyləri gizlətməz və bu kimi hallardan çəkinməzdi. O da digər insanlar kimi bir bəşər övladı idi. Hər kəs onun həyatında bəşər övladının həyatına xas olan özəllikləri görə bilərdi. Uca Allah onun mələk olmadığını bəyan edərək demişdir: *"Əgər biz onu mələk etsəydik, əlbəttə, onu (yenə də) kişi (cinsindən) edərdik"* (əl-Ənam, 9).

Camaatın önünə keçib mehrabında (namazgahında) durduqda səfləri düzəldər və əshabına belə deyərdi: *"Səflərinizi düzəldin və sıxlaşdırın! Həqiqətən də, səflərin düzlüyü namazın kamilliyindəndir".*[16]

Sonra təkbir gətirərək ("Allahu əkbər!" deyərək) namaza başlayardı. Təkbir zamanı əllərini çiyinləri səviyyəsində qaldırar, sağ əlini sol əlinin üzərinə qoyardı.[17] Quran

qiraətinə başlamamışdan öncə səssiz bir şəkildə öz-özlüyündə bu duanı oxuyardı:

«اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ،

اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الدَّنَسِ،

اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ»

[Allahummə, bəid beyni va beynə xatayəyə kəmə bə'adtə beynəl-məşriqi val-məğribi. Allahummə, nəqqini min xatayəyə kəmə yunəqqas-səvbul əbyədu minəd-dənəsi. Allahumməğsilni min xatayəyə bis-səlci val-məi val-bəradi].

*"Allahım, məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi, məni də günahlarımdan uzaqlaşdır! Allahım, ağ paltar kirdən təmizləndiyi kimi, məni də günahlarımdan təmizlə! Allahım, mənim günahlarımı qar, su və dolu ilə yu!"*.[18]

Daha sonra səsli şəkildə əl-Fatihə surəsini oxuyardı. Onun qiraəti tam anlaşılan və tədricli bir qiraət idi. Qiraət zamanı tələsməz, *"ər-Rahmə̲ə̲n"*, *"ər-Rahi̲i̲m"* kimi yerləri uzadar və hər ayənin sonunda durardı.[19] Fatihədən sonra sübh qiraətinə başlayar, Qurandan müxtəlif ayə və surələr oxuyardı. Adətən, birinci rükəti uzadar, ikinci rükəti isə nisbətən qısa tutardı. İki rükətdə altmış-yüz ayə arası Quran oxuyardı. Uca Allah buyurur: *"Sübh qiraətini də oxu (sübh namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın (mələklərdən) şahidləri olur"* (əl-İsra, 78).[20]

Cümə günləri isə sübh namazının birinci rükətində əs-Səcdə, ikinci rükətində isə əl-İnsan surələrini oxuyardı.[21]

Bəzi hallarda – müsəlmanlara üz verən sıxıntı, çətinlik vaxtlarında sübh namazının ikinci rükətində rükudan sonra qunut tutar – əl açıb dua edərək Rəbbindən nicat və yardım diləyərdi.[22]

Abdullah ibn Ravəhə ﷺ bu mənzərəni və sübh qiraətini təsvir edərək öz şeirində belə demişdir:

Sübh çağı yetişəndə, dan yeri ağaranda,
Allahın elçisi Quran oxuyur aramızda.[23]

Namazını tamamladıqdan və salam verib namazdan çıxdıqdan sonra elə yerində oturduğu vəziyyətdə üzü qibləyə doğru belə deyərdi:

«أَسْتَغْفِرُ اللَّهَ، أَسْتَغْفِرُ اللَّهَ، أَسْتَغْفِرُ اللَّهَ،

اللَّهُمَّ أَنْتَ السَّلامُ وَمِنْكَ السَّلامُ تَبَارَكْتَ يَا ذَا الْجَلالِ وَالإِكْرَامِ»

[Əstəğfirullah, əstəğfirullah, əstəğfirullah. Allahummə əntəs-sələmu va minkəs-sələmu, təbəraktə yə zəl-cələli val-ikram].

*"Allahdan əfv diləyirəm, Allahdan əfv diləyirəm, Allahdan əfv diləyirəm. Allahım! Salam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan".*[24]

Sonra sağ tərəfdən çevrilərək üzünü əshabına tərəf tutardı. Bəzən isə sol tərəfdən çevrilərdi. Əshabına tərəf çevrildikdə, adətən, ondan ilk eşidilən kəlmələr məhz bu olardı:

«رَبِّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ»

[Rabbi, qini əzəbəkə yovmə təb'asu ibədəkə].

*"Ey Rəbbim, bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru!"*[25]

Daha sonra belə deyərdi:

«لا إِلَهَ إِلا اللَّهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ،

لا حَوْلَ وَلا قُوَّةَ إِلا بِاللَّهِ، لاَ إله إلاَّ اللَّهُ، وَلا نَعْبُدُ إِلا إِيَّاهُ، لَهُ النِّعْمَةُ،

وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ، لا إِلَهَ إِلا اللَّهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ،

اللَّهُمَّ لا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلا يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ»

[Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu. Ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir. Lə haulə va lə quvvətə illə billəh. Lə iləhə illəllahu, va lə nə'budu illə iyyəh. Ləhun-ni'mətu va ləhul-fədlu va ləhus-sənəul-həsən. Lə iləhə illəllahu muxlisınə ləhud-dinə va ləv kərihəl-kəfirun. Allahummə, lə məniə limə ə'taytə va lə mu'tiyə limə mənə'tə va lə yənfəu zəl-cəddi minkəl-cəddu].

*"Allahdan başqa haqq məbud yoxdur, O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Güc və qüdrət yalnız Allaha məxsusdur! Allahdan başqa haqq məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif yalnız Onadır! Allahdan başqa haqq məbud yoxdur! Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik! Allahım, Sənin verdiyinə mane olacaq, mane olduğunu da verə biləcək kəs yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz[26]".*[27]

Sonra Rəbbini təsbih edər, Ona həmd edər, Onu ucaldar, yəni *"subhanəllah"*, *"əlhəmdulilləh"*, *"Allahu əkbər"* deyərək Allahı zikr edərdi.[28]

Daha sonra özündə geniş mənalar ehtiva edən qısa cümlələrlə Rəbbini yad edərdi. Həmin zikr və dualardan biri də bu idi:

«أَصْبَحْنَا وَأَصْبَحَ الْمُلْكُ لِلَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَ لا إِلَهَ إِلا اللَّهُ، وَحْدَهُ لا شَرِيكَ لَهُ،
لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِن خَيْرِ هَذَا الْيَوْمِ،
وَخَيْرِ مَا فِيهِ، وَخَيْرِ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ
أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ»

[Asbəhnə va asbəhəl-mulku lilləhi, vəl-həmdulilləh, və lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Allahummə inni

əs'əlukə min xayri həzəl-yovmi, və xayri mə fihi və xayri mə ba'dəhu, və əuzu bikə min şərri mə fi həzəl-yovmi və şərri mə ba'dəhu. Rabbi əuzu bikə minəl-kəsəli va suil-kibəri. Rabbi əuzu bikə min əzabin fin-nəri va əzabin fil-qabri].

*"Səhərə çıxdıq, var olan hər bir şey də Allaha məxsus olaraq səhərə çıxdı. Allaha həmd olsun! Allahdan başqa haqq məbud yoxdur, O, təkdir, Onun heç bir şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Allahım! Səndən bu və bundan sonrakı günün xeyrini diləyir, bu və bundan sonrakı günün şərindən isə Sənə sığınıram. Ey Rəbbim! Tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim! Cəhənnəmdəki və qəbirdəki əzabdan Sənə sığınıram!"*

Axşam isə: [Asbəhnə va əsbəhəl-mulku lilləhi] əvəzinə [əmsəynə va əmsəl-mulku lilləhi...] deyərdi. [29]

Peyğəmbərin ﷺ səhər və axşam daima etdiyi və heç vaxt tərk etmədiyi dualardan biri də budur:

«اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالآخِرَةِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ وَأَهْلِي وَمَالِي، اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي، اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ، وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي، وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي»

[Allahummə, inni əs'əlukəl-afiyətə fid-dunyə vəl-əxirati. Allahummə, inni əs'əlukəl-əfva vəl-afiyətə fi dini və dunyəyə və əhli və məli. Allahumməstur avrati və əmin rav'ati. Allahumməh-fazni min bəyni yədeyyə və min xalfi və an yəmini və an şiməli və min favqi və əuzu bi azəmətikə ən uğtələ min təhti].

*"Allahım, dünyada və Axirət həyatında Səndən salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım, Eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım, Məni önümdən,*

*arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!"*[30]

Bu duanı isə səhər-axşam üç dəfə təkrar edərdi:

«اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لا إِلَهَ إِلا أَنْتَ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكُفْرِ وَالْفَقْرِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، لَا إِلَهَ إِلا أَنْتَ»

[Allahummə, afini fi bədəni. Allahummə, afini fi səm'i. Allahummə, afini fi bəsari. Lə iləhə illə əntə. Allahummə, inni əuzu bikə minəl-kufri val-faqri, va əuzu bikə min əzəbil-qabri, lə iləhə illə əntə].

*"Allahım, bədənimi salamat et! Allahım, qulağımı salamat et! Allahım, gözümü salamat et! Səndən başqa haqq məbud yoxdur. Allahım, küfrdən və yoxsulluqdan Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram. Səndən başqa haqq məbud yoxdur!"*[31]

Bu əsnada Mədinənin uşaqları əllərində su dolu qədəhlərlə gələr və Peyğəmbərin ﷺ mübarək əlini həmin qabların içinə salması ilə təbərrük edərdilər (bərəkət umardılar). Allah rəsulu ﷺ ona doğru uzanan qaba əlini salmamış geri çevirməzdi. Bəzən onun yanına havanın çox soyuq olduğu günlərdə gələrdilər, lakin yenə də Allah elçisi ﷺ onların xahişini yerə salmazdı.[32]

Bu, sübh çağı necə də gözəl və xoş bir mənzərədir! Nübüvvət nuru ilə nurlanmış Allah elçisinin ﷺ önündə məsum körpələrin balaca əlləri sanki bir-birləri ilə yarışa girmişdi. Hər biri onun mübarək və pak əlinin dəydiyi suyu böyük həvəslə içirdi. Ailələrinin sevgi dolu baxışları isə bu gözəl mənzərəni seyr etməkdə idi. Sanki sən özün də bu mənzərəni seyr edir və Peyğəmbərinin ﷺ onların qablarına mübarək əlini, qəlblərinə isə sevgi və məhəbbəti necə daxil etdiyi görürsən. Beləcə bu insanlar hər yeni günlərini sübh

çağı Peyğəmbərlərinin ﷺ nurlu simasını seyr etməklə açır, bununla da həmin günün bərəkətini əldə edirdilər.

# SÜBH NAMAZINDAN SONRA

Sübh namazı tamamlandıqdan sonra səflər arası məsafə daralar, camaat bir-birinə yaxınlaşar və Allah rəsulunun ﷺ ətrafına toplaşardı. O isə namaz qıldığı yerdə oturmuş və üzünü əshabına tərəf tutmuşdu. Sübhün aydınlığı sanki Peyğəmbərin ﷺ camalının nurunda özünü əks etdirirdi. Camalı o qədər gözəl və parlaq idi ki, sanki günəş üzündə bərq vururdu. Çöhrəsinə baxan hər kəs onun camalında sadiqliyin əlamətlərini görərdi. Necə ki Abdullah ibn Səlam رضي الله عنه bu haqda belə demişdir: "O zaman ki onun çöhrəsinə diqqət yetirdim, həmən anladım ki, bu üz yalan danışan kəsə məxsus üz deyildir".[33]

Bəzən əshabına nəsihət edərdi. Bu haqda İrbad ibn Səriyə رضي الله عنه xəbər verərək belə demişdir: "Bir gün Allah rəsulu ﷺ sübh namazından sonra bizə qəlbləri titrədəcək və gözləri yaşardacaq şəkildə təsirli bir nəsihət etdi. Biz: "Ey Allahın elçisi, bu sanki vidalaşan bir kəsin nəsihətidir, bizə nə əmr edirsən?" – dedik. Allah rəsulu ﷺ belə buyurdu: *"Sizlərə Uca Allaha qarşı təqvalı olmanızı və həbəşli bir kölə olsa belə, üzərinizdə olan əmr sahiblərini dinləyib onlara itaət etmənizi vəsiyyət edirəm. Məndən sonra yaşayacaq olanlarınız çoxsaylı ixtilaflar görəcəkdir. (Dində) sonradan ortaya çıxan şeylərdən uzaq durun. Çünki (dində olan) hər yenilik (bidət) zəlalətdir. Sizlərdən həmin günə yetişən kəsə vacib olan mənim və məndən*

*sonra gələcək hidayət sahibi olan Raşidi xəlifələrin sünnətinə (yoluna) tabe olmasıdır. Bu yoldan möhkəm tutunun və azı dişləriniz ilə yapışın!"*[34]

Allah rəsulu ﷺ sübh nəsihətini qısa tutar və çox uzatmazdı. Əshabına onları yormayacaq şəkildə nəsihət edərdi.[35]

Bəzən ətrafına toplaşanlara yönələrək onlara belə deyərdi: *"İçinizdə xəstəsi olan varmı, ziyarət edim?"* Əgər "xeyr, yoxdur" desəydilər, *"Bəs cənazəsi olan necə, varmı, cənazəsində iştirak edim?"*[36]

Allah rəsulu ﷺ daima əshabından gözünə dəyməyənlər haqda maraqlanardı. Bir dəfəsində məscidi süpürən, məscidin təmizlik işlərinə baxan zənci qadını soruşdu. Dedilər ki, ey Allahın rəsulu, o qadın artıq vəfat edib. Allah elçisi ﷺ dedi: *"Bəs nə üçün mənə xəbər verməmisiniz?"* Səhabələr onun vəfatını adi bir hal kimi qəbul edirmişcəsinə belə dedilər: "Ey Allahın rəsulu, qadın gecə vaxtı vəfat etdi və dəfn edildi, buna görə də səni oyandırmaq, narahat etmək istəmədik". Peyğəmbər ﷺ dedi: *"Onun qəbrini mənə göstərin!"* Sonra Allah rəsulu ﷺ həmin qadının qəbri üstünə getdi və onun üçün cənazə namazı qılıb dua etdi.[37]

Sabit ibn Qeys ibn Şəmməsi رضي الله عنه də aralarında görmədikdə belə demişdi: *"Sabit ibn Qeysə nə olub, görünmür, bir dərdi var?"* Səd ibn Muaz رضي الله عنه belə dedi: "O mənim qonşumdur, bir problemi, dərdi olduğunu da zənn etmirəm". Sonra Səd onun yanına getdi və gördü ki, Sabit evinə çəkilib, qapını bağlayıb, oturub ağlayır. Səd soruşdu: "Sənə nə olub, vəziyyətin necədir?" Sabit belə cavab verdi: "Vəziyyətim çox pisdir. Çünki Uca Allah *"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə*

*müraciət etdiyiniz kimi, ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər”* buyurur. Mən isə Peyğəmbərlə danışığımda səsi son dərəcə gur olan biriyəm. Qorxuram ki, bütün saleh əməllərim puç olar və beləcə mən Cəhənnəm əhlindən olaram”. Onun bu sözlərindən xəbər tutduqda Allah rəsulu ﷺ belə dedi: *“Sən Cəhənnəm əhlindən deyilsən. Əksinə, sən xeyir içində yaşayacaq və xeyir üzərində də vəfat edəcəksən. Sən Cənnət əhlindənsən!”*[38]

Bax beləcə bu kimi məclislərdə Peyğəmbər ﷺ əshabına göz gəzdirər və onlar haqda maraqlanardı. Heç kəs onun fikrindən çıxmaz və nəzərindən yayınmazdı. Məclisində iştirak edənlərin nəsibi onun xoş rəftarı, hörmət və ehtiramı, iştirak etməyənlərin nəsibi isə diqqəti, qayğısı və ehtimamı olardı. Bütün bunlar cəmiyyətdə vəhdətin güclənməsi və fərdlər arasında olan əlaqələrin dərinləşməsi üçün labüddür.

Bəzən bu sübh məclisində əshabından gördükləri yuxular barədə soruşar və belə deyərdi: *“Bu gecə kim yuxu görübsə, danışsın, yuxusunu yozum”*. Onlar da yuxularını Peyğəmbərə ﷺ danışar, o da yozardı.

Belə hadisələrdən biri də Abdullah ibn Sələmın ؓ başına gəlmişdir. O demişdir: “Peyğəmbərin zamanında mən bir yuxu gördüm. Yuxuda gördüm ki, mən bir bağın içindəyəm”. Abdullah ibn Sələm bağın necə geniş və yaşıl olduğunu vəsf etdikdən sonra sözünə davam edərək dedi: “Bağın ortasında alt tərəfi yerdə olan, yuxarı tərəfi isə göyə çatan bir dəmir dirək, dirəyin də başında bir tutqac var idi. Kimsə mənə dedi: “Çıx yuxarı!” Dedim: “Bacarmaram”. Bu vaxt yanıma bir xidmətçi gəlib arxa tərəfdən mənim paltarımın ətəyini qaldırdı və mən dirəyə çıxmağa başladım. Nəhayət, dirəyin başına çatıb tutqacdan yapışdım. Yenə

kimsə mənə: “(Tutqacdan) möhkəm yapış!” – dedi və mən yuxudan oyandım. Baxdım ki, həmin tutqac əlimdə qalmışdır. Mən bu yuxunu Peyğəmbərə ﷺ danışdım. O belə dedi: *“Həmin bağ – İslam dinidir, dirək – İslamın dirəyidir, tutqac isə ən möhkəm dəstəkdir (yəni “urva əl-vusqa”). (Bu da o deməkdir ki,) sən son nəfəsinə kimi İslam üzərində olacaqsan (yəni müsəlman kimi dünyadan köçəcəksən)”.*[39]

Abdullah ibn Səlam ؓ – əvvəl yəhudi din xadimi idi, sonra müsəlman oldu – Peyğəmbərin ﷺ vəfatından sonra otuz beş ilə yaxın ömür sürdü, riddə (ərəb qəbilələrinin dindən dönmə) günlərinin şahidi oldu və mürtədlərlə savaşlar kimi çətin günlərdən keçdi. Lakin Peyğəmbərin ﷺ yuxusunu yozduğu gün xəbər verdiyi kimi, son nəfəsinə kimi haqq üzərində sabitqədəm qaldı və “urva əl-vusaqa”ya – ən etibarlı tutqaca (yəni Quran və sünnəyə) möhkəm tutundu. Sanki Allah rəsulunun ﷺ həmin yuxunu bu formada yozması gələcək günlərdə bəzi insanların dindən dönəcəklərinə bir işarə idi. Lakin Abdullah ibn Səlam ؓ o kəslərdən olmadı, əksinə o, sabitqədəmliliyi ilə tanınan biri oldu. Həmçinin bu hadisədə Allah elçisinin ﷺ peyğəmbərliyinin haqq olduğuna da açıq bir dəlil vardır.

Bir dəfə Allah rəsulu ﷺ *“Kim yuxu görübsə, danışsın, yuxusunu yozum”* dedikdə əshabından bir nəfər belə dedi: “Mən bu gecə yuxuda damla-damla yağ və bal yağdıran bir bulud gördüm. Gördüm ki, insanlar bunu ovuclarına yığırlar. Kimisi çox, kimisi də az yığmışdı. Həmçinin göydən yerə uzadılmış bir ip gördüm və gördüm ki, sən bu ipdən tutub yuxarı qalxdın. Səndən sonra başqa bir adam bu ipdən tutub yuxarı qalxdı. Onun ardından başqa birisi bu ipdən tutub yuxarı qalxdı. Daha sonra bir nəfər bu ipdən tutub

qalxmaq istədi, lakin ip qırıldı. Amma sonra yenə birləşdi". Bu vaxt Əbu Bəkr ﷺ dedi: "Ey Allahın elçisi, atam sənə qurban, izn ver, bu yuxunu mən yozum". Allah elçisi ﷺ: *"Yoz!"* – dedi. Əbu Bəkr dedi: "Bulud İslam dinidir. Damla-damla axan yağ və bal isə Qurandır. Bu (yağ) onun (Quranın) yumşaqlığı və (bal) şirinliyidir. Qurandan kimi çox, kimi də az faydalanacaqdır. Göydən yerə çəkilmiş ip isə sənin üzərində olduğun haqdır. Sən bu ipdən tutursan, Allah da səni onunla yüksəldir. Səndən sonra başqa bir adam bu ipdən tutacaq və onun sayəsində yüksələcək. Onun ardınca başqa birisi bu ipdən tutacaq və o da onun sayəsində yüksələcək. Sonra başqa birisi bu ipdən tutacaq, lakin ip qırılacaq. Daha sonra ip birləşəcək və həmin adam da onun sayəsində yüksələcəkdir. Atam sənə qurban, ey Allahın rəsulu, de görüm, mən düz yozdum, yoxsa xətaya yol verdim?" Peyğəmbər ﷺ dedi: *"Bəzisini düz yozdun, bəzisini isə yox".* Əbu Bəkr dedi: "Allaha and olsun, ey Allahın rəsulu, hansında xəta etdiyimi gərək mənə deyəsən". Allah elçisi ﷺ: *"And vermə!"* deyə buyurdu".[40]

Səhabələrin Peyğəmbərə ﷺ danışdıqları yuxulara diqqət yetirən kəs görər ki, onların yuxuları, adətən, ən böyük narahatçılıqları və ən əsas qayğıları olan dinləri və Peyğəmbərləri ﷺ haqda olardı. Belə ki, onlar həm oyaq ikən, həm də yatdıqda yalnız bu barədə fikirləşər, oyaq ikən öz əməlləri, yatdıqda isə yuxuları ilə bu dinin və Peyğəmbərin ﷺ qayğısını çəkərdilər. Necə deyərlər, Peyğəmbər qayğısı onların iliklərinə işləmiş və yuxularına sirayət etmişdir.

Hərdən o ﷺ öz gördüyü yuxunu əshabına danışar və onlar üçün yozardı. Səmura ﷺ rəvayət edir ki, bir gün Allah rəsulu ﷺ bizdən: *"İçinizdə bu gecə yuxu görən olubmu?"* deyə

soruşdu. Biz dedik: "Xeyr!" O ﷺ belə dedi: *"Bu gecə iki nəfər mənim yanıma gəldi və əlimdən tutaraq məni müqəddəs torpaqlara apardı..."*. Daha sonra gördüyü uzun yuxunu əshabına nəql etdi. Həmin yuxuda Cəhənnəmdə və qəbirdə kimlərə nə cür əzab verildiyini, habelə Axirət günü ilə əlaqəli bəzi şeyləri görmüşdü.[41]

Bu sübh məclisində səhabələr də Peyğəmbərin ﷺ hüzurunda söhbət edərdi. O ﷺ da, öz növbəsində, həm onları dinləyər, həm də söhbətlərinə şərik olardı. Bəzən öz keçmiş cahiliyyət həyatlarından, həmin dönəmdə düşdükləri və İslama gəldikdən sonra fərqinə vardıqları gülünc hallarından söz açardılar. Bu kimi şeyləri danışdıqda cahiliyyət dönəmindəki avamlıqlarına görə gülər, Allah rəsulu ﷺ da onlarla birgə təbəssüm edərdi. Allah rəsulu ﷺ günəş çıxana qədər namaz qıldığı yerdən ayrılmazdı.[42]

Günəş doğduqdan sonra Peyğəmbər ﷺ ayağa qalxar və məsciddən çıxdıqda belə dua edərdi:

«بِسْمِ اللَّهِ، وَالصَّلاةُ وَالسّلامُ عَلَى رَسُولِ اللَّهِ، اللَّهُمَّ اغْفِرْ لِي ذُنُوبِي، وَافْتَحْ لِي أَبْوَابَ فَضْلِكَ»

[Bismilləh, vəs-salətu vəs-sələmu alə Rasulilləh. Allahumməğfirli zunubi vəftəhli əbvabə fadlikə].

*"Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım, mənim günahlarımı bağışla və mənim üçün lütfünün qapılarını aç!"*[43]

Beləcə məsciddən çıxaraq həyat yoldaşlarının yanına gedərdi. Evinə daxil olduqda ilk gördüyü işi misvak ilə dişlərini təmizləməsi və ailəsinə salam verməsi idi. *"Əs-sələmu aleykum, necəsiniz, ey ev əhli?"* deyərək onları salamlayar və yoldaşlarına dəyərdi. Bir-bir onların otaqlarına daxil olar, salamlayar və onlar üçün dua edərdi. Lakin yanlarında çox oturmazdı.[44]

Hətta bəzən elə olurdu ki, yoldaşının yanına daxil olduqda onun namaz qıldığını görərdi, yanından çıxdıqda yoldaşı hələ də ibadətinə davam edərdi. Necə ki bir dəfə evə daxil olduqda Cuveyriyəni öz namazgahında Rəbbini zikr edən gördü, Allah elçisi ﷺ otaqdan çıxdıqda o hələ də ibadətində idi.[45]

Bəzən evinə daxil olduqda *"yeməyə bir şey varmı?"* deyərək yoldaşlarından hazır yemək olub-olmadığını soruşar, yemək olduğu təqdirdə süfrəyə yaxınlaşardı. Yeməyə, adətən, xurma və quru süddən hazırlanmış qida növləri, içməyə isə süd və ya xurma şirəsi olardı. Ailəsi "ey Allahın rəsulu, yeməyə bir şey yoxdur" dedikdə Peyğəmbər ﷺ belə deyərdi: *"Elə isə mən orucam".*[46]

Allah rəsulu ﷺ həyat yoldaşlarına dəydikdən sonra məscidə qayıdar, məscidə daxil olduqda Rövzeyi-şərifin ortasında – "mühacirlərin sütunu" adlı sütunun arxasında təhiyyətül-məscid (məscid haqqı) namazını qılardı. Allah rəsulu ﷺ, Rövzeyi-şərifdə (məsciddə Peyğəmbərin ﷺ evi ilə minbəri arasındakı mübarək yerin adıdır) namaz qılmağa çox həris idi.[47]

Sonra Rövzeyi-şərifdə – məscidin şərq yönündə Aişə anamızın otağına söykənmiş vəziyyətdə oturar və əshabı da başına toplaşardı. Bu məclis daimi – gündəlik məclis idi. Belə ki, kim bu vaxtlarda Peyğəmbəri ﷺ görmək və onunla görüşmək istəyərdisə, məscidə gələrdi. Bu məclisdə iştirak edənlərin sayı hal-vəziyyətə görə dəyişirdi, bəzən çox, bəzən az olurdu. Sayları nisbətən az olduqda Peyğəmbərin ﷺ ətrafında həlqə şəklində oturar, sayları çox olduqda isə iki cərgə halında – sağında və solunda əyləşərdilər ki, kənar yerdən gələn birisi (nümayəndə, qonaq, müsafir və s.) onunla görüşə bilsin, sual vermək istəyəndə ona rahatlıqla yaxınlaşsın.[48]

Əshabı ilə birlikdə oturduqda onlarla söhbətləşərdi. O ﷺ, insanların ən bəlağətlisi, nitqi tam aydın və ən şirin söhbətli olanı idi. O ﷺ nə tələm-tələsik, nə də hıqqana-hıqqana danışardı. Danışıq tərzi o qədər aydın idi ki, kəlmələrini

saymaq istəyən biri saya bilərdi. Bu haqda Aişə anamız belə demişdir: "Allah rəsulu ﷺ sizin kimi tələm-tələsik və qatma-qarışıq danışmazdı, o, yanında oturanın əzbərləyə biləcəyi şəkildə aramla danışardı".[49]

Onun ﷺ söhbətləri, adətən, dialoq üslubunda olardı, sorub-soruşdurmaları və bilmədiklərini öyrənmələri üçün, ilk növbədə, özü onlara sual verərdi. Belə ki, bir gün əshabına: *"Sizə günahların ən böyükləri haqda xəbər verməyimmi?"* dedikdə əshabı: "Xəbər ver, ey Allahın rəsulu!" deyə cavab verdi. Peyğəmbər ﷺ isə belə buyurdu: *"Ən böyük günahlar: Allaha şərik qoşmaq, valideynin üzünə ağ olmaq və yalan yerə şahidlik etməkdir"*.[50]

Bəzən fikir və düşüncələrini daha fərqli bir istiqamətə yönəltməkdən ötrü onlara sual verərdi. Bir gün onlara belə dedi: *"Bilirsinizmi müflis kimdir?"* Dedilər: "Bizə görə müflis heç bir malı və dirhəmi – pulu olmayan kəsdir". Allah rəsulu ﷺ dedi: *"Ümmətimdən müflis olan o kəsdir ki, Qiyamət günü namaz, oruc və zəkat ilə gələcək, lakin dünya həyatında filankəsi söyüb, filankəsə böhtan atıb, filankəsin malını haqsızcasına yeyib, filankəsi vurub, filankəsin qanını töküb. Beləcə onun savablarından alınıb həmin kəslər arasında paylaşılacaqdır. Hər kəsin haqqı tam ödənməmiş savabları bitəcək, buna görə də haqqına girdiyi kəslərin günahları onun üzərinə yüklənəcək, daha sonra isə Cəhənnəmə atılacaqdır"*.[51]

Bəzən də onlara zehinlərini hərəkətə gətirəcək suallar verərdi. Bir dəfəsində Peyğəmbərə ﷺ xurma ağacının özəyini, içliyini – qida kimi istifadə olunur – gətirdilər, elə həmin vaxt Allah rəsulu ﷺ əshabına belə bir sual verdi: *"Deyə bilərsinizmi o hansı ağacdır ki, müsəlmana oxşayır, yarpaqları tökülmür və daima bar verir?"* Orada olanların

hamısının ağlı çöl ağaclarına getdi və başladılar bir-bir həmin ağacların adlarını sadalamağa. Onlar hər saydıqda Allah elçisi ﷺ: *"Xeyr, xeyr"*, – deyirdi. Abdullah ibn Ömərin – həmin məclisdə iştirak edənlərin yaşca ən kiçiyi idi – ürəyinə damdı ki, bu ağac məhz xurma ağacıdır. Lakin məclisdə olan Əbu Bəkr və Ömər kimi böyüklərdən həya etdiyini görə suala cavab vermədi. Allah rəsulu ﷺ dedi: *"O, xurma ağacıdır"*.[52]

Hərdən söhbət zamanı söylədiyi bəzi kəlmə və ibarələri təkrar edərdi ki, onu dinləyənlər həm sözünün mənasını yaxşı anlasınlar, həm də dediyi sözün nə dərəcədə əhəmiyyətli bir söz olduğunun fərqinə varsınlar. Bəzi hallarda mövzunun əhəmiyyətini daha çox qabartmaqdan ötrü bu təkrarçılığa həddən ziyadə yer verərdi. Necə ki bir məclisdə böyük günahları sadaladıqda *"yalan danışmaq, yalan yerə şahidlik etmək"* deyib, bu kəlmələri o qədər təkrar etdi ki, əshabı ona qarşı olan mərhəmət hissindən dolayı öz-özlüyündə "nə olaydı, susaydı!" – dedi.[53]

Bəzən əshabı gözləmədiyi halda onlara sual verər və həmin söhbəti təxmin etməyəcəkləri sonluq ilə tamamlayardı. Bir səhər onlara belə dedi: *"Hansı biriniz bu gün oruc tutubsunuz?"* Bu sual onlar üçün gözlənilməz idi, belə bir suala hazır deyildilər. Belə bir sual verəcəyini təxmin etsəydilər, bəlkə də, hamısı həmin günü oruc tutardı. Hamı susdu, Əbu Bəkr ؓ dedi: "Mən, ey Allahın rəsulu". Peyğəmbər ﷺ yenə soruşdu: *"Hansı biriniz bu gün xəstə ziyarətində olubsunuz?"* Hamı susdu, Əbu Bəkr ؓ dedi: "Mən, ey Allahın rəsulu". Peyğəmbər ﷺ soruşdu: *"Hansı biriniz bu gün cənazə arxasınca gedibsiniz?"* Hamı susdu, Əbu Bəkr ؓ yenə: "Mən, ey Allahın rəsulu", – dedi. Peyğəmbər ﷺ

soruşdu: *"Hansı biriniz bu gün kasıbı yedizdiribsiniz?"* Bu dəfə də hamı susduqda Əbu Bəkr ﵁: "Mən, ey Allahın rəsulu", – dedi. Bu suallardan sonra Allah elçisi ﷺ belə buyurdu: *"Bu dörd xüsusiyyət bir gün ərzində kimdə toplanarsa, o mütləq Cənnətə daxil olar"*.[54]

Bəzi hallarda çatdırmaq istədiyi fikri daha yaxşı izah etməkdən ötrü müəyyən vasitələrdən istifadə edərdi. Bir dəfə əmanətin (güvənin, etibarın) yox olacağı barədə söhbət açarkən belə dedi: *"Adam yatacaq və (yuxuda ikən) əmanət onun qəlbindən götürüləcək, yerində isə rəngsiz nöqtə boyda iz qalacaqdır. Sonra yenə yatacaq və (əmanətin qalan hissəsi də) onun qəlbindən götürüləcək və yerində suluğa bənzər iz qalacaqdır. Elə bil ki, əlindəki közü ayağının üstünə salmısan və onun düşdüyü yer suluqlayıb. Sən onun qabardığını görürsən, halbuki içi bomboşdur"*. Bunu dediyi əsnada Allah rəsulu ﷺ balaca bir daş götürərək onu ayağının üstünə atdı.[55]

Hərdən söhbət zamanı demək istədiyini cizgi çəkərək izah edərdi. Bir gün yerdə dördbucaq formasında xətlər cızdı. Sonra onun ortasından çölünə uzananan düz bir xətt çəkdi. Sonra da (dördbucağın içindəki) ortada olan düz xəttə doğru balaca xətlər çəkdi və belə dedi: *"Bilirsinizmi, bu nədir?"*



Səhabələr: "Allah və Rəsulu daha yaxşı bilir" dedikdə Peyğəmbər ﷺ onlara izah edərək belə buyurdu: *"Bu ortadakı xətt insandır. Kənarında olan cizgilər isə həyatı boyunca hər yerdə onun başına gələn dərd və iztirablardır. Birindən qurtulsa, başqası gələr. Biri ondan yan keçsə, digərinə tutular. Dördbucaq xətt insanı əhatə edən əcəli, kənara çıxan xətt isə onun arzu və istəkləridir. İnsan arzularla yaşadığı bir vaxtda yaxın olan əcəli onu haqlayar"*.[56]

Peyğəmbərin ﷺ bu məclisi elm və irfan məclisi idi. Bu məclis tələbələrin tədris prosesində iştirakına əsaslanan, onların intellektual inkişaflarına şərait yaradan qarşılıqlı fikir mübadiləsi və dialoq üslubunda olan bir məclis idi.

Onun məclisini bəzəyən süslərdən biri də çoxsaylı istiğfar idi. Səhabələr fikir verərdilər ki, Peyğəmbər ﷺ daima dilini tövbə və istiğfarla nəm saxlayardı. Bəzən onun məclis boyunca yüz dəfə bu formada istiğfar etdiyini sayardılar:

«رَبِّ اغْفِرْ لِي وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الْغَفُورُ»

[Rabbiğfirli və tub aleyyə, innəkə əntət-Təvvabul-Ğafur].

*"Ey Rəbbim, məni bağışla, mənim tövbəmi qəbul et! Şübhəsiz ki, Sən tövbələri qəbul edənsən, bağışlayansan"*.[57]

Onun məclisinə Mədinənin yeni doğulmuş körpələri gətirilərdi. O ﷺ da onlar üçün dua edər, xurmanı ağzında əzərək bərəkətli ağız suyu ilə birlikdə onların ağızlarına qoyar, onlara ad verər və Allahdan onlar üçün xeyir-bərəkət diləyərdi.[58]

Bir gün Əbu Useyd Malik ibn Rabia əs-Səidi رضي الله عنه yeni dünyaya gəlmiş oğlunu Peyğəmbərin ﷺ yanına gətirdi. Allah rəsulu ﷺ uşağı götürüb qucağına aldı. Əbu Useyd də yanında oturmuşdu. Elə bu əsnada Allah elçisi ﷺ önündəki bir şeylə məşğul olmağa başladı. Bunu görən Əbu Useyd

oğlunun Peyğəmbərin ﷺ qucağından götürülüb evə aparılmasını tapşırdı. Allah rəsulu ﷺ məşğuliyyətini bitirən kimi *"uşaq hardadır?"* deyə soruşdu. Əbu Useyd: "Onu apardıq, ey Allahın elçisi" deyə cavab verdi. Allah rəsulu ﷺ dedi: *"Onun adı nədir?"* Əbu Useyd "adı filandır, ey Allahın rəsulu" dedikdə Peyğəmbər ﷺ belə buyurdu: *"Xeyr, sən onun adını Munzir qoy!"* Beləcə həmin gün onu Munzir adlandırdı.[59]

Həmçinin məclisinə onun üçün xurmanın novbarı gətirilərdi. Məlumdur ki, xurma Mədinə əhlinin əsas meyvəsi və qidası sayılırdı. Xurma ağacında novbarı gördükdə çox sevinər və ondan Peyğəmbərə ﷺ də gətirərdilər. Allah rəsulu ﷺ novbar meyvəni əlinə aldıqda belə dua edərdi:

«اللَّهُمْ بَارِكْ لَنَا فِي ثَمَرِنَا، وَبَارِكْ لَنَا فِي مَدِينَتِنَا، وَبَارِكْ لَنَا فِي صَاعِنَا، وَبَارِكْ لَنَا فِي مُدِّنَا،

اللَّهُمْ إِنَّ إِبْرَاهِيمَ عَبْدُكَ وَخَلِيلُكَ وَنَبِيُّكَ، وَأَنَا عَبْدُكَ وَنَبِيُّكَ، وَإِنَّهُ دَعَا لِمَكَّةَ،

وَإِنِّي أَدْعُوكَ لِلْمَدِينَةِ مِثْلَ مَا دَعَا بِهِ لِمَكَّةَ وَمِثْلَهُ مَعَهُ»

[Allahummə bərik lənə fi səmərinə və bərik lənə fi mədinətinə və bərik lənə fi sainə və bərik lənə fi muddinə. Allahummə innə İbrahimə abdukə və xalilukə və nəbiyyukə, və ənə abdukə və nəbiyyukə. Və innəhu dəa li-Məkkə, və inni əd'ukə lil-Mədinə mislə mə dəa li-Məkkətə və misləhu məahu].

*"Allahım! Məhsulumuzu bizim üçün bərəkətli et, şəhərimizi bizim üçün bərəkətli et, saamızı – dörd ovuca bərabər ölçü vahididir – bizim üçün bərəkətli et, muddumuzu – bir ovuca bərabər ölçü vahididir – bizim üçün bərəkətli et! Allahım, İbrahim Sənin qulun, dostun və peyğəmbərindir, mən də Sənin qulun və peyğəmbərinəm. O, Məkkə üçün dua etmişdir, mən də onun Məkkə şəhəri üçün dua edib Səndən istədiyi xeyir-bərəkətin iki qatını*

*Mədinə üçün istəyirəm".* Daha sonra məclisdə iştirak edən ən kiçik yaşlı uşağı yanına çağırar və həmin novbarı ona verərdi.[60]

Onun məclisində xoş zarafatlara, ürəkaçan söhbətlərə də yer verilərdi. Peyğəmbər məclisinin ciddiyyəti, habelə Allah elçisinin ﷺ heybəti səhabələrin təbii davranışlarına və sərbəst hərəkət etmələrinə maneəçilik yaratmazdı. Bir dəfə bədəvilərdən birisi Peyğəmbərin ﷺ yanında ikən Allah rəsulu ﷺ əshabına belə bir hədis danışdı: *"Cənnət əhlindən biri Rəbbindən orada əkinçiliklə məşğul olmaqdan ötrü izin istəyəcəkdir. Rəbbi ona deyəcəkdir: "Məgər istədiklərinə nail olmamısan?" Adam deyəcək: "Elədir, ey Rəbbim, lakin mən əkin əkməyi (əkinçiliyi) sevirəm". Beləcə o, torpağa toxum səpəcək, toxumlar isə bir göz qırpımında cücərib yetişəcək və bol məhsul verəcəkdir. Məhsulu dağlar boyda olacaqdır. Onda Uca Allah ona belə buyuracaqdır: "Götür onları, ey Adəm oğlu! Həqiqətən, heç bir şey sənin gözünü doydura bilməz!"* Allah rəsulu ﷺ sözünü bitirər-bitirməz yanındakı bədəvi belə dedi: "Ey Allahın elçisi, Allaha and olsun ki, bu adam olsa-olsa ya qureyşli (məkkəli), ya da ənsarlı (mədinəli) biri olacaqdır. Çünki əkinçiliklə məşğul olanlar onlardır, biz yox". Onun bu sözünü eşitcək həm Allah rəsulu ﷺ, həm də məclisdə olanlar güldülər.[61]

Belə görünür ki, Peyğəmbərin ﷺ bu səhər məclisi elə kənar yerdən gələn nümayəndə heyətlərini qarşıladığı məclis idi. Çünki gələn heyətlər, adətən, gecəni Mədinənin kənarında keçirər, sonra səhər vaxtı şəhərə daxil olaraq bu məclisdə Allah rəsulu ﷺ ilə görüşərdilər.

Buna Mudar qəbiləsindən gələn heyəti misal göstərmək olar. Belə ki, onlar səhər çağı Peyğəmbərin ﷺ yanına

gəlmişdilər. Allah rəsulu ﷺ onların necə kasıb və yoxsul olduqlarını gördükdə çox pis oldu, hətta üzünün rəngi dəyişdi. Zöhr namazını qıldıqdan sonra camaata üz tutdu və hər kəsi onlara yardım etməyə səslədi. Hamı əl birliyi ilə bu yardım aksiyasına dəstək verdi, hətta məsciddə qida və paş-paltardan ibarət iki qalaq əmələ gəldi.[62]

Həmçinin Əhsadan Peyğəmbərin ﷺ yanına gələn Əbdülqeys heyətini də buna misal göstərmək olar. Onlar gəldikdə Allah rəsulu ﷺ onları xoş qarşılamış və belə demişdir: *"Xoş gəldiniz! Allah sizi utandırmasın, sizi peşman etməsin!"*[63]

Böyük ehtimalla Cəbrayılın عليه السلام ağ paltarlı, qara saçlı kişi qiyafəsində gəldiyi, üzərində heç bir səfər əlaməti görünmədiyi, heç kimin onu tanımadığı və Peyğəmbərə ﷺ İslam, iman, ehsan, habelə Qiyamət əlamətləri barədə sual verdiyi məclis də elə bu məclis olmuşdur.[64]

Diməm ibn Sələbə رضي الله عنه də məhz bu məclisdə Peyğəmbər ﷺ ilə görüşmüşdü. O, dəvəsini məscidin önündə diz üstə çökdürdükdən sonra onu buxovlamış və məscidə daxil olaraq "hansınız Əbdülmüttəlibin oğludur?" – deyə soruşmuşdu. Sonra "mən səndən bəzi şeylər soruşacağam və sənə çox çətin suallar verəcəyəm. Odur ki, mənə acığın tutmasın" dedikdə Allah rəsulu ﷺ belə demişdi: *"Narahat olma, acığım tutmaz. Ağlına gələni soruş!"* O da İslamın rüknləri haqda Peyğəmbərə ﷺ suallar vermiş, sonra isə belə demişdi: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, dediklərini olduğu kimi həyata keçirəcəm və onlara nə bir şey əlavə edəcəm, nə də ki onlardan bir şey əskildəcəm". O qayıdıb getdikdə Allah elçisi ﷺ belə dedi: *"Adam (dediklərimi) düz anladı. Əgər dediyinə əməl etsə, Cənnətə daxil olar"*.[65]

Bu məclis müsəlmanların qarşılaşdıqları problemlərin həlli üçün bir məsləhət-məşvərət məclisi idi. Uhud savaşına çıxmaq, (Əhzab döyüşü öncəsi) xəndək qazmaq və s. kimi qərarlar da elə bu məclisdə verilmişdi. Peyğəmbərdən ﷺ daha çox öz dostları ilə məsləhət-məşvərət edən ikinci bir şəxs olmayıb. Başqa cür ola da bilməzdi, axı Uca Allahın *"Görəcəyin işlər barədə onlarla məsləhətləş!"* (Ali-İmran, 159) ayəsi məhz ona nazil olmuşdur.[66]

Səhabələr bu mübarək məclisdə növbə ilə iştirak edərdilər. Bu haqda İbn Ömər رضي الله عنه belə demişdir: "Mən və ənsardan (mədinəlilərdən) olan qonşum Peyğəmbərin ﷺ məclisində növbə ilə iştirak edərdik. Bir gün mən, bir gün o iştirak edərdi. Mən iştirak etdiyim gün yeni nazil olan vəhylərdən və həmin günün xəbərlərindən onu da xəbərdar edərdim. O da iştirak etdiyi gün bunun eynisini edərdi".[67]

Bu məclisdə Allah rəsulu ﷺ əshabı ilə birgə onlardan bir fərd kimi oturardı, yəni onu əshabından seçəcək xüsusi bir özəlliyi yox idi. Əcnəbi biri gələr və məclis əhli içində Peyğəmbərin ﷺ kim olduğunu bilməzdi. Onu tanımayan kəs "hansınız Əbdülmüttəlibin oğludur?" deyə soruşar, səhabələr də ağbənizliyindən başqa onu tanıda biləcək özəl bir əlamət tapa bilmədiklərinə görə "axtardığın kəs oturub dirsəklənən o ağbəniz kişidir", – deyərdilər. Daha sonra əshabı Peyğəmbərə ﷺ gələn əcnəbilərin onu tanımaları üçün gildən bir kürsü – oturacaq düzəltmələrini təklif etdi, o da bu təklifi qəbul etdi. Bu hadisə ömrünün sonlarında – hicrətin 9-cu ilində, ətraf qəbilələrdən heyətlərin çox gəldiyi vaxt baş vermişdi.[68]

Səhabələr bu məclisdən ayrılana qədər Allah rəsulu ﷺ onların hər birinə diqqət ayırar, təbəssümünü və gülər

üzünü onlardan əsirgəməzdi. Hətta onların hər biri məhz özünün Peyğəmbərin ﷺ yanında daha dəyərli olduğunu zənn edərdi.[69]

Bəzən Allah rəsulu ﷺ əshabı ilə birlikdə olduqda ona təam hədiyyə edilər, həmin yeməkdən hamılıqla nuş edərdilər. Bu haqda Səmurə ibn Cundəb ؓ belə demişdir: "Biz Peyğəmbərin ﷺ yanında ikən ona bir kasada şorba gətirildi. O şorbadan həm özü, həm də məclis əhli yedi. Camaat zöhr vaxtına qədər növbə ilə o təamdan nuş etdi. Bir dəstə yeyər, sonra qalxar, dalınca digər dəstə gələrdi". Bunu nəql etdikdə bir nəfər Səmuradan soruşdu: "Kasaya yemək əlavə olunurdumu?" Səmura dedi: "Yer üzündən yox, amma səmadan bəli (yəni insanlardan kimsə kasaya yemək əlavə etmirdi, lakin Allahın bərəkəti ilə yemək bitmək bilmirdi)".[70]

Qidanın və məhsuldarlığın az olduğu bir vaxtda Peyğəmbərə ﷺ qoyun hədiyyə edilmişdi. Allah rəsulu ﷺ yoldaşlarına belə dedi: *"Bu qoyunu bişirin, çörəyi xırda-xırda doğrayıb şorbasına qatın"*. Peyğəmbərin ﷺ əl-Ğərra adlı böyük bir yemək qabı vardı. Onu dörd nəfər daşıya bilirdi. Duha vaxtı olduqda namaz qıldılar. Sonra həmin qab gətirildi. Hamı onun ətrafına toplandı. Camaatın sayı çoxaldıqda Allah rəsulu ﷺ diz çöküb oturdu. Bu zaman bir bədəvi Peyğəmbərə ﷺ belə dedi: "Bu nə oturuşdu?" Allah rəsulu dedi: *"Şübhəsiz ki, Allah məni təvazökar bir qul etdi. Təkəbbürlü və inadçı insan etmədi"*. Süfrə ətrafında olanlara belə dedi: *"Yeməyin kənarlarından yeyin. Orta-üst tərəfinə isə əl dəyməyin ki, orada bərəkət qalsın"*. Sonra sözünə belə davam etdi: *"Götürün, yeyin! Muhəmmədin nəfsi Əlində olana and olsun ki,*

*Fars və Rum diyarları fəth ediləcək, məhsul o qədər çox və bol olacaq ki, yeyərkən Allahın adı belə çəkilməyəcəkdir".*[71]

Bu məclis hal-vəziyyətə uyğun olaraq bəzən qısa, bəzən uzun çəkərdi. Günəş xeyli yüksəldikdən sonra Peyğəmbər ﷺ məclisdən qalxar və bu zikri etməmiş heç vaxt məclisdən ayrılmazdı:

«سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، أَشْهَدُ أَنْ لا إِلَهَ إِلَّا أَنْتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ»

[Subhanəkə Allahummə və bihəmdikə, əşhədu əllə ilahə illə əntə, əstəğfirukə və ətubu ileykə].

*"Allahım, Sən pak və müqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa haqq məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm".* Səhabələr dedilər: "Ey Allahın elçisi, biz bu kəlmələri bundan öncə səndən eşitməmişdik". Allah rəsulu ﷺ belə cavab verdi: *"Bu zikr məclisdə baş verən xətalar üçün bir kəffarədir (təmizləyici amildir)".*[72]

Aişə anamız da ona bu haqda sual vermişdi: "Ey Allahın rəsulu, səni namazlarını, Quran qiraətini və məclislərini daima bu kəlmələr ilə tamamlayan görürər, səbəbi nədir?" Peyğəmbər ﷺ cavabında dedi: *"Kim xeyir söz söyləmişsə, bu kəlmələr Qiyamət gününə qədər onun üzərində qalıcı bir möhür olacaqdır. Kim şər (pis) söz söyləmişsə, o zaman bu kəlmələr onun üçün kəffarə sayılacaqdır".*[73]

Çox vaxt məclisdən qalxarkən əshabı üçün bu duanı edərdi:

«اللهُمَّ اقْسِمْ لَنَا مِنْ خَشْيَتِكَ مَا تَحُولُ بِهِ بَيْنَنَا وَبَيْنَ مَعَاصِيكَ، وَمِنْ طَاعَتِكَ مَا تُبَلِّغُنَا بِهِ جَنَّتَكَ، وَمِنَ الْيَقِينِ مَا تُهَوِّنُ بِهِ عَلَيْنَا مَصَائِبَ الدُّنْيَا، اللَّهُمَّ مَتِّعْنَا بِأَسْمَاعِنَا وَأَبْصَارِنَا وَقُوَّتِنَا مَا أَحْيَيْتَنَا، وَاجْعَلْهُ الْوَارِثَ مِنَّا، وَاجْعَلْ ثَأْرَنَا عَلَى مَنْ ظَلَمْنَا، وَانْصُرْنَا عَلَى مَنْ عَادَانَا، وَلاَ تَجْعَلْ مُصِيبَتَنَا فِي دِينِنَا، وَلا تَجْعَلِ الدُّنْيَا أَكْبَرَ هَمِّنَا وَلا مَبْلَغَ عِلْمِنَا، وَلا تُسَلِّطْ عَلَيْنَا مَنْ لا يَرْحَمُنَا»

[Allahumməqsim lənə min xaşyətikə mə təhulu bihi beynənə və beynə məasikə, və min taətikə mə tubəlliğunə bihi cənnətəkə, və minəl-yəqini mə tuhavvinu bihi aleynə məsaibəd-dunyə, Allahummə mətti'nə bi-əsmainə və əbsarinə və quvvətinə mə əhyəytənə, vəc'alhul-varisə minnə, vəc'al sə'ranə alə mən zaləmənə, vansurnə alə mən adənə, və lə təc'al musibətənə fi dininə, və lə təc'alid-dunyə əkbəra həmminə və lə məbləğa ilminə, və lə tusallit aleynə mən lə yərhəmunə].

*"Allahım, bizə bizi asiliklərdən qoruyacaq təqva, Cənnətə aparacaq itaətkarlıq və dünya iztirablarını yüngülləşdirəcək yəqin iman bəxş et! Allahım, həyatımız boyunca qulağımıza, gözümüzə güc ver, gücümüzə güc qat! Ölənəcən bizi onlardan məhrum etmə! Zalımlardan qisasımızı al və düşmənlərimizə qarşı bizə yardım et! Dinimizdə bizi sıxıntıya salma, dünya həyatını bizim ən əsas qayğımız etmə, elmimizi dünya həyatı ilə məhdudlaşdırma! Bizə rəhmdil olmayacaq kəsləri üstümüzə müsəllət etmə!"*[74]

Daha sonra səhabələr məclisdən qalxaraq ya iş-güc dalınca gedər, ya da zöhr – günorta qabağı istirahət etmək üçün ev-eşiklərinə dağılışardılar.

Allah rəsulu ﷺ da, adətən, bu məclisdən sonra günorta yatışı üçün evinə gedərdi. Bəzən isə ziyarət qəsdi ilə, yaxud hər hansı bir dəvət səbəbi ilə və ya özünün hər hansı bir ehtiyacını qarşılamaqdan ötrü Mədinənin bazarlarına dəyərdi.

# MƏDİNƏNİN YOLLARINDA

Allah rəsulu ﷺ gəzərkən kibr əhlinə xas olan süni ciddiyyətdən və rəsmiyyətdən tamamilə uzaq bir şəkildə gəzər, addımlarını əzm və qətiyyətlə atardı. Gəzərkən addımlarını iri atar və ayaqlarını yerə sürtməzdi. Hündür yerdən aşağıya doğru enən kəsin yürüşü kimi vüqarlı şəkildə gəzər, yürüşündə halsızlıq və bitkinlik görülməzdi. Yolda gəzərkən sağa-sola boylanmaz, kənardan ona səslənən kəsə doğru başı ilə deyil, bütün bədəni ilə dönərdi. Əshabı onunla birlikdə gəzdikdə arxasında deyil, önündə və ətrafında yürüyərdi. Arxasını daim mələklərə saxlayardı. Kibrli sultanlərtək yanında xidmətçilər gəzdirməzdi.[75]

Təbii ki, bütün bunlar onun təvazökarlığından doğurdu. Allah rəsulu ﷺ əshabını arxasına alaraq onların zəlil və həqir şəkildə görünmələrinə razı olmazdı, əksinə, daim onlarla birgə və onların arasında gəzərdi.

Bəzən xurma və ya sələm ağacından düzəldilmiş əsaya dayanaraq yürüyərdi. Bəzi hallarda isə əlində baş tərəfi əyri olan əsa, yaxud üzərində saçaqları olan xurma ağacının budağı ilə gəzərdi. Bütün bunlar o dövrki ərəblərin adətlərindən hesab olunurdu. Çünki gündəlik həyatlarında bu kimi əşyalara ehtiyac duyurdular.[76]

Bir dəfə Mədinənin uşaqlarından balaca bir qız yolda Peyğəmbərlə ﷺ qarşılaşmış, əlindən tutaraq onu istədiyi

yerə aparmışdı. O da öz növbəsində, onun istəyinə qarşılıq vermiş, əlini əlindən ayırmamış və istəyinə nail oluncaya qədər onunla birgə Mədinənin yollarında gəzişmişdi.[77]

Allah rəsulu ﷺ gülərüzlü idi və qarşılaşdığı hər kəsə təbəssüm edərdi. Cərir ibn Abdullah ﵁ demişdir: "Allah elçisi ﷺ məni hər gördükdə üzümə təbəssüm edərdi".[78]

Onun təbəssümü özündə sevgi və doğmalıq ehtiva edən xoş və ürəkaçan bir təbəssüm idi. Hətta səhabə Cərir ibn Abdullah ﵁ elə zənn etmişdir ki, Allah rəsulu ﷺ yalnız onu görəndə və məhz onun üçün təbəssüm edir. Halbuki o ﷺ, təbəssümünü heç kəsdən əsirgəməzdi. Necə ki bu haqda səhabə Abdullah ibn Haris ibn Cəz ﵁ belə demişdir: "Peyğəmbərdən daha çox təbəssüm edən birini görmədim".[79]

Allah rəsulu ﷺ uşaqların yanından keçdikdə onları salamlayar, başlarına, üzlərinə sığal çəkərdi. Cabir ibn Səmura ﵁ belə demişdir: "Allah rəsulu çıxdı, mən də onunla birgə çıxdım. Yolda onu uşaqlar qarşıladılar. Hər birinin yanağına bir-bir sığal çəkməyə başladı. Mənim də yanağıma sığal çəkdi. Əlində elə bir soyuqluq və gözəl qoxu hiss etdim ki, sanki əlini ətir qabından çıxartmışdı. Peyğəmbərin ﷺ sığal çəkdiyi yanaq o biri yanaqdan daha gözəl idi".[80]

Allah rəsulu ﷺ daim ənsarları – mədinəli səhabələri ziyarət edərdi. Onların evlərinə getdikdə ənsar uşaqları onun yanına gələr, ətrafında dövrə vurardılar. O ﷺ da onları salamlayar, başlarına sığal çəkər və onlar üçün dua edərdi.[81]

Bir dəfəsində Nəccar oğullarının evlərinin yanından keçdikdə onu əllərində dəflər olan balaca qızlar qarşıladılar və dəfə vuraraq nəğmələr söyləməyə başladılar:

Biz Nəccar oğullarının qızları
Muhəmməd isə onların gözəl qonşuları!

Bunu eşitcək Allah elçisi ﷺ belə dedi: *"Allah şahiddir ki, qəlbim sizi sevir. Allahım, onlara bərəkət bəxş et!"*[82]

Bir dəfə məscidin yanından keçdikdə orada oturmuş bir dəstə qadın gördü və əli ilə işarə edərək onları salamladı.[83]

Allah rəsulu ﷺ yolda biri ilə qarşılaşdıqda, ilk öncə, özü salam verər, əl ilə görüşər və dua edərdi. Əl verib görüşdükdə görüşdüyü kəs əlini çəkmədikcə o ﷺ, əlini çəkməzdi. Yolda qarşılaşdığı kəs ilə söhbət etdikdə üzünə baxar, o, üzünü çəkmədikcə Allah rəsulu ﷺ da üzünü yan çevirməzdi.[84]

Yolda yürüyərkən ona səslənən, durmasını, onunla söhbət etməsini istəyən kəs üçün, hətta bunu ondan rica edən kəs qadın və ya balaca qız uşağı olsaydı belə, ayaq saxlayardı. Ədiy ibn Hatim ət-Tai ؓ Peyğəmbər ﷺ ilə ilk görüşü barədə danışarkən belə demişdir: "Allah rəsulu ﷺ ilə birgə yürüyərkən birdən yanında uşağı olan bir qadın "ey Allahın elçisi, sənə ehtiyacımız var" deyərək ona səsləndi. O da onların ehtiyacını dinləmək üçün bir xeyli ayaq üstə durmalı oldu, hətta o qədər ayaq üstə durdu ki, ona yazığım gəldi. Öz-özümə belə dedim: "Həqiqətən də, sən mənim və Noman ibn Munzirin[85] dininə tamamilə yad birisən. Əgər sən (bəzilərinin zənn etdikləri kimi) padşah olsaydın, heç vaxt bir qadın və uşaq üçün bu qədər ayaq üstə durmazdın". Beləcə Uca Allah onun sevgisini mənim qəlbimə yerləşdirdi".[86]

Allah rəsulu ﷺ yürüyərkən sünilikdən tamamilə uzaq sadə və səmimi bir şəkildə yürüyərdi. Hətta bir dəfəsində yol ilə gedərkən qoyunun dərisini soyan, lakin bu işi

mükəmməl şəkildə bacarmayan bir gəncin yanından keçdikdə ona belə dedi: *"Əl saxla, sənə dərinin soyulma qaydasını göstərim. Görürəm, bu işi mükəmməl bacarmırsan"*. Daha sonra əlini qoyunun əti ilə dərisi arasına saldı, buduna qədər itələdi. Sonra isə: *"Bax, ey gənc, dəri bu cür soyulmalıdır"*, – dedi və yoluna davam etdi.[87]

Beləcə o ﷺ, gənc nəsil ilə orta nəsil arasında əlaqə körpüləri qurar, onlarla bütünləşər və daim yanlarında olardı.

Nə qədər də qəribədir! Görəsən, peyğəmbərinin onun şəxsi bir işinə müdaxilə etməsini və bu işdə ona yardım əlini uzatmasını görən bu gənc nə hisslər keçirirdi?!

Bir dəfə əshabı ilə birgə səhabələrdən birinin evində idi. Bilal رضي الله عنه gələrək onu namaza çağırdı. Evdən çıxdı və yolda ocaq üstə qazan asmış biri ilə qarşılaşdı. Ona belə dedi: *"Yeməyin hazırdırmı?"* Dedi: "Anam, atam sənə fəda olsun, ey Allahın elçisi, bəli, hazırdır". Yeməkdən bir tikə ət götürdü və yürüyərək onu yedi. Daha sonra da gedib camaata namaz qıldırdı.[88]

Bax onun həyatı bu cür sadə idi və dostları ilə birgə keçirdi. Onun bir tikə ət götürməsi və onu yürüyərək yeməsi necə də təkəbbürlü insanların xislətinə yad bir hərəkət idi! Yeməyin sahibinə gəldikdə isə, bəlkə də, həmin gün onun həyatının ən xoşbəxt günü sayılırdı. Görün Allah rəsulu ﷺ özünəməxsus xoş və cəlbedici davranışları ilə əshabının şəxsi həyatına necə daxil olmuş və onlarla necə həmrəylik nümayiş etdirmişdi!

Allah elçisi ﷺ görüşmək və ya ziyarət etmək istədiyi kəsin qapısı önünə gəldikdə üzü qapıya doğru durmazdı, qapının ya sağ, ya da ki sol tərəfində durardı. O vaxt evlər

kiçik olardı və qapıların üstündə örtük olmazdı. Daha sonra *“əs-sələmu aleykum və rahmətullahi və bərəkətuhu”* deyərdi. Cavab eşitmədikdə salamı üç dəfə təkrarlayar, sonunda ayrılıb gedərdi.

Bu hadisələrdən biri də Səd ibn Ubadə ilə olan qissəsidir. Belə ki, bir gün Allah rəsulu ﷺ Södi ziyarət etmək üçün evinə gəlmiş *“əs-sələmu aleykum və rahmətullahi və bərəkətuhu”* deyərək onu salamlamışdı. Səd رضي الله عنه onun salamını eşitcək dərhal cavab vermiş, lakin Allah elçisi ﷺ onun cavabını eşitməmişdi. Beləcə Allah rəsulu ﷺ ikinci dəfə *“əs-sələmu aleykum və rahmətullahi və bərəkətuhu”*, – dedi. Səd رضي الله عنه yenə də ona qarşılıq versə də, Allah elçisi ﷺ onun salamını eşitmədi. Bu minvalla Peyğəmbər ﷺ üç dəfə salam verdi, sonra isə oradan ayrılıb getdi. Çünki Allah rəsulu ﷺ üç dəfədən artıq salam verməzdi. Evə daxil olması üçün izin verilərdisə, daxil olar, əks halda isə oranı tərk edərdi. Peyğəmbərin ﷺ getdiyini hiss edən Səd dərhal onun arxasınca gəlib dedi: “Ey Allahın elçisi, səni haqq ilə göndərənə and olsun ki, hər dəfə salam verdikdə onu eşidir və sənə cavab verirdim. Lakin mən istədim ki, sən bizim üçün (həm mənim, həm də ailəm üçün) çox dua edəsən (yəni çox salam verəsən)”.[89]

## PEYĞƏMBƏR ﷺ ZİYARƏTİ

Allah rəsulu ﷺ bəzi günlərdə günortaya yaxın bir vaxtda ziyarət etmək istədiyi qohumlarının, dostlarının qonağı olardı.

Buna misal olaraq, nəvəsi Həsəni görmək üçün qızı Fatimənin evinə getməsini qeyd etmək olar. Əbu Hureyrə ؓ rəvayət edir ki, bir gün Allah elçisi ﷺ günortaya yaxın bir vaxtda çölə çıxdı, məni məsciddə gördü və əlimdən tutdu. Mən də Peyğəmbərin ﷺ əlindən tutaraq onunla yol yoldaşı oldum. Nə o mənə bir kəlmə söz dedi, nə də mən ona. Beləcə gəlib Qaynuqa bazarına çatdıq. Oranı dövr etdi, ətrafa göz gəzdirdi və keçib getdi. Mən də onunla birlikdə idim. Nəhayət, gəlib qızı Fatimənin evinə çatdı, həyətdə oturdu və *"Balaca haradadır? Balaca haradadır? Əlinin oğlu Həsəni çağırın!"* deyərək nəvəsini səslədi. Lakin səsinə səs verən olmadı. Sən demə, onun gəlməsinə anası Fatimə mane olmuş, (babası ilə görüşə hazırlanması üçün) əl-üzünü yumuş və boynuna ətirli güldən hazırlanmış bir boyunbağı taxmışdı. Allah rəsulu ﷺ oradan ayrıldı, mən də onunla birgə getdim və gəlib məscidə çatdıq. Yerdə oturdu, dizlərini qucaqladı və *"Balaca haradadır? Balacanı çağırın!"* – dedi. Çox keçmədi ki, Həsən boynunda ətirli güldən hazırlanmış boyunbağı ilə qaça-qaça gəldi. Onu görcək Allah rəsulu ﷺ əllərini nəvəsinə doğru uzatdı. Balaca Həsən

də əllərini açaraq qaça-qaça gəlib babasının qucağına atıldı, boynuna sarıldı. Allah rəsulu ﷺ nəvəsini öpərək sinəsinə sıxdı. Həsən isə əlini Peyğəmbərin ﷺ saqqalına saldı. Sonra Allah rəsulu ﷺ mübarək dodaqlarını onun dodaqlarına toxundurdu və üç dəfə belə dedi: *"Allahım, mən onu sevirəm, Sən də onu və onu sevənləri sev!"*

Əbu Hureyrə ؓ hər dəfəsində bu səhnəni xatırladıqda belə deyərdi: "Hər dəfə Həsəni gördükdə gözlərim yaşla dolur".[90]

Bir gün yenə də Allah rəsulu ﷺ günorta vaxtı qızı Fatiməni ziyarət etmək üçün onun evinə getdi və *"əmin oğlu haradadır?"* deyərək Əlini soruşdu. Fatimə anamız belə cavab verdi: "Aramızda bir şey baş verdi və o da evdən çıxıb getdi". Allah elçisi ﷺ onu axtarması üçün bir nəfəri göndərdi və həmin şəxs gəlib dedi ki, Əli məsciddə yatıb. Allah rəsulu ﷺ onun yanına getdi və onu məsciddə böyrü üstə yatan gördü. Ridası – göbəkdən yuxarı bədəni örtən geyim növüdür – üstündən düşmüş, bədəni isə toz-torpağa bulaşmışdı. Allah rəsulu ﷺ mübarək əli ilə onun bədənindən torpağı təmizləyərək: *"Ey Əbu Turab, qalx! Ey Əbu Turab,*[91] *ayağa qalx!"* – deyirdi.[92]

Allah rəsulu ﷺ günün bu vaxtı onu körpəliyində himayəsi altına almış Ummu Əyməni də ziyarət edərdi. Bir dəfə onun yanına getdikdə Ummu Əymən ona yemək təklif etdi. Allah elçisi ﷺ isə ya oruclu olduğundan, ya da iştahası çəkmədiyindən dolayı yeməkdən imtina etdi. Bunu görcək Ummu Əymən qəzəbləndi, səsini qaldıraraq öz etirazını bildirdi və nəhayət, Allah rəsulu ﷺ həmin təamı yeməli oldu.[93]

Beləcə Ummu Əymən bir ananın öz övladına can yandırdığı kimi, Peyğəmbərə ﷺ olan sevgisindən dolayı onu azarladı. Kərim Peyğəmbər ﷺ də, öz növbəsində, onun bu hərəkətinə gözəl və lətif bir şəkildə qarşılıq verdi.

O ﷺ, daima zəif və kasıb müsəlmanları ziyarət edər, xəstələrinə baş çəkər, dəvətlərini qəbul edər və evlərində qonaq olardı. Bəzən onları tək ziyarət edərdi.

Bu qəbildən olan ziyarətlərdən biri də Peyğəmbərin ﷺ Ənəs ibn Malikin nənəsi Muleykənin dəvətini qəbul edərək onu ziyarət etməsidir. O, Peyğəmbəri ﷺ öz əli ilə hazırladığı yeməyə dəvət etmiş, Allah rəsulu ﷺ da həmin yeməkdən yemiş və sonra belə demişdir: *"Durun, sizə namaz qıldırım!"* Ənəs رضي الله عنه deyir ki, mən qalxıb uzun müddət istifadədən dolayı köhnəlmiş, qaralmış bir həsir gətirdim və üzərinə su səpdim. Allah rəsulu ﷺ həmin həsirin üzərində durdu. Mən və yetim uşaq onun arxasında, qarı nənə isə bizim arxamızda durdu. Allah elçisi ﷺ bizim üçün iki rükət namaz qıldı və sonra ayrılıb getdi.[94]

Hərdən bu cür qonaqlıqlara tək deyil, ailəsi ilə birgə gedərdi. Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Peyğəmbərin ﷺ yaxşı şorba bişirən fars bir qonşusu var idi. Bişirdiyi şorbanın ətri son dərəcə gözəl qoxardı. Bir gün qonşusu onun üçün yemək hazırlayıb evinə dəvət etdi. Peyğəmbər ﷺ *"Aişə də mənimlə olacaq"*, – dedi. Qonşusu "xeyr" dedikdə Peyğəmbər ﷺ də "xeyr" dedi. Sonra qonşusu onu ikinci dəfə dəvət etdi, yenə də Allah rəsulu ﷺ Aişə anamızı qəsd edərək *"o da mənimlə olacaq"*, – dedi. Qonşusu yenə də "xeyr!" dedikdə, Allah elçisi ﷺ geri döndü. Bu minvalla həmin qonşu Peyğəmbəri ﷺ üçüncü dəfə evinə qonaq çağırdı, Allah rəsulu ﷺ yenə də Aişə anamıza işarə edərək "bəs bu?" –

dedi. Qonşusu bu dəfə "bəli" dedikdə Peyğəmbər ﷺ və xanımı Aişə bir-birlərini itələyə-itələyə (zarafatlaşaraq) onun evinə getdilər.[95]

Bir gün bir dərzi yemək hazırlayıb Peyğəmbəri ﷺ qonaq çağırdı. Ənəs ibn Malik ؓ deyir ki, mən də Peyğəmbərlə ﷺ birgə bu qonaqlığa getdim. Adam Peyğəmbərin ﷺ qabağına arpa çörəyi və içində balqabaq və qurudulmuş ət tikələri olan şorba qoydu. Allah rəsulu ﷺ həmin şorbadan yeməyə başladı və çox bəyəndi. Mən onun həmin balqabaq və ət tikələrini necə seçib yediyini gördüm. Bunu gördükdə mən öz qabımda olan tikələri də onun qabına qoydum və özüm yemədim. Elə həmin gündən bəri mən də bu yeməyi (balqabaq və qurudulmuş əti) sevməyə başladım.[96]

Bəzən qonaqlığa əshabı ilə birgə gedərdi.

Buna misal olaraq, onun ﷺ İtban ibn Maliki ؓ ziyarət etməsini qeyd etmək olar. Belə ki, Allah rəsulu ﷺ onun evində namaz qılsın deyə, İtban onu evinə dəvət edərək Peyğəmbərə ﷺ belə deyir: "Ey Allahın elçisi, mənim gözlərim çox zəifləyib. Özüm də qövmümə namaz qıldırıram. Yağış yağdığı zaman mənimlə onlar arasında olan vadini su basır deyə, məscidlərinə gedib onlara namaz qıldıra bilmirəm. Ey Allahın rəsulu, istəyirəm ki, sən bizim evə gəlib orada namaz qılasan, mən də həmin yeri namazgah edim". Peyğəmbər ﷺ deyir: *"Allah qoysa, mən bunu edərəm"*. Ertəsi gün səhər tezdən Allah rəsulu ﷺ Əbu Bəkr və Ömər də daxil olmaqla bir neçə dostu ilə birgə onun evinə getdi. Evə daxil olduqda ona belə dedi: *"Evin harasında namaz qılım?"* İtban ؓ Peyğəmbərə ﷺ evində bir yer göstərdi, namaz qılması üçün yerə həsir sərdi və həsirin üstünə azacıq su səpdi. Allah elçisi ﷺ onlara iki rükət namaz

qıldırdı. Daha sonra İtban ؓ Peyğəmbəri bir az yubatdı ki, onun üçün hazırladığı yeməkdən yeyə bilsin. Beləcə Allah rəsulu ﷺ onun evində nahar etdi.[97]

Allah rəsulu ﷺ ziyarət etdiyi kəslərlə xoş və səmimi ünsiyyət qurar, onların hamısı ilə, hətta gənclər və uşaqlarla belə gözəl əxlaqla rəftar edərdi. Ənəs ibn Malik ؓ deyir ki, Allah rəsulu ﷺ insanlar içində əxlaqı ən gözəl olan idi. O bizimlə (uşaqlarla) ünsiyyət qurardı. Mənim Əbu Umeyr adlı üç yaşlı kiçik bir qardaşım var idi. Allah rəsulu ﷺ bizə gəldikdə onunla zarafatlaşar və onu güldürərdi. Bir gün bizə gəldikdə qardaşımı qəmgin halda gördü və belə dedi: *"Ey Ummu Suleym, mən nə üçün oğlun Əbu Umeyri üzgün, bitkin görürəm?"* Belə dedi: "Ey Allahın elçisi, onun daima özü ilə oynadığı sərçəyə bənzər bir quşu var idi və həmin quş öldü. (Qəmgin olmasının səbəbi də məhz budur)". Allah rəsulu ﷺ uşağa tərəf yönəldi və başına sığal çəkə-çəkə: *"Ey, Əbu Umeyr, balaca quşuna nə oldu? Ey, Əbu Umeyr, balaca quşuna nə oldu?"* deyərək uşağın könlünü almağa başladı.[98]

Mahmud ibn Rabi ؓ demişdir: "Beş yaşımda ikən Peyğəmbərin ﷺ su qabından (ağzına su alıb) üzümə püskürtdüyünü yadımda saxlamışam".[99]

Bu xoş əyləncəyə fikir ver və gör ki, Peyğəmbərin ﷺ bu xoş rəftarı necə də balaca Mahmudun yaddaşında həkk olmuşdur. Peyğəmbərin ﷺ bir uşaqla bu cür zarafatlaşması, onun üzünə su səpməsi, habelə balaca bir uşağa diqqət göstərərək onun kədərinə şərik olması və ondan balaca quşunu soruşması nə heyrətamiz bir haldır!

Uşaqların Peyğəmbərdən ﷺ gördükləri bu isti münasibət nə gözəldir! Əshabının öz övladlarını Allah rəsulunun ﷺ

yanında bu şəkildə gördükdə keçirdikləri hisslər nə ülvi bir hissdir!

Dostlarından kimisə evində ziyarət etdikdə, süfrələrində qonaq olduqda onlar üçün dua edər və Allahdan xeyir-bərəkət diləyərdi. Bir dəfə Səd ibn Ubadəni ﵁ ziyarət etmiş, ona təqdim olunan çörək və yağı yedikdən sonra ev əhli üçün belə dua etmişdir:

«أَفْطَرَ عِنْدَكُمُ الصَّائِمُونَ، وَأَكَلَ طَعَامَكُمُ الْأَبْرَارُ، وَصَلَّتْ عَلَيْكُمُ الْمَلَائِكَةُ»

[Əftara indəkumus-saimun, və əkələ təaməkumul-əbrar, və sallət aleykumul-məlaikə].

*"Süfrənizdə oruc tutanlar iftar açsın, yeməyinizi yaxşı adamlar yesin və mələklər də sizin üçün dua etsin!"*[100]

Bir dəfə Allah elçisi ﷺ Busr ibn Əbu Busru ﵁ ziyarət etmək üçün onun evinə getdi. Elə evə yaxınlaşmışdı ki, Busr və yoldaşı evdən çıxdılar, Peyğəmbəri ﷺ salamlayaraq onu qarşıladılar. Üzərində oturması üçün məxmərdən hazırlanmış bir döşəkçə verdilər. Sonra Busr ﵁ həyat yoldaşına dedi: "Bişirdiyin yeməyi gətir!" Qadın içində su, duz və undan hazırlanmış şorba dolu kasanı gətirib Peyğəmbərin ﷺ önünə qoydu. Allah elçisi ﷺ yeməkdən yedi, onlar da onunla birgə yedilər, hətta yeməkdən bir az da artıq qaldı. Daha sonra Allah rəsulu ﷺ onlar üçün dua edərək belə dedi: *"Allahım, onları bağışla və onlara rəhm et! Onlara bərəkət ver və ruzilərini geniş (bol) et!"*[101]

Bir dəfəsində Cabir ibn Abdullahı ﵁ evində ziyarət etdi. Cabir ﵁ yoldaşına dedi: "Bu gün günorta Allah elçisi ﷺ bizə gələcək. Onunla danışma, ona suallar vermə və onu narahat etmə!" Daha sonra Cabir ﵁ Allah rəsulunun ﷺ gəlişi şərəfinə kök bir çəpiş kəsdi. Həmin yeməyi Peyğəmbərin ﷺ önünə qoyduqda Allah rəsulu ﷺ ilk öncə yeməyə baxdı, sonra belə

dedi: *“Ey Cabir, sanki sən bizim ət xoşladığımızdan xəbərdarsan!”* Daha sonra o və onunla birgə olanlar həmin təamdan yedilər. Allah rəsulu ﷺ evdən çıxmaq istədikdə Cabirin həyat yoldaşı onu səslədi. O, evin bir kənarında durmuşdu və görünmürdü (yalnız səsi eşidilirdi). Belə dedi: “Ey Allahın elçisi, mənim üçün və yoldaşım üçün dua et!” Allah rəsulu ﷺ dedi: *“Allah sənə və sənin ərinə xeyir-bərəkət versin!”* Allah elçisi ﷺ ayrılıb getdikdən sonra Cabir ﵁ yoldaşını tənbehləyərək dedi: “Məgər, mən sənə Allah elçisi ilə danışma demədimmi?!” Qadın dedi: “Elə zənn edirsən ki, Uca Allah Öz elçisini mənim evimə gətirəcək, sonra da Allah rəsulu ﷺ çıxıb gedəcək və mən ondan özüm və ərim üçün dua etməsini istəməyəcəm?!”[102]

Səhabələrin həyatı Peyğəmbərin ﷺ dəyərli nəsihətləri, təlim-tərbiyəsi, habelə onun bərəkəti və duaları ilə əhatəli idi. Uca Allah Öz peyğəmbəri vasitəsilə onlara böyük bir lütf əta etmişdir. Peyğəmbər ziyarəti onlar üçün rəhmət və bərəkət mənbəyi idi. Peyğəmbəranə ziyarət öz-özlüyündə böyüklərə hörmət, kiçiklərə isə şəfqət əlaməti idi. Onun ﷺ öz dostlarını ziyarət etməsi və bu yolla əshabına nəbəvi tərbiyəni aşılaması onların ruhunda nübüvvət dəyərlərini daha da dərinləşdirərdi.

Abdullah ibn Amr ibn Rabia ﵁ demişdir: “Allah rəsulu ﷺ bizim evə gəldi. Mən balaca uşaq idim. Oynamaq üçün evdən çıxmaq istədikdə anam mənə dedi: “Ey Abdullah, gəl, götür!” Allah elçisi ﷺ qadına dedi: *“Ona nə vermək istəyirsən?”* Qadın cavabında: “Xurma verəcəm” dedikdə Allah rəsulu ﷺ belə buyurdu: *“Əgər elə etməsən (yəni uşağı aldatsan), üzərinə yalan danışmaq vəbalı – günahı yazılacaqdır”*.[103]

Allah rəsulu ﷺ tərəfindən anaya yönəldilmiş bu nəsihət həm də, öz növbəsində, doğru danışmağın əhəmiyyətinə dair həmin uşağın zehnində dərin izlər buraxacaqdır. Fikir verin, elə bu hadisəni həmin uşağın özü, yəni Abdullah ibn Amr rəvayət etmişdir. Görün o, bu hadisəni necə yadda saxlamış və daha sonralar Muhəmməd ümməti üçün nəql etmişdir. Beləcə bu hadisə bizə qədər gəlib çatmışdır.

Allah rəsulu ﷺ bir gün Səd ibn Ubadəni ؓ ziyarət etdi. Məclisdə ikən Bəşir ibn Səd ؓ belə dedi: "Ey Allahın elçisi, Uca Allah bizə sənə dua etməmizi əmr etmişdi. Sənə necə dua edək?" Allah rəsulu ﷺ bir müddət sakitliyə qərq oldu, hətta içimizdən keçdi ki, kaş ki ona sual verilməyərdi. Sonra Peyğəmbər ﷺ belə buyurdu: *"Bu cür deyin: "Allahım, İbrahimə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən həmdü-sənaya və tariflərə layiqsən".[104] Peyğəmbərə salam verməyin qaydası isə bundan öncə öyrəndiyiniz kimidir".*[105]

Allah rəsulunun ﷺ bu şəkildə bir anlıq sükuta qərq olması sənin də təəccübünə səbəb olmuşdur. Bəli, o bununla məclisdə olanların diqqətini özünə cəlb etmiş və hər kəs maraq içərisində Peyğəmbərin ﷺ verəcəyi cavabı gözləmişdir. Beləcə maraq içərisində həyəcanla gözlənilən bir cavab zehinlərdə həkk olmuş və heç vaxt unudulmamışdır. Uca Allahın salamı və bərəkəti daim insanlara xeyir öyrədən ən xeyirli müəllimin üzərinə olsun!

Allah elçisi ﷺ İtban ibn Maliki ؓ ziyarət edərkən onun evinə çoxsaylı insan toplaşdı. İnsanlardan biri belə dedi: "Malik ibn Duxşum haradadır? Onu görmürəm". Məclisdə olanlardan biri: "O, münafiqdir, Allah və rəsulunu sevmir", – dedi. Bu sözləri eşidən Peyğəmbər ﷺ isə belə buyurdu:

*“Belə söyləmə! Məgər bilmirsinizmi ki, o, Uca Allahın rizasını güdərək “lə iləhə illəllah” demişdir?!”* Sözün sahibi Peyğəmbərə ﷺ belə cavab verdi: “Doğrusunu Allah və Rəsulu bilir! Lakin biz daim onu münafiqlərlə birgə oturub-duran və onlarla isti münasibət quran görürük”. Allah rəsulu ﷺ isə cavabında belə buyurdu: *“Uca Allah Öz rizasını güdərək “lə iləhə illəllah” deyən kəsə Cəhənnəm odunu haram etmişdir”.*[106]

Fikir verin, Peyğəmbər ﷺ adi bir məclisdə öz əshabına müsəlmanın heysiyyətini qorumağa, onun yoxluğunda belə şənini uca tutmağa dair dərs keçdi və bütün diqqəti həmin kəsdə olan müsbət cəhətlərə yönəltdi. Təbii ki, insan üçün ən müsbət cəhət onun tövhid qapısından keçərək muvahhid – tək Allaha ibadət edən kəs olması olduğuna görə Allah elçisi ﷺ də *“məgər bilmirsinizmi ki, o, Uca Allahın rizasını güdərək “lə iləhə illəllah” demişdir?!”* söylədi.

Bəs biz necə?! Əgər biz “lə iləhə illəllah” deyən bir müsəlmanın heysiyyətini qorumasaq, məclislərimizin saflığından, təmizliyindən necə danışa bilərik?!

# ꧁ PEYĞƏMBƏRİN ﷺ XƏSTƏ ZİYARƏTİ ꧂

Onun ziyarətlərinə xəstə ziyarətləri də daxil idi. Allah rəsulu ﷺ xəstəlik iztirabı içində qıvrılan kəslərə daim baş çəkərdi.

Misal olaraq bu hadisəni qeyd etmək olar: Səd ibn Ubadə رضي الله عنه xəstəlikdən əziyyət çəkirdi. Allah elçisi ﷺ Əbdürrəhman ibn Ouf, Səd ibn Əbu Vəqqas və Abdullah ibn Məsud ilə birgə ona baş çəkdi. Xəstənin yanına daxil olduqda ailəsinin onun başına yığışdığını görüb soruşdu: *"Ölübmü?"* Onlar: "Xeyr, ey Allahın rəsulu!" deyə cavab verdilər. Peyğəmbər ﷺ (Sədi görəndə) ağladı. Oradakılar da Peyğəmbərin ﷺ ağladığını gördükdə ağlamağa başladılar. Allah elçisi ﷺ belə duyurdu: *"Eşitmirsinizmi? Uca Allah göz yaşına və qəlb üzüntüsünə görə əzab verməz. O ancaq buna görə ya əzab verər, ya da rəhm edər"* deyərək dilinə işarə etdi.[107]

Budur, İslam peyğəmbərinin rəhməti! Xəstəliyin şiddətindən dolayı özündən getmiş dostuna görə gözlərindən yaş axır.

Görəsən, Səd ibn Ubadə رضي الله عنه özünə gəldikdən və sağaldıqdan sonra Peyğəmbərin ﷺ onun bu halı üçün göz yaşı tökdüyünü bildikdə nə etdi?!

Allah elçisi ﷺ onların acılarını sanki öz cismində, kədərlərini isə öz qəlbində hiss edir, yaşayırmış kimi, onların qəm-qüssələrinə şərik oldu. Bunu görən Sədin

yaxınları: övladları, qohum-əqrəbası, görəsən, hansı hissləri keçirdilər?

Şəkk yoxdur ki, bu, Uca Allahın *"möminlərə qarşı şəfqətli və mərhəmətli"* (ət-Tövbə, 128) olaraq vəsf etdiyi rəsulunun rəhmətinin təcəllisi idi.

Peyğəmbərin ﷺ Cabir ibn Abdullahı ؓ ziyarət etməsini də misal kimi qeyd etmək olar. Cabir ؓ demişdir: "Bir dəfə mən xəstələndim və Allah elçisi ﷺ Əbu Bəkrlə birgə mənə baş çəkmək üçün piyada Bəni Səlimə qəbiləsinə gəldilər. Allah elçisi ﷺ məni huşsuz vəziyyətdə gördü. Dəstəmaz aldı və dəstəmaz suyundan üzümə səpdi. Beləcə mən ayıldım və önümdə Peyğəmbəri ﷺ gördüm. Sonra ondan soruşdum: "Malımı necə bölüşdürüm? Mənim nə valideynlərim var, nə də övladlarım. Varislərim ancaq uzaq qohumlarımdır". Miras ayəsi nazil olana qədər Allah rəsulu ﷺ mənə heç bir cavab vermədi".[108]

Yeri gəlmişkən, onu da qeyd edək ki, xəstəliyi anında vəfat edəcəyi təqdirdə malının necə bölüşdürüləcəyini soruşan Cabir ؓ Peyğəmbərin ﷺ vəfatından sonra yetmiş ilə yaxın ömür sürdü.[109] Lakin o, bu hadisəni heç vaxt unutmamışdı.

Şəkk yoxdur ki, zəif, gücsüz və xəstə olduğu vaxtda bir insanın yanında olmaq onun zehnində silinməyəcək iz buraxır. Allah rəsulu ﷺ da öz dostları ilə belə idi. Heç vaxt onları tək buraxmaz, sıxıntılı günlərdə öz təsəllisi, sevincli günlərdə isə dostluğu və həmkarlığı ilə onlarla birgə olar, beləcə onların qəlbinə tam mənası ilə nüfuz edərdi.

## MƏDİNƏNİN BAĞLARINDA

Allah rəsulu ﷺ bəzən Mədinənin bağlarına gedərək kölgəliklərə çəkilər, özünü orada toparlayar və ən yaxın dostları ilə oturub söhbətləşərdi. Çox vaxt Əbu Talhanın bağına – Beyruhaya gedərdi. Bağa daxil olduqda, bir kölgəliyə çəkilər və oranın gözəl suyundan içərdi. Həmin bağ Peyğəmbər məscidinin ön tərəfində – şimal istiqamətində yerləşirdi.[110]

Əbu Talhanın bağı ilə yanaşı digər mədinəli səhabələrin bağlarına da gedərdi. Misal olaraq Əbu Hureyrənin رضي الله عنه bu rəvayətini qeyd etmək olar: "Biz bir dəstə adamla Peyğəmbərin ﷺ ətrafında oturmuşduq. Əbu Bəkr və Ömər də bizimlə idi. Bu vaxt Allah rəsulu ﷺ aramızdan qalxıb getdi və geri qayıtdıqda bir qədər ləngidi. Biz onun başına bir iş gələcəyindən qorxub təşvişə düşdük və dərhal hamımız ayağa qalxdıq. Hamıdan çox mən narahat oldum və qalxıb Peyğəmbəri ﷺ axtarmağa getdim. Nəhayət, ənsardan olan Nəccar oğullarının bostanına gəldim. Bostanın ətrafına hərləndim ki, bəlkə, bir qapı tapıb ora girim, amma tapa bilmədim. Bir də baxdım ki, çöldəki su quyusundan bostanın içinə bir arx gedir. Mən yerə yatıb tülkü kimi sürünərək Peyğəmbərin ﷺ yanına daxil oldum. Allah rəsulu ﷺ: *"Əbu Hureyrədirmi?"* deyə soruşdu. Dedim: "Bəli, ey Allahın elçisi". Başmaqlarını mənə verib belə dedi:

*“Götür apar bu başmaqlarımı! Bu bostanın çölündə Allahdan başqa haqq məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan kəsə rast gəlsən, onu Cənnətlə müjdələ!”*[111]

Qubaya getdikdə Əris quyusuna da gedərdi. Sözügedən Əris quyusu Quba məscidinin qərb istiqamətində yerləşir. Osmanın ؓ xilafəti dönəmində Peyğəmbərin ﷺ üzüyü bu quyuya düşmüş və bir daha tapılmamışdır.

Əbu Musa əl-Əşari ؓ belə rəvayət edir: “Bir gün Allah rəsulu ﷺ Əris quyusuna getdi. Həmin bağın qapısı xurma ağacının liflərindən idi. Peyğəmbər ﷺ təbii ehtiyacını ödəyib dəstəmaz aldıqdan sonra onun yanına gəldim, gördüm ki, ayaqlarını çırmalayıb və quyunun üst tərəfində oturaraq ayaqlarını quyuya sallayıb. Əlində olan bir çubuqla yerə vura-vura düşünürdü. Yaxınlaşıb salam verdim və sonra kənara çəkilərək qapının kandarında oturdum. Öz-özümə dedim ki, mən bu gün Peyğəmbərin ﷺ gözətçisi olacam. Daha sonra Əbu Bəkr ؓ gələrək daxil olmaq üçün izin istədi. Allah rəsulu ﷺ: *“Ona izin ver və onu Cənnətlə müjdələ!”* – dedi. Bu xəbəri Əbu Bəkrə çatdırdıqda Allaha həmd etdi və bağa daxil olaraq quyunun üstündə Peyğəmbərin ﷺ sağ tərəfində oturdu, o da Allah rəsulu ﷺ kimi ayaqlarını çırmalayaraq quyuya salladı. Bir müddət keçdikdən sonra Ömər ؓ gəldi və içəri keçmək üçün izin istədi. Allah rəsulu ﷺ: *“Ona izin ver və onu Cənnətlə müjdələ!”* – dedi. Bu xəbəri Ömərə çatdırdıqda Allaha həmd etdi və bağa daxil olaraq quyunun üstündə Peyğəmbərin ﷺ sol tərəfində oturdu, ayaqlarını çırmalayaraq quyuya salladı. Daha sonra Osman ؓ gəldi və izin istədi. Allah rəsulu ﷺ: *“Ona izin ver və onu başına gələcək müsibətlər müqabilində Cənnətlə müjdələ!”* – dedi. Bu xəbəri Osmana çatdırdıqda, ilk öncə, Allaha həmd etdi

və sonra belə dedi: "Yardım Allahdandır! Allahım, mənə səbir ver!" Osman bağa daxil olduqda gördü ki, quyunun üstündə oturmaq üçün boş yer yoxdur və keçib qarşı tərəfdə əyləşdi.[112]

Peyğəmbərin ﷺ Mədinənin bağlarına getməsi özünü toparlaması, oranın kölgəliklərində istirahət etməsi, gündəlik fəaliyyət tempini yeniləməsi, yaşam tərzinə canlılıq qatması və bu bağların sahibləri ilə ünsiyyət qurması üçün bir vəsilə idi. Onlar Peyğəmbərin ﷺ ayaq basdığı və istirahətə çəkildiyi bu yerlərdə onun paklığını və bərəkətini hiss edirdilər. O ﷺ, qədəm qoyduğu hər yerə özü ilə bərəkət gətirərdi.

## GÜNORTA İSTİRAHƏTİ

Allah rəsulu ﷺ, adətən, Zöhr qabağı həmin günü yanında qaldığı yoldaşının evinə gedərdi. Evə daxil olduqda ilk gördüyü iş Uca Allahı zikr etmək, misvakla dişlərini təmizləmək və ev əhlini salamlamaq idi.[113] Daha sonra dörd rükət Duha namazı qılardı. Bəzi hallarda isə rükətlərin sayını artırar, altı və ya səkkiz rükət qılardı.[114]

Bəzən evə daxil olduqda yeməyin hazır olduğunu görər və əgər həmin gün səhər yemək yeməmişdirsə, o yeməkdən nuş edərdi. Bəzən isə oruclu olduğu halda ona yemək təqdim olunar və buna görə də (nafilə – könüllü tutduğu) orucunu pozardı. Bir gün Aişə anamız ona belə dedi: "Ey Allahın rəsulu, bizə bir ziyarətçi gəldi və özü ilə bir hədiyyə gətirdi. Sənin üçün bir şey saxlamışam". Allah elçisi ﷺ *"o nədir?"* deyə soruşduqda Aişə anamız belə cavab verdi: "Heysdir (xurmanın, yağ və kəsmiyə oxşar qida məhsulunun qarışığından hazırlanmış yemək növü)". Allah rəsulu ﷺ dedi: *"Onu gətir!"* Aişə anamız yeməyi gətirdi, Allah elçisi ﷺ də nuş etdi, sonra isə belə dedi: *"Bu gün səhər oruc tutmuşdum"*.[115]

Bir gün də Zöhr qabağı yoldaşı Cüveyriyənin yanına daxil olduqda onu namazgahında Allahı zikr edən görür. Həmin günü sübh çağı onun yanına daxil olduqda da o ibadətdə idi. Peyğəmbər ﷺ dedi: *"Sən indiyə qədər yerində*

*oturmusan?"* Cuveyriyə dedi: "Bəli". Allah rəsulu belə buyurdu: *"Amma mən sənin yanından ayrıldıqdan sonra üç dəfə dörd cümlədən ibarət elə bir zikr etmişəm ki, əgər onlar tərəzidə çəkilərsə, sənin gün ərzində dediklərindən (bütün zikrlərindən) ağır gələr":*

«سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ، و رِضَا نَفْسِهِ، و زِنَةَ عَرْشِهِ، ومِدَادَ كَلِمَاتِهِ»

[Subhənəllahi va bi həmdihi, adədə xalqihi, va rida nəfsihi, va zinətə arşihi, va midədə kəlimətihi].

*"Məxluqatının sayı, Özündən razı olduğu, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!"*[116]

Bu vaxt, yəni Zöhr qabağı Peyğəmbərin ﷺ ev əhli ilə baş-başa qaldığı və istirahətə çəkildiyi bir vaxt idi. Bəzi hallarda isə bu saatda onun yanına möminə qadınlar gələr və dinləri ilə əlaqəli camaat içində verə bilmədikləri sualları Peyğəmbərə ﷺ verərdilər. Təbii ki, onlar bu kimi sualları Peyğəmbərin ﷺ yoldaşlarının önündə ona ərz edərdilər. Onlar da, öz növbələrində, qadınlarla əlaqəli Allah rəsulunun ﷺ verdiyi bu cavabları yadda saxlayar və daha sonra bilməyənlərə öyrədərdilər.

Misal olaraq bu hadisəni qeyd etmək olar: Bir dəfə mədinəli qadınlardan biri Peyğəmbərin ﷺ yanına gələrək heyzdən sonra yuyunmağın necəliyi barədə ona sual verdi. Həmin vaxt Allah elçisi ﷺ Aişə anamızın yanında idi. Allah rəsulu ﷺ sualın cavabında belə dedi: *"Sizdən (qadınlardan) biri öz suyunu, sidrini götürər və onunla təmizlənər, yaxşıca yuyunar, sonra isə suyu başından aşağı tökər və su saçının dibinə çatana qədər başını yaxşıca ovalayar. Daha sonra üzərinə (bədəninə) su tökər. Sonra isə müşkə batırılmış pambıq parça götürər və onunla təmizlənər".* Qadın soruşdu: "Onunla necə təmizlənim?" Allah rəsulu ﷺ həya etdi və üzünü yan çevirdi.

Aişə anamız deyir ki, o zaman ki Peyğəmbərin ﷺ üz çevirdiyini gördüm, həmin qadını özümə tərəf çəkdim və dedim: "Onunla qan ləkələri qalmış yerləri silib təmizlə". Bu dediyimi Allah rəsulu ﷺ eşitdi və etiraz etmədi.[117]

Bir dəfə Allah elçisi ﷺ yoldaşı Ummu Sələmənin yanında ikən Ummu Suleym Peyğəmbərin ﷺ yanına gəldi və belə dedi: "Ey Allahın elçisi, əgər qadın yuxuda əri ilə yaxınlıq etdiyini görsə, qüsl almalıdırmı?" Bunu eşitcək Ummu Sələmə "Yazıq səni, ay Ummu Suleym", – dedi və qadınlar Peyğəmbərin ﷺ yanında gülüşdülər. Ummu Suleym dedi: "Uca Allah haqqı dilə gətirməkdən həya etməz! Bizə qaranlıq qalan şeyləri Peyğəmbərdən ﷺ soruşub öyrənməyimiz həmin şeylərə qarşı cahil qalmağımızdan daha xeyirlidir". Allah elçisi ﷺ Ummu Suleymə dəstək olaraq Ummu Sələməyə belə dedi: *"Əksinə, sən yazıqsan, o deyil! Siz qadınların ən xeyirli olanları özlərinə aid olan şeyləri sorub-soruşduranlardır. Bəli, ey Ummu Suleym, əgər həmin qadın üzərində su görərsə, qüsl almalıdır"*. Ummu Sələmə dedi: "Ey Allahın rəsulu ﷺ, əcaba qadın da su görə bilərmi? (Heç qadın da ehtilam halına düşə bilərmi?)" Peyğəmbər ﷺ belə dedi: *"Bəs belə olmasa, övlad anasına necə oxşaya bilər?! Qadınlar da kişilər kimidir"*.[118]

Yeri gəlmişkən, onu da qeyd edək ki, ənsarlı (mədinəli) qadınlar Peyğəmbərə ﷺ sual vermək barədə çox cəsarətli idilər. Hətta Aişə anamız onların bu cəsarətini dilə gətirərək belə demişdir: "Ənsarlı qadınlar nə yaxşı qadınlardır! Həyalı olmaları onların dinlərini öyrənmələrinə mane olmur".[119]

Hərdən isə Zöhr qabağı yaxın dostlarından bəziləri müəyyən işləri ərz etmək üçün onun yanına gələrdilər.

Misal olaraq bu hadisəni qeyd etmək olar: Allah rəsulu ﷺ Aişənin yatağında ikən əynində də Aişənin əbası olduğu halda Əbu Bəkr ؓ Peyğəmbərin ﷺ yanına girmək üçün izin istədi. Həmin vaxt Peyğəmbərin ﷺ ayaqlarının üstü açıq idi. Allah elçisi ﷺ elə o vəziyyətdə də ona izin verdi. Əbu Bəkr ؓ sözünü deyib çıxıb getdi. Sonra Ömər ؓ içəri girmək üçün izin istədi. Peyğəmbər ﷺ elə həmin vəziyyətdə ona izin verdi. Ömər ؓ sözünü deyib çıxıb getdi. Sonra Osman ؓ gəldi və izin istədi. Allah elçisi qalxıb oturdu və paltarının ətəyini aşağı saldı. Sonra daxil olması üçün Osmana izin verdi. Osman da ؓ sözünü deyib çıxıb getdi. Olub-bitənləri görən Aişə belə dedi: "Ey Allahın elçisi, Əbu Bəkr içəri daxil olduqda sən yerindən tərpənmədin, ona məhəl qoymadın. Ömər içəri daxil olduqda da sən yerindən tərpənmədin, ona məhəl qoymadın. Osman isə içəri girdikdə qalxıb oturdun, paltarını da düzəltdin". Allah rəsulu ﷺ dedi: *"Mələklərin utandığı bir insandan mən utanmayımmı? Osman utancaq adamdır. Mən qorxdum ki, o vəziyyətdə ona izin versəm, istədiyini mənə deməsin"*.[120]

Aişə anamız Peyğəmbərin ﷺ ailə daxilindəki halını vəsf edərək demişdir: "Allah rəsulu ﷺ ev əhli ilə baş-başa qaldıqda insanların ən kərimi və ən həlimi olardı. Düzdür, o da digər kişilər kimi bir kişi idi, lakin son dərəcə gülərüz və təbəssümlü biri idi. Ev işlərində yoldaşlarına əl tutardı. Ayaqqabısını təmir edər, paltarını tikər, qoyununu sağar – bir sözlə, öz ehtiyaclarını özü ödəyər və hər bir kişi kimi o da öz evində iş görərdi".[121]

Bütün bunlar onun ailə münasibətlərinə verdiyi dəyəri göstərir. Əslində, onun böyük olmayan xudmani evində yoldaşlarının köməyə ehtiyac duyacaqları qayğıları, habelə

Peyğəmbərin ﷺ köməyinə ehtiyacları da yox idi. Lakin buna rəğmən, o ﷺ elə böyük bir əxlaqın sahibi idi ki, hətta ev işlərində belə həyat yoldaşlarına köməklik göstərər və bununla da onlara demək istəyərdi ki, bu ev hamımızın evi, bu həyat da hamımızın həyatıdır. Şübhəsiz ki, onun bu növ əməllərində biz müsəlmanlar üçün ailə qayğılarını gülərüzlə qarşılamağımız və ailə məsuliyyətini dərk etməyimiz baxımından böyük ibrətlər vardır. İnsanların içində insanlığa və öz ailəsinə qarşı ən xeyirxah olan kəsə – Muhəmmədə Uca Allahın salam olsun!

O ﷺ öz evində yoldaşlarına qarşı sevgi və məhəbbətə, xoş rəftara, isti münasibətə, habelə əyləncəyə, həyatın təbii axarına və sadəliyinə geniş yer ayırardı. Belə ki, bir gün Sevda anamız Aişə anamızı ziyarətə gəlir. Peyğəmbər ﷺ onunla Aişənin arasında oturur. Həmin gün Aişə anamız Peyğəmbər ﷺ üçün xırda-xırda doğranmış ətdən, yağ və undan "xazira" adlı yemək hazırlamışdı. Aişə anamız Sevdaya: "Nuş et!" dedikdə o, yeməkdən boyun qaçırır. Aişə anamız: "Ya yeyəcəksən, ya da yeməyi üzünə sürtəcəm", – deyir. O, yenə də yeməkdən imtina edir. Bunun üzərinə Aişə anamız əlini yeməyin içinə salıb, sonra da Sevdanın üzünü bulayır. Bunu görən Peyğəmbər ﷺ gülməyə başlayır və Sevdaya belə deyir: *"Sən də onun üzünə sürt!"* Sevda anamız da yeməkdən götürüb onun üzünə sürtür. Bütün bunları seyr edən Peyğəmbər ﷺ isə hər ikisi ilə birlikdə gülürdü. Beləcə Peyğəmbərin ﷺ evindən sevincli və nəşəli səs eşidilirdi. Elə bu ərəfədə məsciddən Ömərin ؓ səsi eşidildi: "Ey Abdullah ibn Ömər! Ey Abdullah ibn Ömər" deyə səslənirdi. Ömərin səsini eşidən Peyğəmbər ﷺ onun evə qonaq olacağını təxmin edib: *"Durun ikiniz də*

*üzünüzü yuyun! Çox güman ki, Ömər evə gələcək"*, – dedi. Ömər ﵁ evə yaxınlaşaraq: "Ey Allahın rəsulu, Allahın sənə salamı, rəhməti və bərəkəti olsun! Evə daxil ola bilərəmmi?" dedikdə Peyğəmbər: *"İçəri gir, içəri gir!"* – buyurdu.[122]

Bu formada ailəcanlılıq, istiqanlılıq və səmimi ünsiyyət Peyğəmbərin ﷺ həyatında xüsusi bir yer tutardı. Allah rəsulunun ﷺ da xəbər verdiyi kimi, həqiqətən, bizim dinimizdə genişlik (rahatlıq) vardır.

Peyğəmbər ﷺ Zöhr namazına qədər bir az yatıb dincələrdi. Onun günorta istirahəti, adətən, öz evində, həyat yoldaşlarının yanında olardı. Allah rəsulu ﷺ zövcələrinin evi istisna olmaqla, Ummu Suleymdən və bacısı Ummu Haramdan başqa heç kəsin evində dincəlməzdi.[123] Bunun səbəbini ondan soruşduqda isə belə demişdir: *"Mənim ona yazığım gəlir, çünki onun qardaşı mənim uğrumda şəhid olmuşdur"*.[124]

Hətta bəzən Allah rəsulu ﷺ Ummu Suleym evdə olmadıqda belə onun evinə gələr və yatağında yatıb dincələrdi. İsti yay günlərinin birində Allah rəsulu ﷺ Ummu Suleymin evində ikən yuxuya dalmış və elə tərləmişdi ki, hətta təri yatağın üzərindəki bir dəri parçasının üstündə toplanmışdı. Ummu Suleym Peyğəmbərin tərini silməyə və onu balaca bir şüşə qabın içinə sıxmağa başladı. Bu əsnada Allah rəsulu ﷺ yuxudan oyandı və *"Sən nə edirsən, ey Ummu Suleym?"* deyə soruşdu. Belə cavab verdi: "Ey Allahın rəsulu, sənin tərini ətrimə qatıram və sənin tərinin balalarım üçün bərəkətli olacağına ümid edirəm". Peyğəmbər ﷺ: *"Düz edirsən"*, – dedi və onun üçün gözəl şəkildə dua etdi.[125]

## QUBA MƏSCİDİNƏ DOĞRU

Allah rəsulu ﷺ hər altıncı gün Zöhr namazından öncə miniklə, yaxud piyada Quba məscidinə gedər, orada namaz qılardı. Bəzən Quba əhli (Auf ibn Harisin övladları) məscidə – Peyğəmbərin ﷺ yanına gələr və namazda ikən onu salamlayar, o ﷺ da işarə ilə onların salamına qarşılıq verərdi.[126]

Qubaya getdikdə Zöhr qabağı Ummu Haramın evində dincələrdi. Ummu Haram Milhənin qızı, Ummu Suleymin bacısı, Ubadə ibn Samitin رضي الله عنه yoldaşı idi. Peyğəmbərin ﷺ məhrəmlərindən sayılırdı.[127]

Bir gün Allah rəsulu ﷺ Ummu Haramın evinə gəldi. Qadın ona yemək təqdim etdikdən sonra əli ilə Peyğəmbərin saçını yoxlamağa, təmizləməyə başladı. Elə bu əsnada Allah rəsulu ﷺ yuxuya getdi. Bir müddətdən sonra gülərək yuxudan ayıldı. Ummu Haram dedi: “Səni güldürən şey nədir, ey Allahın elçisi?” Peyğəmbər ﷺ dedi: *“Yuxuda mənə Allahın yolunda savaşa çıxan ümmətimdən bir dəstə insan göstərildi. Onlar bu dənizin üzərində gəmilərə minmiş və padşahlartək taxtlarda əyləşmişdilər”*. Qadın dedi: “Ey Allahın elçisi, Allaha dua et ki, məni də onlardan etsin!” Allah rəsulu ﷺ onun üçün dua etdi. Sonra başını yerə qoyub yenidən yatdı. Bir müddət sonra yenə də gülərək ayıldı. Ummu Haram ondan gülüşünün səbəbini soruşduqda Allah

rəsulu ﷺ eyni cavabı verdi. Qadın yenə də “Allaha dua et ki, məni də onlardan etsin” dedikdə Peyğəmbər ﷺ belə buyurdu: *“Sən onların birincilərindənsən!”* Həqiqətən də, Ummu Haram Muaviyənin rəhbərliyi altında gəmi ilə cihada çıxanların arasında idi. Gəmidən endikdə miniyindən yerə yıxılmış və şəhid olmuşdur.[128]

Bu peyğəmbəranə müjdə necə də heyrətamizdir! Allah rəsulu ﷺ bu müjdəni verdikdə müsəlmanlar Ərəb yarımadasının küncündə balaca bir şəhərdə sayları az və zəif halda idilər. Belə bir vəziyyətdə Allah rəsulu ﷺ ümmətinə onların Mədinə şəhərindən xeyli uzaqlıqda olan bir dəniz (Rum – Aralıq dənizi) üzərində padşahlartək cihada çıxacaqları, güclü və izzətli olacaqları müjdəsini verdi. Halbuki o dövrdə gəmiyə minmək ərəblərin adətindən deyildi, qaldı ki, dəniz yolu ilə döyüşə çıxmaq onların adətindən olsun! Belə bir vəziyyətdə adam bilmir ki, nəyə təəccüb etsin: müsəlmanların o zamankı real imkanlarının fövqündə duran bu heyrətamiz müjdəyə, yoxsa bu nəbəvi müjdəyə tam bir yəqinliklə inanan Ummu Haramın halına?! Belə ki, həmin vaxt bu möminə qadın “görəsən, biz belə bir vəziyyətdə ikən bu necə baş verə bilər axı? Bu, görəsən, nə vaxt baş verəcək?” deyə bir sual dilinə gətirmədi. Əksinə, sanki olacaqları öz gözləri ilə görürmüşcəsinə tam bir yəqinlik içində dərhal “Allaha dua et ki, məni də onlardan etsin!” – dedi.

# ❧ ZÖHRDƏN SONRA ❧

Günəş zenit xəttini keçəndən sonra Bilal ﷺ Zöhr azanını verərdi. Əgər Peyğəmbər ﷺ yatmış olsaydı, günorta yuxusundan ayılar, müəzzinin dediklərini təkrarlayardı.[129] Sonra ehtiyac olsaydı, dəstəmaz alar və evində dörd rükət namaz qılardı.[130] O ﷺ belə deyərdi: *"Bu vaxt səma qapılarının açıldığı bir vaxtdır. Çox istərdim ki, belə bir vaxtda saleh bir əməlim Uca Allaha yüksəlsin".*[131]

Daha sonra evində fərz namazının vaxtını gözləyərdi. Bəzən bu vaxtlar evində nəvələri – Fatimənin oğlu Həsən və Hüseyn, yaxud Zeynəbin qızı Umamə də olardı. Bilal ﷺ onu namaza çağırana qədər evdə nəvələri ilə oynayardı.[132]

Bəzən məscidə getdikdə həyat yoldaşlarından birini öpərdi.[133] Məscidə daxil olduqda Bilal ﷺ namaz üçün iqamə verər, səhabələr isə onu gördükdə hamılıqla ayağa (namaza) qalxardılar.[134]

Peyğəmbərin ﷺ Həsən və Hüseyni ﷺ qucağına alaraq, yaxud Umaməni boynuna qaldıraraq məscidə gəlməsi səhabələri təəccübləndirərdi. Bəzi hallarda uşağı yanına qoyaraq namaza durardı.

Bir dəfə namaza çıxdıqda nəvələri Həsən və Hüseyni ﷺ qucağına götürərək məscidə daxil oldu, irəli keçdi və onları yerə qoydu. Sonra təkbir gətirərək namaza başladı. Namaz əsnasında səcdə etdikdə səcdəni bir xeyli uzatmalı oldu.

Arxasında namaza duran səhabələrdən Şəddəd ibn Həd ؓ başını səcdədən qaldırıb gördü ki, Peyğəmbər ﷺ səcdədə ikən nəvələri onun kürəyinə miniblər. Allah rəsulu ﷺ namazını bitirdikdən sonra camaat belə dedi: "Ey Allahın elçisi, sən namazda səcdəni çox uzatdın. Hətta biz nə isə baş verdiyini, yaxud sənə vəhy nazil olduğunu zənn etdik". Allah rəsulu ﷺ belə cavab verdi: *"Bunların heç biri baş verməmişdir. Lakin mənim iki balam üstümə çıxmışdı, mən isə onların bu məşğuliyyətlərinə mane olmaq istəmədim"*.[135]

Bəzən uşaq qucağında ikən namaza durar, əyildikdə uşağı yerə qoyar, qiyama qalxdıqda isə uşağı götürərdi. Necə ki nəvəsi Umamə ilə belə etmişdi.[136]

Allah rəsulu ﷺ Zöhr namazını ilk vaxtında qılardı. Birinci rükəti uzadar, ikinci rükəti isə nisbətən qısa tutardı. İlk iki rükətdə təxmini otuz ayə, son iki rükətdə isə bunun yarısı qədər oxuyardı.[137]

Hərdən bu namazı o qədər uzadardı ki, bir kəs Bəqi qəbirstanlığı tərəfə gedərək görməli işini həll edər, sonra evinə gedərək dəstəmaz alar və Allah rəsulu ﷺ hələ birinci rükətdə ikən məscidə qayıdardı.[138]

Bu namazda surələri səssiz oxuyardı. Camaat onun namaz qiraətini saqqalının tərpənməsindən bilərdi. Bəzi hallarda isə qiraət zamanı bir-iki ayəni eşidərdilər.[139]

Peyğəmbər ﷺ Zöhr namazını qıldıqdan sonra əshabına tərəf dönərdi. Əgər mühüm bir hadisə baş vermiş, yaxud önəmli bir məsələ ilə qarşılaşmış olsaydılar, namazdan sonra bu haqda insanlara xitab edər, öyüd-nəsihət verərdi. Çünki bu vaxt camaatın bir araya gəldiyi vaxt idi. Belə ki, hər kəs günorta yuxusundan durmuş, yaxşıca dincəlmiş və

hamılıqla bir yerə cəm olmuşdur. Təbii ki, belə bir vəziyyətdə qulaq eşitdiyini daha yaxşı qavrayardı.

Buna misal olaraq Mudar qəbiləsinin heyəti Mədinəyə gəldikdə Peyğəmbərin ﷺ namazdan sonra camaata xitab etməsini qeyd etmək olar. Allah rəsulu ﷺ onların necə kasıb və yoxsul olduqlarını gördü. Onların bu çətin və ağır vəziyyətlərini görən Peyğəmbər ﷺ çox pis oldu. Zöhr namazını qıldıqdan sonra minbərə qalxaraq camaata üz tutdu, ilk öncə Uca Allaha həmd-səna etdi və ardınca belə dedi: "Uca Allah Öz Kitabında buyurmuşdur: "*Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir*" (ən-Nisa, 1); "*Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır*" (əl-Həşr, 18). *İnsan gərək əlində olan dinarından, dirhəmindən, paltarından, bir saa (dörd ovuc) buğdasından və ya xurmasından sədəqə etsin. Hətta yarım xurma olsa belə, gərək sədəqə etsin!*" Beləcə camaatı yardımsevərliyə səslədi, təşviq etdi.[140]

Digər bir misal isə Allah rəsulu ﷺ tərəfindən zəkat məmuru olaraq vəzifələndirilən İbn Lutbiyyənin ؓ Mədinəyə döndüyü vaxt Peyğəmbərin ﷺ söylədiyi xütbədir. Belə ki, o, Mədinəyə gəldikdə "ey Allahın elçisi, bu sizin payınız, bunlar isə hədiyyə olaraq mənə verilənlərdir", – demiş, bu sözdən qəzəblənən Allah rəsulu ﷺ Zöhr namazından sonra üzünü camaata tutaraq ilk öncə Uca Allaha həmd-səna etmiş və sonra belə demişdir: "*Mən sizdən*

*bir kəsi Uca Allahın mənə həvalə etdiyi bir işə vəzifələndirirəm, o isə gələrək "bu sizin payınız, bunlar isə hədiyyə olaraq mənə verilənlərdir" deyir. Əgər o, ana-atasının evində otursaydı, bu hədiyyələr ona verilərdimi?! Muhəmmədin canı Əlində olana and olsun ki, hər kim zəkat malından haqsız olaraq bir şey əldə edərsə, Qiyamət günü həmin mal boynuna yüklənmiş vəziyyətdə Allahın hüzuruna çıxar. Sizdən bir kəsi kürəyində bağıran dəvə və ya böyürən inək, yaxud mələyən qoyunla Allahın hüzuruna çıxan görməyim!"* Sonra əllərini qoltuq altının ağlığı görünənə qədər yuxarı qaldırdı və dedi: *"Allahım, çatdırdımmı? Allahım, çatdırdımmı? Allahım, çatdırdımmı?"*[141]

Bir dəfə Zöhr namazını qıldıqdan sonra minbərə qalxdı, sonra Qiyamət saatını yada saldı və həmin gün baş verəcək dəhşətli hadisələri xatırlatdı. Daha sonra belə dedi: *"Kim məndən bir şey soruşmaq istəyirsə, qoy soruşsun! Allaha and olsun ki, bu yerdə dayandığım müddətədək məndən hər nə soruşsanız, sizə xəbər verəcəm".* Bunu eşidən camaat hönkür-hönkür ağlamağa başladı. Allah rəsulu ﷺ isə: *"Məndən soruşun!"* deyə təkrar edirdi. Bu vaxt Abdullah ibn Hüzafə əs-Səhmi ؓ ayağa qalxıb: "Mənim atam kimdir?" deyə soruşdu. Peyğəmbər ﷺ: "Sənin atan Hüzafədir", – dedi, sonra yenə: *"Məndən soruşun!"* deyə təkrar etməyə başladı. Axırda Ömər ؓ diz çöküb dedi: "Biz Rəbb olaraq Allahdan, din olaraq İslamdan və peyğəmbər olaraq Muhəmməddən razıyıq!" Ömər ؓ bunu dedikdə Allah rəsulu ﷺ susdu, sonra belə dedi: *"Xoşlamadığınız şey artıq yaxınlaşıb! Muhəmmədin canı Əlində olana and olsun ki, bayaq bu divarın üstündə mənə Cənnət və Cəhənnəm göstərildi. Bu günə qədər o cür xeyir (Cənnət kimi heyrətamiz) və şər (Cəhənnəm kimi qorxunc bir şey) görməmişdim. Əgər siz mənim bildiklərimi bilsəydiniz, az gülər,*

*çox ağlardınız".* O günə qədər səhabələr üçün bu cür ağır bir vəz olmamışdı. Hamısı üzlərini örtərək və səslərini boğaraq ağlamağa başladı.[142]

Maiz ibn Malikin ﵁ zina səbəbilə rəcm – daşqalaq olunduğu gün Zöhr namazından sonra Allah elçisi ﷺ minbərə qalxdı, Uca Allaha həmd-səna etdikdən sonra belə dedi: *"Hər dəfə Allah yolunda döyüşə çıxdıqda keçi iniltisi kimi iniltisi olan (yəni şəhvətpərəst) biri döyüşdən geri qalar. O da az miqdarda süd məhsulu (yəni qida) ilə döyüşdə iştirak edənin yoldaşına yaxınlaşaraq onu aldadar. Uca Allaha and olsun ki, belə bir iş tutan kəs görsəm, onu cəzalandıracam"*.[143]

Belə görünür ki, bütün bunların hamısı həmin vaxt baş vermiş gözlənilməz hadisələr idi deyə, Allah rəsulu ﷺ öz nəsihətini dərhal etmiş və bunu Cümə xütbəsinə qədər təxirə salmamışdır.

Sonra Allah elçisi ﷺ evinə dönər, Zöhr namazına bağlı olan iki rükətli sünnə namazını qılardı.[144]

Daha sonra əshabının yanına dönər və bəzən Əsr namazına qədər onlarla oturardı. Necə ki Əbdü Qeys heyətini qarşılayarkən də Zöhr namazından Əsrə qədər onlarla oturmuşdu.[145]

Bəzən isə günorta vaxtını müsəlmanların müəyyən ehtiyaclarını qarşılamaq üçün sərf edərdi. Bir dəfə ona xəbər çatdı ki, Quba əhli – Amr ibn Auf oğulları arasında mübahisə düşmüş, hətta bir-birlərinə daş ataraq dava etmişlər. Allah rəsulu ﷺ Zöhr namazını qıldıqdan sonra əshabına dedi: *"Haydı gedib onları barışdıraq!"* Bilala isə belə dedi: *"Əgər Əsr namazının vaxtı girsə və mən gəlməsəm, o zaman Əbu Bəkrə de, camaata namaz qıldırsın!"* Əsrin vaxtı girdikdə Bilal ﵁ azan verdi. Namazın vaxtı yetişdikdə və

Allah elçisi ﷺ geri qayıtmadıqda Bilal Əbu Bəkrin ﷺ yanına gələrək dedi: "Ey Əbu Bəkr, namazın vaxtı yetişib, Allah rəsulu ﷺ isə hələ də geri dönməyib, camaata namaz qıldıra bilərsənmi?" Əbu Bəkr ﷺ dedi: "Əgər istəsən, bəli, qıldıraram". Beləcə Əbu Bəkr ﷺ camaatın önünə keçərək təkbir gətirdi, camaat da təkbir gətirərək namaza başladı. Elə bu vaxt Allah rəsulu ﷺ qayıdıb gəldi və cərgələrin arasından keçərək birinci səfdə durdu. Camaat bir əllə digər əlin üstünə vuraraq səs çıxarmağa başladı. Əbu Bəkr ﷺ namazda ətrafa boylanmazdı, ona görə də fikir vermədi. Lakin camaat bərkdən əl çaldıqda Əbu Bəkr ətrafa arxaya çevrildi və Peyğəmbəri ﷺ gördü. Arxaya keçmək istədikdə Allah elçisi ﷺ əli ilə ona işarə etdi ki, yerində qal! Belə olduqda Əbu Bəkr ﷺ əllərini göyə qaldırıb Peyğəmbərin ﷺ ona göstərdiyi etimada görə Allaha həmd-səna etdi. Sonra da arxaya çəkilib birinci səfdə durdu. Peyğəmbər ﷺ isə önə keçib camaata namaz qıldırdı. Namazı tamamladıqdan sonra üzünü camaata tutaraq belə dedi: *"Ey insanlar, sizə nə olub ki, namazda qəribə bir şey gördükdə əl çalmağa başladınız?! Bu, qadınlara məxsus bir şeydir. Hər kim namaz əsnasında qəribə (səhv) bir şey görsə, "Subhanəllah!" – desin. Çünki "subhanəllah!" dedikdə onu eşidən kəs mütləq diqqət yetirər. Ey Əbu Bəkr, sənə işarə etdiyim halda yerində qalmağına nə mane oldu?"* Əbu Bəkr ﷺ dedi: "Əbu Quhafənin oğluna Peyğəmbərin ﷺ önündə namaz qılmaq yaraşmazdı".[146]

Digər bir misal olaraq Peyğəmbərin ﷺ Səd ibn Rabinin qızları arasında atalarından qalan mirası bölmək üçün Bəqi qəbiristanlığının şimalında yerləşən Əsvafa getməsini qeyd etmək olar. Onlar İslamda qızların atadan miras aldıqları ilk şəxslər idi. Allah elçisi ﷺ onların yanına Zöhrdən öncə getdi.

Peyğəmbərə ﷺ ət və çörəkdən ibarət nahar gətirildi, o və onunla birlikdə olanlar həmin yeməkdən yedikdən sonra Zöhr namazı üçün dəstəmaz aldılar. Allah rəsulu ﷺ onlara namaz qıldırdı, daha sonra Əsr namazına qədər onlara çatacaq miras payını aralarında bölüşdürdü. Sonra isə ona yeməyin qalan hissəsini gətirdilər, o və onunla birlikdə olanlar həmin yeməkdən nuş etdikdən sonra dəstəmaz almadan namaza durdular və Peyğəmbər ﷺ onlara Əsr namazını qıldırdı.[147]

## AXŞAMÜSTÜ

Allah rəsulu ﷺ Əsr namazı üçün azan verildikdən sonra camaatın toplanmasını gözləyərdi. Əsrin fərzindən öncə dörd rükət nafilə (könüllü) namaz qılmağı tövsiyə edərək belə demişdir: *"Əsrdən öncə dörd rükət namaz qılan kəsə Allah rəhm etsin!"*[148]

Camaat toplandıqdan sonra məscidə gedərək Əsr namazını qıldırardı. O ﷺ, Əsri ilk vaxtında qılardı. Bu barədə səhabə Ənəs ibn Malik ؓ belə demişdir: *"Əsr namazını ilk vaxtında qılmağa Peyğəmbər ﷺ qədər həris olan başqa biri yox idi".* [149] Əsr namazının qiraətini, adətən, Zöhr namazının qiraətinin yarısı qədər edərdi.[150]

Namazı tamamladıqdan sonra əshabına tərəf dönər və onlara deməyə sözü olardısa, deyərdi. Bir dəfə Əsrdən sonra camaata tərəf döndü və belə dedi: *"Bilmirəm sizə bir şey danışımmı, yaxud susummu?"* Səhabələr dedilər: "Əgər xeyirdirsə, bizə anlat, yox əgər başqa bir şeydirsə, onda Allah və Rəsulu daha yaxşı bilir!" Allah rəsulu buyurdu: *"Gözəl tərzdə yuyunaraq Allahın fərz buyurduğu dəstəmazı tam şəkildə yerinə yetirib bu beş namazı qılan elə bir müsəlman yoxdur ki, (bu əməli) qıldığı namazları arasında işlədiyi xətalarına kəffarə olmasın".*[151]

Bir dəfə Əsr namazını qılıb tamamladıqdan sonra ayağa qalxmış və üzünü məscid əhlinə tutaraq belə demişdir: *"Kim*

*tam şəkildə dəstəmaz aldıqdan sonra: "Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir!" – desə, (Qiyamət günü) onun üçün Cənnətin səkkiz qapısı açılar və o, istədiyi qapıdan içəri daxil ola bilər. Kim gözəl tərzdə dəstəmaz alıb, sonra iki rükət namaz qılar, qəlbini və üzünü buna yönəldərsə (yəni həm cismən, həm də qəlbən həmin namaza yönələrsə), Cənnətə girmək ona vacib olar".*[152]

Əsr namazından sonra əshabı ilə olan söhbəti Zöhr namazından sonrakı məclisə nisbətdə daha qısa olardı. Bunun səbəbi həm camaatın yorğunluğu, həm də iş-gücləri ilə əlaqədar idi.

Əsr namazını tamamladıqdan sonra zövcələrinin yanına gedər, bir-bir onlara dəyər, hamısı ilə yaxından maraqlanardı. Ən sonda isə həmin günü yanında qalacağı yoldaşına dəyər və onun yanında qalardı. [153] Bəzən yoldaşlarının hamısı həmin günü yanında qalacağı zövcəsinin evinə toplaşardılar. Bu isə, çox güman ki, gündüzün qısa olduğu vaxtlara təsadüf edərdi. Peyğəmbərin ﷺ hər bir yoldaşını ayrı-ayrılıqda ziyarət etməsi çox vaxt alacağından və vaxtın darlığından dolayı zövcələri bu cür addım atardılar.

Bir dəfə bütün yoldaşları Aişə anamızın evində toplaşdı. Möminlərin anası Zeynəb binti Cəhş də gəldi. Allah rəsulu ﷺ içəri daxil olduqda əlini Zeynəbə tərəf uzatdı. Bunu görcək Aişə dilləndi: "Bu Zeynəbdir!" Allah elçisi ﷺ əlini geri çəkdi. Sonra Aişə ilə Zeynəb mübahisə etməyə başladılar və səslərini qaldırdılar. Elə bu vaxt namaz üçün iqamə verildi. Evin yanından keçən Əbu Bəkr ﷺ onların səsini eşitdi və belə dedi: "Ey Allahın rəsulu, namaza gəl,

onların ağzına isə torpaq səp!” Peyğəmbər ﷺ namaza çıxdı, Aişə anamız isə belə dedi: “İndi Allah elçisi ﷺ namazı bitirəcək, Əbu Bəkr də namazdan sonra gəlib mənə edəcəyini edəcək”. Namazdan sonra Əbu Bəkr ؓ qızı Aişənin yanına gəldi və onu şiddətli şəkildə azarlayaraq belə dedi: “Sən beləmi hərəkət edirsən?!”[154]

Allah rəsulu ﷺ Əsr namazından sonra evinə qayıtdıqda iki rükət nafilə namaz qılardı. Halbuki özü Əsrdən sonra nafilə namaz qılmağı əshabına qadağan etmişdi. Belə ki, bir dəfə Əbdülqeys heyəti İslam dinini qəbul etməkdən ötrü onun yanına gəldikdə Peyğəmbərin ﷺ başı onlara qarışmış və Zöhrdən sonrakı iki rükətli nafilə namazını qıla bilməmişdi. Həmin iki rükəti Əsrdən sonra qəza etdi və daha sonra onu qılmağa davam etdi. Çünki Allah elçisi ﷺ hər hansı bir namaz qılardısa, daha sonra ona davam edər və onu tərk etməzdi. Bu haqda Aişə anamız belə demişdir: “Peyğəmbəri ﷺ öz yanına aparan Allaha and olsun ki, o, Allaha qovuşanadək bu iki rükəti (yəni Əsrdən sonra iki rükəti) tərk etmədi”.[155]

Allah rəsulu ﷺ, adətən, Əsrdən sonrakı vaxtını evində, həyat yoldaşları ilə birgə keçirərdi. Onun yoldaşları ilə olan məclisi, söhbəti xoş ailə münasibətləri çərçivəsində olardı. Bu məclisdə o ﷺ, yoldaşları ilə birgə şəri, elmi məsələləri müzakirə edər, onlarla sorğu-sual aparar və onlara qaranlıq qalan məsələlərə səbirlə, alicənablıqla və gözəl tərzdə aydınlıq gətirərdi.

Budur, Aişə anamız dini təbliğ zamanı Peyğəmbərin ﷺ qarşılaşdığı ən çətin günlər barədə ondan soruşur: “Ey Allahın rəsulu, Uhud döyüşündən də çətin bir günün olubmu?” Peyğəmbər ﷺ belə cavab verir: *“Sənin qövmündən*

*(Qureyşdən) çəkdiyimi çəkmişəm. Onlardan ən çox əziyyət gördüyüm gün isə Əqabə günü (Əbu Talibin və Xədicənin vəfatından sonra) gördüyüm əziyyətdir. Belə ki, məni himayə etmələri üçün Taifdəki qohumlarıma – Əbdüküləl övladlarından İbn Əbdüyəliyə dəvətimi ərz etdim, o isə bunu qəbul etmədi (çox pis və sərt şəkildə qarşılıq verdi). Mən də üzgün halda hara gedəcəyimi bilmədən oradan ayrıldım. (Seylul-Kəbir deyilən yerdə, Taifdən təxmini on beş kilometr kənarda yerləşən) Qarnus-Səalibdə özümə gəldim. Başımı yuxarı qaldırıb gördüm ki, bir bulud məni kölgələyir. Baxdım, buludun içində Cəbrayılı gördüm. Mənə səslənərək belə dedi: "Uca Allah qövmünün sənə nələr dediyini, sənə necə qarşılıq verdiyini eşitdi və sənin yanına əmrinə müntəzir şəkildə dağlar mələyini göndərdi". Daha sonra dağlar mələyi mənə səsləndi, məni salamladı və belə dedi: "Ey Muhəmməd, Uca Allah qövmünün sənə nələr dediyini eşitdi. Mən dağlar mələyiyəm. Rəbbin məni sənin yanına əmrinə müntəzir şəkildə göndərdi. İstədiyini əmr et! İstəsən, Məkkənin dağlarından ikisini (Queyqəan və Əbu Qubeys dağlarını) onların üzərinə salım".* Peyğəmbər ﷺ isə belə cavab verdi: *"Əksinə, Uca Allahın onların belindən yalnız Özünə ibadət edəcək və Ona heç bir şeyi şərik qoşmayacaq nəsillər çıxaracağına ümid edirəm".*[156]

Peyğəmbər ﷺ ilə Aişə anamız arasında olan bu qarşılıqlı hisslər necə də ülvi hisslərdir! Belə ki, o, Allah rəsulunun ﷺ kədərinə şərik olmuş və ondan ən çətin və ağır günləri barədə maraqlanmışdır.

Allah rəsulu ﷺ Uca Dostuna qovuşana qədər Rəbbi onun bu istəyini həyata keçirmiş və onun könlünü şad etmişdi. Belə ki, o, müşrik ataların belindən gələn tək Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmayan və din uğrunda canlarından belə keçən gəncləri görmüşdü.

Bir dəfə Aişə ilə söhbət edərkən ona belə deyir: *"Kim Qiyamət günü haqq-hesaba çəkiləcəksə, əzaba düçar olar"*. Aişə anamız bilmədiyi bir şey eşitdikdə onu dəqiqləşdirər və o haqda sorub-soruşdurardı. Ona görə də belə dedi: "Məgər Uca Allah: *"Kimin kitabı sağ əlinə veriləcəksə, o yüngül sorğu-suala tutulacaq"* (əl-İnşiqaq, 8) buyurmayırmı?" Allah rəsulu ﷺ yoldaşına belə cavab verir: *"Sən deyən haqq-hesaba çəkilmək deyil. Sən dediyin ərz etməkdir (yəni bəndənin əməllərinin Allah tərəfindən ona ərz olunması surəti ilə sorğu-sual olunmasıdır). Qiyamət günü əməlləri müzakirə olunmaq surəti ilə hesaba çəkilən kəs isə mütləq əzaba düçar olacaqdır"*.[157]

Peyğəmbər ﷺ bir gün yoldaşı Həfsə ilə söhbət edərkən ona belə deyir: *"Mən ümid edirəm ki, Uca Allahın izni ilə Bədr və Hüdeybiyyədə iştirak edənlərin heç biri Cəhənnəmə vasil olan deyil"*. Bunu eşidən Həfsə anamız belə deyir: "Ey Allahın rəsulu, məgər Uca Allah: *"İçinizdən hər kəs oraya (Cəhənnəmə) varid olacaqdır. Bu, Rəbbinin əzəldən müəyyən etdiyi qəti bir qərardır"* (Məryəm surəsi, 71) deyə buyurmurmu? Allah rəsulu ﷺ belə cavab verir: *"Bəs ayənin davamında nə buyurduğunu görmürsən?" Uca Allah buyurur: "Sonra Biz müttəqiləri oddan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik"* (Məryəm surəsi, 72).[158]

Əgər Peyğəmbər ﷺ zehin açıqlığına, düşüncə və təfəkkürə önəm verməsəydi, onunla yoldaşları arasında bu cür fikir mübadiləsinin baş tutması mümkünsüz olardı. O ﷺ, fikir mübadiləsini yəqinliyə və əminliyə aparan bir yol hesab edərdi.

Bəzi hallarda əshabı onu Əsr namazından sonra iştirak etməsini istədikləri yerlərə dəvət edərdilər, Allah rəsulu ﷺ da bu dəvətə müsbət cavab verərdi. Bir dəfə Əsrdən sonra

onu Bəni Səlimədən bir nəfər çağırdı: "Ey Allahın elçisi, biz bir dəvə kəsmək niyyətindəyik və istəyirik ki, bu kəsimdə sən də iştirak edəsən". Bəni Səlimədə ət məhsulu az olduğundan belə bir gün onlar üçün xüsusi əhəmiyyət kəsb edirdi. Allah rəsulu ﷺ: *"Bəli, olar"* deyərək yola düşdü. Əshabından bəziləri də onunla birgə getdilər. Gedəcəkləri yerə çatdıqda dəvənin hələ kəsilmədiyini gördülər. Sonra dəvə kəsildi, doğrandı və ətin bir qismi bişirildi. Günəş batmamışdan öncə hamılıqla birlikdə həmin yeməkdən nuş etdilər".[159]

Allah rəsulunun ﷺ isti yay günündə Mədinənin şimalında yerləşən və məscidindən də xeyli aralı olan Bəni Səlimənin məskunlaşdığı yerə bir dəvə kəsiminə görə getməsi – böyük ehtimalla ora piyada getmişdir – onun böyüklüyündən xəbər verir. Çünki o ﷺ bununla onların sevincinə sevinc qatmış oldu. Peyğəmbərin ﷺ bu xoş gündə onlarla birgə olması adi bir hadisəni daha dəyərli bir hala gətirdi. Allah bilir, Bəni Səlimə neçə illər bu hadisəni dillərindən düşürmədi! Görün İslam peyğəmbərinin ﷺ qəlbi necə incə, hissləri necə saf və təmizdir! Sanki Allah elçisi ﷺ hər bir xoş günü o günün sevincini və bərəkətini artırmaq üçün fürsət bilirmişcəsinə hərəkət edərdi. Heç şübhəsiz ki, Peyğəmbərin ﷺ bu cür davranışı əshabının həyatında dərin iz buraxmışdı.

## MƏĞRİBDƏN SONRA

Məğrib azanı verildikdən sonra Allah rəsulu ﷺ azacıq gözləyər, sonra məscidə gedərdi. Məscidə girdikdə əshabının namaza tez gəldiyini və məscidin sütunları arxasında iki rükət nafilə namaz qıldığını görərdi. Çünki o ﷺ özü əshabını bu namaza təşviq edərək belə deyərdi: *"Məğrib namazından öncə iki rükət namaz qılın! Məğrib namazından öncə iki rükət namaz qılın!"* Üçüncü dəfəsində isə belə dedi: *"İstəyən qılsın!"* Məğribin azanı ilə iqaməsi arasında çox vaxt olmadığına görə bu iki rükət son dərəcə xəfif qılınardı.[160]

Peyğəmbər ﷺ məscidə daxil olan kimi namaz üçün iqamə gətirilər və Məğrib namazı qılınardı. Peyğəmbər ﷺ Məğrib namazını ilk vaxtında qılar və qaranlıq çökməmiş bitirərdi. Hətta havanın açıqlığından dolayı kimsə bu vaxt çöldə ox atsaydı, oxunun düşdüyü yeri açıq gözlə görə bilərdi.[161]

Adətən, Məğrib namazını və qiraətini qısa tutar, çox uzatmazdı. Çox nadir hallarda bu namazı uzadardı. Belə ki, bir dəfə Məğrib namazında əl-Əraf, başqa bir vaxt isə ət-Tur surələrini oxumuşdur. Elə əshabı ilə birgə qıldığı son namazı da məhz Məğrib namazı olmuşdur. Həmin vaxt namazda əl-Mursələt surəsini oxumuşdur.[162]

Həmçinin insanların istirahətə olan ehtiyacları və axşam yeməyi səbəbilə digər namazlarda olduğu kimi, bu namazdan sonra camaata xitab etməzdi.

Namazı qıldıqdan sonra evinə qayıdar və Məğribin iki rükətli sünnətini qılardı.[163] Daha sonra şam yeməyini yeyərdi. Bu vaxt, adətən, onun şam yeməyini yediyi vaxt idi. Əgər oruclu olsaydılar, yeməyi Məğrib namazından öncə yeyərdilər. Ona görə də Allah rəsulu ﷺ bu haqda belə demişdir: *"(Süfrəyə) şam yeməyi verilərsə, Məğrib namazını qılmamışdan əvvəl şam yeməyinə başlayın və yeməyinizi yedikdə tələsməyin!"*[164]

Allah elçisi ﷺ əshabına kasıb müsəlmanları da özləri ilə birgə şam yeməyinə dəvət etmələrini tövsiyə edərək belə demişdir: *"Kimin evində iki nəfərlik yeməyi varsa, qoy üçüncü bir adamı da dəvət etsin. Kimin evində dörd nəfərlik yeməyi varsa, beşincisini və ya altıncısını dəvət etsin!"*[165]

Evində yemək bol olduğu vaxtlar özü ilə axşam yeməyinə on nəfər kasıbı apardı. Bəzi hallarda evinə getdikdə yemək üçün xurma və sudan başqa bir şey tapmazdı. Bəzən isə elə olardı ki, günlərlə evində qazan asılmazdı.[166]

Bir dəfə Peyğəmbərin ﷺ yanına yardıma ehtiyacı olan ac və bitkin biri gəldi. Üzü aclıqdan və zəiflikdən solmuşdu. Peyğəmbərin ﷺ yanına gəldikdə ağız və vücud dili ilə "ey Allahın elçisi, mən acından ölürəm", – dedi. Allah rəsulu ﷺ dərhal həyat yoldaşlarından birinə xəbər göndərdi ki, bu qonağa yeyəcək bir şey versin. Yoldaşı dedi: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, evdə sudan başqa heç bir şey yoxdur". Sonra digər zövcəsinə xəbər yolladı. O da eyni cavabı verdi. Beləcə bütün yoldaşlarına xəbər yolladı, lakin hamısının cavabı bir idi: "Səni haqq olaraq göndərən Allaha and olsun ki, evdə sudan başqa heç bir şey yoxdur". Sonra Allah rəsulu ﷺ üzünü əshabına tutaraq belə dedi: *"Bu*

*gecə kim qonaq qəbul edər? Allah ona rəhm etsin!"* Əbu Talha əl-Ənsari: "Mən, ey Allahın rəsulu", – dedi və onu özü ilə apararaq evində qonaq etdi.[167]

Peyğəmbərin ﷺ süfrəsi o dövrün ərəb adətinə uyğun olaraq yerdən açılardı. Heç vaxt stol üzərində yemək yeməmişdir.[168]

Əlini yeməyə uzatdıqda Allahın adını çəkərək *"bismilləh"* deyər, üç barmaq ilə önündən yeyərdi. Qabın ortasından deyil, kənarlarından yeməyi tövsiyə edər və belə deyərdi: *"Yeməyin bərəkəti ordadır (yeməyin üst qismində – ortasında)"*.[169]

Allah rəsulu ﷺ evində hazır olan yeməkdən yeyər, olmayanı isə tələb etməzdi. Ailəsindən: *"Evdə yeməyə bir şey varmı?"* – deyə soruşar və bəzən "xeyr!" cavabını eşidərdi. Bəzən isə ailəsi ona: "Sirkədən başqa bir şey yoxdur" dedikdə Allah rəsulu ﷺ belə cavab verərdi: *"Sirkə (çörək üzərinə yaxılan) nə gözəl qidadır!"* Allah elçisi ﷺ xoşladığını yeyər, nəfsi çəkməyəni isə tərk edərdi, lakin heç vaxt heç bir yeməyi pisləməzdi.[170]

Peyğəmbər ﷺ əshabı ilə birlikdə süfrəyə oturduqda mütləq onlarla söhbətləşər, öyüd-nəsihət verər və bilmədiklərini onlara öyrədərdi.

Misal olaraq bu hadisəni qeyd etmək olar: Ömər ibn Əbu Sələmə Peyğəmbərin ﷺ zövcəsi Ummu Sələmənin (keçmiş yoldaşından olan) oğlu idi. O, Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idi. Çox vaxt Allah rəsulu ﷺ ilə birgə yemək yeyər və daim əlini qaba uzadardı. Bir dəfəsində Allah elçisi ﷺ ona belə dedi: *"Balaca, (ilk öncə) "bismilləh" de, özün də sağ əllə və önündən ye!"* Ömər رضي الله عنه deyir: "O gündən bəri mən yeməyi bu qaydada yeyirəm".[171]

Başqa bir misal: Bir gün Peyğəmbərə ﷺ şorba və ət gətirildi. Ətin qol tərəfini xoşlayırdı deyə, orasını götürdü və ətdən bir tikə dişlədikdən sonra belə dedi: *"Mən Qiyamət günü insanların seyyidi (ağası) olacam".* Sonra ətdən yenə də bir tikə dişlədikdən sonra dedi: *"Mən Qiyamət günü insanların seyyidi (ağası) olacam".* Əshabının ona heç bir sual vermədiyini gördükdə dedi: *"Bəs soruşmursunuzmu ki, bu necə olacaq?"* Səhabələr dedilər: "Bu necə olacaq, ey Allahın elçisi?" Allah rəsulu ﷺ buyurdu: *"Allah Qiyamət günü əvvəlkiləri və sonrakıları (bütün insanları) düz və geniş bir əraziyə yığacaq. Elə bir əraziyə ki, carçı onları çağıra bilsin, gözlər də onları görə bilsin. Günəş insanların başı üstünə yaxınlaşdırılacaq və istiliyi həddən-ziyadə artacaqdır. Günəşin insanlara yaxınlaşması ilə onları elə bir dərd və kədər bürüyəcəkdir ki, onlar buna nə tab gətirə biləcək, nə də dözə biləcəklər. Onda onlardan bəziləri digərlərinə belə deyəcəkdir: "Nə vəziyyətə düşdüyünüzü görmürsünüzmü? Başınıza nələr gəldiyini görmürsünüzmü? Bəlkə, Rəbbinizin yanında sizə şəfaət edəcək bir nəfər tapasınız?" Onda onlardan bəziləri digərlərinə: "Haydı, Adəmin yanına gedin!" deyəcəkdir...".* Daha sonra uzun şəfaət hədisini danışdı.[172]

Allah rəsulu ﷺ yemək yeyib bitirdikdən sonra barmaqlarını yalayar, habelə yeməyi tam yeyib qabı təmizləməyi tövsiyə edərək belə buyurardı: *"Siz yeməkdəki bərəkətin hansı tikədə olduğunu bilmirsiniz".*[173]

Yeməkdən sonra belə dua edərdi:

«الْحَمْدُ لِلَّهِ حَمْداً كَثِيراً طَيِّبًا مُبَارَكًا فِيهِ، الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانَا وَأَرْوَانَا غَيْرَ مَكْفِيٍّ وَلا مَكْفُورٍ وَلا مُوَدَّعٍ وَلا مُسْتَغْنًى عَنْهُ رَبَّنَا، اللَّهُمَّ أَطْعَمْتَ وَأَسْقَيْتَ، وَأَغْنَيْتَ، وَأَقْنَيْتَ، وَهَدَيْتَ، وَأَحْيَيْتَ، فَلَكَ الْحَمْدُ عَلَى مَا أَعْطَيْتَ»

[Əlhəmdulilləhi həmdən kəsiran tayyibən mubarəkən fihi, əlhəmdulilləhilləzi kəfənə və arvanə ğayra məkfiyyin va lə məkfurin və lə muvaddəin va lə mustağnən anhu Rabbənə. Allahummə, ətamtə və əsqaytə və əğneytə və əqneytə və hədeytə və əhyeytə, fələkəl-həmdu alə mə əateytə].

*"Rəbbimiz Allaha çoxsaylı, xoş, mübarək həmd olsun! Bizi himayə edən, bizi içizdirən Allaha sonsuz, ardı-arası kəsilməyən, ehtiyac duyulan bir şəkildə və (nemətləri) inkar olunmadan həmd olsun! Allahım, yedizdirən, içirən, zəngin edən, bəxş edən, doğru yol göstərən, həyat verən məhz Sənsən. Allahım, bəxş etdiklərinə görə Sənə həmd olsun!"*[174]

Yemək yedikdən, habelə süd içdikdən sonra ağzını yaxalayardı. O ﷺ belə demişdir: *"Həqiqətən də, onun (südün) yağlılığı vardır"*.[175]

Şam yeməyindən sonra məhz həmin gün səhər hazırlanmış xurma suyundan içərdi. Günorta yeməyindən sonra isə keçən axşam (məğribdən sonra) hazırlanmış içkidən içərdi.[176]

Əgər süfrə başında zövcələrindən biri və ya bir neçəsi onunla birgə olardısa, onlarla söhbətləşərdi. O ﷺ belə deyərdi: *"Öz əlinlə həyat yoldaşının ağzına qoyduğun tikə belə sədəqə sayılır"*.[177]

Aişə anamız demişdir: "Mən heyzli ikən Allah rəsulu ﷺ məni birgə yemək yemək üçün yanına çağırardı. Sümüklü soyutma əti götürər və mənimlə bölərdi. Soyutma ətdən dişləyər, sonra onu qaba qoyardım. O da həmin əti götürər və məhz mənim dişlədiyim yerdən dişləyərdi. (Bir şey) içdikdə məni çağırar və içkisini mənimlə bölərdi. İlk öncə

mən içər, sonra qədəhi yerə qoyardım. O da qədəhi götürər və məhz ağzımın dəydiyi yerdən içərdi”.[178]

Yoldaşını qəlbən sevən bir kişinin bu cür gözəl və lətif hərəkətlər ilə öz məhbubunun qəlbinə sevgi nişanələrini ötürməsi necə də mükəmməldir! Beləcə bu cür davranışlar ilə cismi qida sayılan yemək süfrəsi həm də mənəvi qidaya çevrilməkdədir.

# İŞA NAMAZI

Allah rəsulu ﷺ İşa azanına qədər evində qalardı. İşa namazını qılmağa tələsməz, camaatı gözləyərdi. Əgər camaatın toplandığını görsəydi, namazı ilk vaxtında qılar, əks halda isə gecikdirərdi. Əgər İşa namazını gec qılmaq insanlara çətin olmasaydı, gecikdirməyi sevərdi.[179]

Bir dəfə İşanı gecikdirdi, Ömər ﵁ gələrək Peyğəmbəri ﷺ çağırdı: "Ey Allahın elçisi, artıq qadınlar və uşaqlar yuxuya gediblər". Allah rəsulu ﷺ saçından su damladığı halda evindən çıxdı. Yanağındakı suyu silərək belə dedi: *"(İşa üçün ən əfzəl) vaxt elə budur! Əgər ümmətimə çətin olmasaydı, onlara namazı məhz bu saatda qılmağı əmr edərdim"*.[180]

Bir gecə İşa namazı üçün iqamə verilən vaxt bir nəfər ayağa qalxaraq dedi: "Ey Allahın elçisi, mənim sənə işim düşüb". Allah rəsulu ﷺ bir kənara çəkilib onunla təklikdə danışdı. Namaza qalxdıqda isə camaatın bir qismi artıq yuxulamışdı".[181]

Allah rəsulu ﷺ insanlara namazı ən xəfif, lakin kamil şəkildə qıldıran biri idi. Bu haqda sahabə Ənəs ibn Malik ﵁ belə demişdir: "Namazı Peyğəmbərin ﷺ namazından daha xəfif və daha kamil olan başqa bir imamın arxasında namaz qılmadım".[182]

Bəzən elə olurdu ki, namaz əsnasında anası ilə birgə məscidə gəlmiş uşağın ağlamasını eşidər, buna görə də

namazda qısa surələr oxuyardı. O ﷺ belə deyərdi: *"Mən namaza başladıqda onu uzatmaq istəyirəm, lakin ağlayan uşağın səsini eşitdikdə namazı qısaldıram. Çünki bilirəm ki, körpənin səsi anasını necə narahat edir"*.[183]

İşa namazını bitirdikdən sonra camaata tərəf dönər və ehtiyac olduğu təqdirdə onlara xitab edərdi.

Belə ki, həyatının son günlərində İşa namazını qıldıqdan sonra camaata üzünü tutaraq dedi: *"Bu gecəni gördünüzmü?! Bax yüz ildən sonra bu gün yer üzündə yaşayanlardan heç kəs həyatda olmayacaqdır"*.[184] (Allah rəsulu ﷺ bu sözü hicrətin onuncu ilində demişdir. Həqiqətən də, tam yüz ildən sonra, yəni hicrətin 110-cü ilində həyatda olan son səhabə Əbut-Tufeyl Amir ibn Vasilə ؓ vəfat etmişdir).

Bir dəfə İşa namazını gecikdirdi, namazı qıldırdıqdan sonra əshabına belə dedi: *"Fikir verin, camaat artıq namazlarını qılıb yataqlarına çəkilib. Siz isə namazı gözlədiyiniz müddətcə namazda idiniz (yəni namazı gözlədiyiniz vaxt ərzində sanki namazda imiş kimi əcr qazandınız)"*.[185]

Bir dəfəsində isə İşa namazını gecə yarısına qədər təxirə saldı, sonra məscidə gələrək əshabına namaz qıldırdı. Namaz bitdikdən sonra namazda iştirak edən camaata belə dedi: *"Tələsməyin! Xoş sizin halınıza, sevinin! Həqiqətən də, Allahın sizə olan lütfündəndir ki, sizdən başqa yer üzündə yaşayanlardan heç kəs indiki vaxtda bu namazı qılmır"*. Bunu eşitcək səhabələr çox sevindilər və sevincli halda evlərinə döndülər.[186]

Ehtiyac olmadığı təqdirdə İşadan sonra danışmağı xoşlamazdı. İnsanların yorğunluğu və yuxuya olan ehtiyacları səbəbilə İşa namazından sonra çox nadir hallarda və son dərəcə qısa danışardı.[187]

Allah rəsulu ﷺ salamları verib namazı tamamladıqdan sonra məsciddəki qadınlar evlərinə gedənə qədər yerində oturardı. Peyğəmbər ﷺ qalxandan sonra kişilər də durardılar.[188]

## YATMAMIŞDAN ÖNCƏ

Sonra Allah rəsulu ﷺ evinə qayıdar və İşa namazının iki rükətli sünnətini qılardı.[189] Daha sonra bir müddət zövcələri ilə oturar, yatmamışdan öncə onlarla söhbət edərdi. Hərdən bəzi səhabələrin və ya ənsarın (Mədinə əhlinin) evində gecə söhbətləri edərdi. Bəzən isə Əbu Bəkrin evində onunla və Ömərlə oturar, müsəlmanların problemləri barədə məsləhət-məşvərət edərdilər. Evdən çıxdıqda isə yol boyunca Peyğəmbərin ﷺ söhbətindən faydalanar və onunla birgə məscidə girərdilər.[190]

Yolla gedərkən əshabından gözəl səslə Quran oxuyan birini eşidərdisə, ayaq saxlayıb həmin qiraətə qulaq verərdi. Necə ki bir gecə Əbu Musa əl-Əşarinin ﵁ evinin yanından keçdikdə onun gözəl qiraətini eşitmiş, ayaq saxlayıb dinləmişdir. Səhəri gün onunla qarşılaşdıqda belə demişdir: *"Ey Əbu Musa, bir məni görsəydin, keçən axşam sənin qiraətini necə dinləyirdim. Həqiqətən də, sənə Davud peyğəmbərin səs tellərindən biri bəxş edilmişdir"*.[191]

Bir gecə məscidə daxil olduqda Abdullah ibn Məsudun ﵁ namaz qıldığını və namazda gözəl avazla ən-Nisa surəsini oxuduğunu görür. Allah rəsulu ﷺ dayanıb onu dinləyir və sonra Əbu Bəkrlə Ömərə ﵄ belə deyir: *"Əgər kim Quranı nazil olduğu tazəlikdə oxumaq istəyirsə, onu İbn Ummu Əbdin (İbn Məsudun) qiraəti ilə oxusun!"*.[192]

Allah rəsulu ﷺ məscidə daxil olduqda eşidilən bir səslə, lakin yatanı da oyatmayacaq bir şəkildə salam verərdi. Belə ki, o dövrdə daim məsciddə gecələyən kasıb müsəlmanlar olardı. Məscidə daxil olduqda namaz qılar, sonra evinə keçərdi.[193]

Evinə daxil olduqda və yatmaq istədikdə əynindəki üst paltarlarını çıxardardı. Daim yatağının baş tərəfinə qoyduğu bir örtüyü olardı. Həmin örtüyə bürünərək paltarlarını soyunar, sonra yoldaşı ilə birgə yatağa girərdi. Peyğəmbərin ﷺ yatağı və yastığı içi xurma lifləri ilə doldurulmuş dəridən ibarət idi. Yoldaşı ilə birgə bu yastığa baş qoyardı.[194]

Yatmamışdan öncə misvakını yanına qoyardı ki, oyandıqda onunla dişlərini təmizləsin. Belə ki, o ﷺ həm günorta, həm də gecə yatışından qalxan kimi, ilk növbədə, misvakla dişlərini təmizləyərdi.[195]

Dişlərini misvakla təmizlədikdən sonra onu yuması üçün yoldaşı Aişəyə verərdi. Aişə anamız isə Peyğəmbərin ﷺ pak, mübarək ağız suyunun bərəkətindən nəsibini almaq qəsdi ilə ilk öncə onunla öz dişlərini təmizləyər, sonra isə onu yuyaraq Peyğəmbərə ﷺ qaytarardı.[196]

Onun misvakı daim təmiz olardı. Həmişə onu yanında saxlayardı. O ﷺ, pak ağzını – dişlərini misvakla təmizləməyə o qədər adət etmişdir ki, hətta bəzən çox misvak işlətməsindən dolayı dişlərinin düşəcəyindən qorxardı.[197]

Sanki o ﷺ, Rəbbinin mələkləri ilə ünsiyyətə görə ağız təmizliyinə bu qədər ehtimam göstərirdi. Necə ki bir dəfəsində (xoşagəlməz) qoxusu olan tərəvəzdən uzaq durmuş, bu haqda ondan soruşan dostuna isə belə demişdir: *“Təbii ki, bu qida haram deyildir. Sadəcə olaraq mən Allahın*

*mələklərindən həya edirəm. Mən sənin söhbət edə bilmədiyin kəslər (mələklər) ilə gizli söhbət edirəm".*[198]

Bax buna görə də Allah rəsulu ﷺ daim misvakdan istifadə edər, hər yuxudan ayıldıqda dişlərini təmizləyərdi. Yatağına çəkildikdə isə misvakını baş ucuna qoyardı.

Daha sonra gecənin səssizliyi, Mədinənin ecazkar sükunəti və könüllərə fərahlıq bəxş edən bu həssas atmosfer içində yoldaşı ilə bir müddət söhbətləşərdi. Təbii ki, bütün bunlar kişi və qadının qəlbində ailə münasibətlərinin və ülvi hisslərin daha da dərinləşməsinə, kök salmasına səbəb olan amillərdəndir.

Bu xoş söhbətləşmədən sonra Allah rəsulu ﷺ yoldaşı ilə əlaqədə olmaq istəyərdisə, olardı. Bəzən isə bu, yoldaşının adət günlərinə təsadüf edərdi. Buna baxmayaraq o ﷺ, ər-arvad münasibətlərinə ara verməz və yoldaşı heyzli olduğu halda onunla yaxınlıq edərdi. Yoldaşına örtüyünə bürünməsini əmr edər, sonra isə onunla cinsi əlaqədən başqa bir kişinin yoldaşı ilə edə biləcəyi yaxınlığı edərdi.[199]

Şübhəsiz ki, Peyğəmbərin ﷺ bu hərəkətində yoldaşına qarşı olan dərin sevgisinin əlaməti vardır. Belə ki, hər bir qadına xas olan bu təbii hal (adət halı) onların arasında olan xoş ər-arvad münasibətlərinə mane ola bilməmişdir.

Buna misal olaraq Ummu Sələmənin rəvayətini qeyd etmək olar. O demişdir: "Mən Peyğəmbərlə ﷺ bərabər ədyalın altında uzandığım zaman birdən heyz oldum. Yavaşca örtüyü çəkib ayağa durdum. Allah rəsulu ﷺ: *"Olmaya heyz gördün?"* – deyə soruşdu. Dedim ki, bəli, heyz gördüm. Peyğəmbər ﷺ dedi: *"Bu, Allahın Adəmin qızları üçün əzəldən bəri təyin etdiyi bir yazıdır"*. Mən yavaşca qalxıb təmizləndim, sonra (heyz paltarımı geyinib) qayıtdım. Allah

rəsulu ﷺ dedi: *“Gəl bura və mənimlə birgə yatağa gir!”* Beləcə məni özü ilə birgə örtüyünə bürüdü”.[200]

Əksər hallarda cənabət qüslunu yatmamışdan öncə alardı. Bəzən isə dəstəmaz alaraq yatar və qüslu sübh çağınacan təxirə salardı.[201]

Bəzi hallarda yoldaşı ilə birlikdə bir qabdan su götürüb çimərdi. Su götürdükdə əlləri qabın içində bir-birinə dəyər və bir-birlərinə: “Sudan mənə də saxla, mənə də saxla!” deyərdilər.[202] Bu da ər-arvad arasında olan zarafatlaşmanın və xoş münasibətin nümunələrindən biridir.

Allah rəsulu ﷺ yatağına çəkildikdə belə deyərdi:

«الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا وَآوَانَا، فَكَمْ مِمَّنْ لا كَافِيَ لَهُ وَلا مُؤْوِيَ، الْحَمْدُ لِلَّهِ الَّذِي مَنَّ عَلَيَّ فَأَفْضَلَ، الْحَمْدُ لِلَّهِ الَّذِي أَعْطَانِي فَأَجْزَلَ، الْحَمْدُ لِلَّهِ عَلَى كُلِّ حَالٍ، اللَّهُمَّ رَبَّ كُلِّ شَيْءٍ، وَمَالِكَ كُلِّ شَيْءٍ، وَإِلَهَ كُلِّ شَيْءٍ، لَكَ كُلُّ شَيْءٍ، أَعُوذُ بِكَ مِنَ النَّارِ»

[Əlhəmdulil-ləhilləzi ət'amənə va səqanə va kəfənə va əvanə, fə kəm mim-mən lə kəfiyə ləhu va lə mu'viyə. Əlhəmdulil-ləhilləzi mənnə aleyyə fə-əfdalə, əlhəmdulil-ləhilləzi ə'atani fə-əczələ, əlhəmdulilləhi alə kulli hal. Allahummə Rabbə kulli şey'in və malikə kulli şey'in və iləhə kulli şey'in, ləkə kulli şey'in, əuzu bikə minən-nar].

*“Bizi yedirən, içirən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni vardır. Məni nemətləndirən və mənə yaxşılıq edən Allaha həmd olsun! Mənə bəxş edən və (bəxş etdiyini) bol edən Allaha həmd olsun! Hər halda, hər vəziyyətdə Allaha həmd olsun! Ey hər şeyin Rəbbi, ağası və ilahı olan Allahım! Hər şey Sənə məxsusdur! Cəhənnəm odundan Sənə sığınıram!)*[203]

Daha sonra iki mübarək əlini birləşdirərək ovcunun içinə üfürər, sonra isə əl-İxlas, əl-Fələq və ən-Nəs surələrini oxuyaraq əllərini başından, üzündən və bədəninin ön tərəfindən başlayaraq bütün vücuduna sürtərdi. Bunu üç dəfə təkrar edərdi.[204]

Allah rəsulu ﷺ yatarkən sağ böyrü üstə uzanar, sağ əlini yanağının altına qoyaraq belə dua edərdi:

«اللَّهُمَّ بِاسْمِكَ أَمُوتُ وَبِاسْمِكَ أَحْيَا، اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ»

[Allahummə bismikə əmutu və bismikə əhyə, Allahummə qini azəbəkə youmə təb'asu ibədəkə].

*"Allahım, Sənin adınla ölür və Sənin adınla dirilirəm! Allahım, bəndələrini dirildəcəyin gün məni əzabından qoru!"*[205]

Həmçinin belə deyərdi:

«بِسْمِ اللهِ وَضَعْتُ جَنْبِي، اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي، وَاخْسَأْ شَيْطَانِي، وَفُكَّ رِهَانِي وَثَقِّلْ مِيزَانِي، وَاجْعَلْنِي فِي الرَّفِيقِ الْأَعْلَى»

[Bismilləh, vada'tu cənbi, Allahumməğfirli zənbi, vaxsə şeytani, və fukkə rihəni və səqqil mizəni, vəcalni fir-Rafiqil-ə'alə].

*"Allahın adı ilə uzandım. Allahım, günahımı bağışla, şeytanımı məndən uzaqlaşdır, düyünümü aç (borcumu ödə), (tərəzidə) çəkimi artıq və məni Uca Dosta qovuşdur!"*[206]

Yatmamışdan öncə oxuduğu dua və zikrlərdən bəziləri də bunlar idi:

«اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ السَّبْعِ، وَرَبَّ الْأَرْضِ، وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الْحَبِّ وَالنَّوَى، مُنْزِلَ التَّوْرَاةِ وَالْإِنْجِيلِ وَالْقُرْآنِ، أَعُوذُ بِكَ مِنْ شَرِّ كُلِّ ذِي شَرٍّ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، أَنْتَ الْأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الْآخِرُ فَلَيْسَ بَعْدَكَ شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ، وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ، اقْضِ عَنِّي الدَّيْنَ، وَأَغْنِنَا مِنَ الْفَقْرِ»

[Allahummə, rabbəs-səməvatis-səb'i va rabbəl-arşil-azim. Rabbənə va rabbə kulli şey'in, fəliqal-həbbi vən-nəva, munzilət-tovrati val-incili val-furqani. Əuzu bikə min şərri kulli zi şərrin əntə əxizun bi-nasiyətihi. Allahummə, əntəl-əvvalu fəleysə qabləkə şey'un, va əntəl-əxiru fəleysə bə'dəkə şey'un, va əntəz-zahiru fəleysə fovqakə şey'un, va əntəl-bətinu fəleysə dunəkə şey'un, iqdı annəd-deynə va əğninə minəl-fəqri].

*"Allahım! Yeddi qat səmanın Rəbbi və hər bir şeyin Rəbbi! Toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Furqanı nazil edən! Kəkilindən tutduğun (idarə etdiyin) hər bir şeyin şərindən Sənə sığınıram. Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumuzu ödə, bizi yoxsulluqdan qurtar!"*[207]

«اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ،
وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لا مَلْجَأَ، وَلا مَنْجَى مِنْكَ إلا إِلَيْكَ،
آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ»

[Allahummə, əsləmtu nəfsi ileykə və vaccəhtu vachi ileykə və fəvvadtu əmri ileykə və əlcə'tu zahri ileykə, rağbətən və rahbətən ileykə. Lə məlcə'ə və lə məncə minkə illə ileykə. Əməntu bi kitəbikəlləzi ənzəltə və bi nəbiyyikəlləzi ərsəltə].

*"Allahım! Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim, işimi Sənə həvalə etdim, üzümü Sənə çevirdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!"*[208]

Bəzi gecələr yatmamışdan öncə Quran oxuyardı. Bəzən əs-Səcdə və əl-Mülk surələrini, hərdən isə əz-Zümər və əl-İsra surələrini oxuyardı.[209]

Bu növ dua və zikrləri oxuduqdan sonra yatardı. Allah rəsulu ﷺ dərin yuxuya getdikdə xoruldayardı. Gecə vaxtı bir tərəfdən digər tərəfə çevrildikdə isə belə deyərdi:

«لا إِلَهَ إِلَّا اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ، رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا الْعَزِيزُ الْغَفَّارُ»

[Lə ilahə illəllahul-Vahidul-Qahhar, Rabbus-səmavati vəl-ard və mə bəynəhuməl-Azizul-Ğaffər].

*"Hər şeyə qalib gələn, tək olan Allahdan başqa haqq məbud yoxdur! O, göylərin, yerin və onların arasında olanların qüdrətli və bağışlayan Rəbbidir!"*[210]

Gecə yerində çevrildikdə belə misvakını ağzına aparardı. Daha sonra gözünü yuxuya verər və gecənin yarısına qədər yatardı.[211]

Görünən budur ki, Peyğəmbərin ﷺ ən uzun yatdığı vaxt elə bu qədər idi (yəni gecə yarısına qədər).

## GECƏ İBADƏTİ

Gecə yarısı olduqda, ya ondan bir qədər əvvəl və ya sonra Allah rəsulu ﷺ yuxudan oyanar, yerində oturaraq əllərini üzünə çəkər, üz-gözünü ovxalayardı. Sonra misvakını götürər, pak, mübarək dişlərini təmizləyərdi. Bəzən gözlərini səmaya qaldırar, gecənin səssizliyi və sakitliyi içərisində Uca Allahın məxluqatı üzərində olan qüdrətini düşünərək göyə tamaşa edər və Ali-İmran surəsinin axırına qədər bu ayələri oxuyardı: *"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı barədə düşünər və belə deyərlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!.."* (Ali-İmran surəsi, 190-191 və sonrakı ayələr). Sonra divardan asılmış su tuluğundan qabına su tökər, suya qənaət edərək kamil şəkildə dəstəmaz alardı. Daha sonra yataq paltarını soyunar, ridasını və izarını geyinər, sonra isə gecə namazını qılardı.[212]

Gecə namazına başlamamışdan öncə Rəbbini təzim edərək zikr edər və beləcə sanki gecə namazına hazırlıq görərdi. Aişə anamız demişdir: "Allah rəsulu gecə namazına qalxdıqda on dəfə *"Allahu əkbər"*, on dəfə *"əlhəmdulilləh"*, on dəfə *"subhanəllahi və bihəmdihi"*, on dəfə *"subhanəl-Məlikil-*

*Quddus"*, on dəfə *"əstəğfirullah"*, on dəfə *"lə iləhə illəllah"*, on dəfə *"Allahummə inni əuzu bikə min diqid-dünyə və diqi youmul-Qiyəmə" ("Allahım, dünya və Qiyamət sıxıntılarından Sənə sığınıram!")* deyər, daha sonra namaza başlayardı.[213]

Allah rəsulu ﷺ gecə namazına iki xəfif rükət ilə başlayardı. Camaata namaz qıldırdıqda, adətən, namazı çox uzatmaz, özü tək qıldıqda isə uzun qılardı. Onun gecə namazları gün ərzində qıldığı namazları içərisində açılış duası, qiraəti və duaları ən uzun olan namaz idi. Bununla da o ﷺ Uca Allahın *"Az bir hissəsi istisna olmaqla gecələr namaza dur!"* (əl-Müzzəmmil, 2) ayəsinə əməl etmiş olardı.[214]

Peyğəmbərin ﷺ gecə namazındakı halına diqqət yetirən kəs hiss edir ki, onun bu ibadəti özündə dərin mənalar ifadə edən bir ibadətdir. Belə ki, onun gecə namazında mənəvi hissləri, ali duyğuları bir araya gələr, sanki ruhu mələklər aləminə seyrə çıxar və ilahi hicabın nuru onu tamamilə öz ağuşuna alar. Sanki o ﷺ öz gözlərilə Rəbbinin Ərşinə tamaşa edər və Rəbbi ilə tənhalığa çəkilərdi. Rəbbinə ən kamil şəkildə həmd edər, ən uca şəkildə Onu öyər və özündə ən dərin mənaları ehtiva edən kəlmələrlə Ona dua edərdi. Əslində burada təəccüblü bir hal yoxdur! Çünki o, vaxtı ilə Uca Allah tərəfindən səmaya yüksəldilmiş və onun üçün yeddi qat səmanın qapıları açılmışdır. Elə bir məqama ucaldılmışdır ki, həmin yerdə mələklərin qələmlərinin səsini belə eşitmişdir.[215]

O ﷺ, insanlar içində Rəbbini ən yaxşı tanıyan, Ona ən kamil şəkildə iman edən və yəqinliklə Onu təsdiqləyən biri idi. O ﷺ haqq olaraq belə demişdir: *"İçinizdə Allahı ən yaxşı tanıyan və Allahdan ən çox qorxanınız, şübhəsiz ki, mənəm".*[216]

Namaza durduqda, ilk öncə, Rəbbini ucaldacaq kəlimələrlə Onu sevərək və Ona doğru can ataraq namaza başlayardı. Peyğəmbərin ﷺ namazın başlanğıcında etdiyi zikr və dualar özündə Uca Allaha həmd-səna və təzimi ehtiva edən geniş mənalı dualar idi.

Gecə namazlarında Peyğəmbərin ﷺ namaza başlayarkən oxuduğu ("istiftəh" – "açılış") dualarından biri də bu idi:

«اللَّهُمَّ رَبَّ جِبْرَائِيلَ وَمِيكَائِيلَ وَإِسْرَافِيلَ، فَاطِرَ السَّمَوَاتِ وَالْأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، أَنْتَ تَحْكُمُ بَيْنَ عِبَادِكَ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ، اهْدِنِي لِمَا اخْتُلِفَ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِك، إِنَّكَ تَهْدِي مَنْ تَشَاءُ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ»

[Allahummə Rabbə Cəbrailə va Mikəilə va İsrafilə fətıras-səməvati val-ard, Alimәl-ğaybi vaş-şəhədəti əntə təhkumu beynə ibədikə fimə kənu fihi yəxtəlifunə. İhdini liməxtulifə fihi minəl-həqqi bi iznikə innəkə təhdi mən təşəu ilə sıratim-mustəqim].

*"Cəbrailin, Mikailin və İsrafilin Rəbbi, göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım! İxtilafda olduqları şeylər barəsində bəndələrin arasında Sən hökm verirsən. Baş vermiş ixtilafda məni Öz izninlə haqqa yönəlt! Həqiqətən, Sən istədiyini doğru yola yönəldirsən".*[217]

Həmçinin belə dua edərdi:

«اللَّهُمَّ لَكَ الْحَمْدُ أَنْتَ نُورُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ أَنْتَ قَيِّمُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ أَنْتَ مَلِكُ السَّمَوَاتِ وَالْأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ أَنْتَ الْحَقُّ، وَوَعْدُكَ الْحَقُّ، وَلِقَاؤُكَ حَقٌّ، وقَوْلُك حَقٌّ، وَالْجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَمُحَمَّدٌ حَقٌّ، وَالنَّبِيُّونَ حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ، اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ خَاصَمْتُ، وَإِلَيْكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ، وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي أَنْتَ الْمُقَدِّمُ، وَأَنْتَ الْمُؤَخِّرُ لا إِلَهَ إِلا أَنْتَ وَلا حَوْلَ وَلا قُوَّةَ إِلا بِكَ»

[Allahummə ləkəl-həmdu, əntə nurus-səməvati vəl-ardi və mən fihinnə, və ləkəl-həmdu, əntə qayyimus-səməvati vəl-ardi və mən fihinnə, və ləkəl-həmdu, əntə məlikus-səməvati vəl-ardi və mən fihinnə, və ləkəl-həmdu, əntəl-haqqu, və va'dukəl-haqqu, və qavlukəl-haqqu, və liqaukəl-haqqu, vəl-Cənnətu haqqun, vən-Nəru haqqun, və Muhəmmədun sallallahu aleyhi və səlləm haqqun, vən-nəbiyyunə haqqun, vəs-səatu haqqun. Allahummə ləkə əsləmtu, və bikə əməntu, və aleykə təvakkəltu, və ileykə ənəbtu, və bikə xasəmtu, və ileykə hakəmtu, fəğfir li mə qaddəmtu və mə əxxartu və mə əsrartu və mə a'ləntu, və mə əntə ə'aləmi bihi minni, əntəl-muqaddimu və əntəl-muəxxiru lə iləhə illə əntə, lə haulə və lə quvvətə illə bikə].

*"Allahım! Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların nurusan. Həmd Sənədir. Sən göylərin, yerin və onlarda olanların Hamisisən. Həmd Sənədir. Həmd Sənədir. Sən göylərin və yerin Hökmdarısan. Həmd Sənədir. Sən Haqsan. Verdiyin vəd haqdır. Dediyin söz haqdır. Sənə qovuşmaq haqdır. Cənnət haqdır. Cəhənnəm haqdır. Muhəmməd (sallallahu aleyhi və səlləm) haqdır. Peyğəmbərlər haqdır. Qiyamət haqdır. Allahım! Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, tövbə edib Sənə döndüm, Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım və məndən daha yaxşı bildiyin (pis) əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sən! Səndən başqa haqq məbud yoxdur. Səndən başqa həqiqi güc və qüvvət sahibi yoxdur".*[218]

Etdiyi dualardan biri də bu idi:

« وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَوَاتِ وَالْأَرْضَ حَنِيفًا، وَمَا أَنَا مِنَ الْمُشْرِكِينَ،

إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ لا شَرِيكَ لَهُ، وَبِذَلِكَ أُمِرْتُ وَأَنَا أَوَّلُ

الْمُسْلِمِينَ، اللَّهُمَّ أَنْتَ الْمَلِكُ لا إِلَهَ إِلا أَنْتَ، أَنْتَ رَبِّي، وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي، وَاعْتَرَفْتُ بِذَنْبِي، فَاغْفِرْ لِي ذُنُوبِي جَمِيعًا، إنه لا يَغْفِرُ الذُّنُوبَ إِلَّا أَنْتَ، وَاهْدِنِي لِأَحْسَنِ الْأَخْلَاقِ، لا يَهْدِي لِأَحْسَنِهَا إِلا أَنْتَ، وَاصْرِفْ عَنِّي سَيِّئَهَا، لا يَصْرِفُ سَيِّئَهَا إِلا أَنْتَ، لَبَّيْكَ وَسَعْدَيْكَ، وَالْخَيْرُ كُلُّهُ فِي يَدَيْكَ، وَالشَّرُّ لَيْسَ إِلَيْكَ، أَنَا بِكَ وَإِلَيْكَ، تَبَارَكْتَ وَتَعَالَيتَ، أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ»

[Vaccəhtu vachiyə lilləzi fətaras-səməvati vəl-ərda hənifən, və mə ənə minəl-muşrikin, innə saləti və nusuki və məhyəyə və məməti lilləhi Rabbil-aləmin, lə şərikə ləhu və bizəlikə umirtu və ənə minəl-muslimin. Allahummə əntəl-məliku lə iləhə illə əntə. Əntə Rabbi və ənə abdukə, zaləmtu nəfsi va'təraftu bi-zənbi, fəğfirli zunubi cəmian, innəhu lə yəğfiruz-zunubə illə əntə, vahdini liəhsənil-əxləqi lə yəhdi liəhsənihə illə əntə, vasrif anni seyyiəhə lə yasrifu anni seyyiəhə illə əntə. Ləbbeykə və sə'deykə, vəl-xayru kulluhu biyədəykə, vəş-şərru leysə ileykə, ənə bikə və ileykə, təbarəktə və təaleytə, əstəğfirukə və ətubu ileykə].

*"Üzümü hənif (ixlasla Allaha ibadət edənlərdən) olaraq göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm. Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanlardanam. Allahım! Hökmdar Sənsən. Səndən başqa məbud yoxdur. Sən mənim Rəbbimsən, mən isə Sənin qulun. Özümə zülm etdim və günahımı etiraf etdim. Mənim bütün günahlarımı bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlaya bilərsən. Mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən. Buyur, əmrinə müntəzirəm! Xeyir bütünlüklə Sənin əlindədir. Şər isə Sənə aid deyildir. Mən Səninləyəm, Sənə də dönəcəyəm.*

*Mübarək və Ucasan! Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm".*[219]

Namazlarında Qurani-Kərimi aramla və mənasına diqqət yetirərək oxuyardı. Uca Allahın nemətlərindən bəhs edən rəhmət ayələrinə çatdıqda Allahdan rəhmətini, nemətini diləyər, əzab ayələrini oxuduqda əzabından Ona sığınar, zikr ayələrində isə Rəbbini yad edərdi.[220]

Adətən, gecə namazlarında qiyamı (qiraəti) uzadardı. Abdullah ibn Məsud ﵁ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ ilə birgə gecə namazına durdum. Qiyamda o qədər çox durdu ki, hətta xoş olmayan bir işi görmək istədim". Ondan: "Nə etmək istədin ki?" deyə soruşduqda belə cavab verdi: "Oturmaq və Peyğəmbəri namazda tərk etmək istədim".[221]

Bəzən Quran qiraətini çoxaldar, rükətlərin sayını azaldar, bəzən isə bunun əksini edərdi: Quranı az oxuyar, rükətlərin sayını çoxaldardı. Gecə namazlarını on üç rükətdən artıq qılmazdı.[222]

Allah rəsulu ﷺ gecə namazlarında rükunu uzadar və beləcə rükusu qiyamının uzunluğuna yaxın olardı.[223]

Rükuda bu duanı edərdi:

«اللَّهُمَّ لَكَ رَكَعْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، وَعليْك تَوَكَّلْتُ أَنْتَ رَبِّي خَشَعَ سَمْعِي وَبَصَرِي ولحمي ودمي وَمُخِّي وَعَظْمِي وَعَصَبِي، وَمَا اسْتَقَلَّتْ بِهِ قَدَمِي، لِلَّهِ رَبِّ الْعَالَمِينَ. سُبْحَانَ ذِي الْجَبَرُوتِ وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ. سُبُّوحٌ قُدُّوسٌ، رَبُّ الْمَلَائِكَةِ وَالرُّوحِ»

[Allahummə ləkə rakə'tu və bikə əməntu və ləkə əsləmtu və aleykə təvəkkəltu, əntə Rabbi, xaşəa ləkə səm'i və bəsari və ləhmi və dəmi və muxxi və azmi və asabi və məstəqallə bihi qadəmi lilləhi Rabbil-aləmin. Subhənə zil-cəbəruti, vəl-kibriyəi, vəl-azaməti. Subbuhun, quddusun, Rabbul-mələikəti vər-ruh].

*“Allahım! Sənə rüku etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Sənə təvəkkül etdim! Qulağım, gözüm, ətim, qanım, beynim, sümüyüm, sinirim və ayaqlarımın üstündə duran bədənim aləmlərin rəbbi olan Allaha tabe oldu! Qüdrət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir! Pakdır, müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!”*[224]

Ömrünün sonlarında rüku və səcdələrində bu duanı çox edərdi: *“Subhənəkəllahummə Rabbənə və bihəmdikə, Allahumməğfirli” (“Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!”)* Aişə anamız bunun səbəbini ondan soruşduqda belə demişdir: *“Rəbbim mənə ümmətimlə əlaqəli xoş bir əlamət görəcəyimi xəbər vermişdi. Həmin əlaməti gördükdə (həmin müjdə hasil olduqda) “subhanəllahi və bihəmdihi, əstəğfirullah və ətubu ileyh” zikrini deməyi çoxaltdım. Mən Allahın bu müjdəsini gördüm: “Allahın yardımı və qələbə gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd edərək Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!” (ən-Nasr surəsi).*[225] Həmçinin bu əlamət Peyğəmbərin ﷺ əcəlinin yaxınlaşdığını və tezliklə Uca Dostuna qovuşacağını da göstərirdi.

Allah rəsulu ﷺ səcdəni də uzadar və beləcə səcdəsi rükusunun uzunluğuna yaxın olardı. Səcdələrində müxtəlif növ dualarla Rəbbinə yalvarardı. O ﷺ belə demişdir: *“Qulun Rəbbinə ən yaxın olduğu vaxt onun səcdə halıdır. Elə isə (səcdədə) duaları çoxaldın!”*[226]

Səcdədə belə dua edərdi:

«اللَّهُمَّ لَكَ سَجَدْتُ، وَبِكَ آمَنْتُ، وَلَكَ أَسْلَمْتُ، سَجَدَ وَجْهِي لِلَّذِي خَلَقَهُ وَصَوَّرَهُ فَأَحْسَنَ صُورَهُ، فَشَقَّ سَمْعَهُ وَبَصَرَهُ، فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ. اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ، دِقَّهُ وَجُلَّهُ، وَأَوَّلَهُ

وَآخِرَهُ، وَعَلانِيَتَهُ وَسِرَّهُ. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لا أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ.

سُبُّوحٌ قُدُّوسٌ، رَبُّ الْمَلَائِكَةِ وَالرُّوحِ »

[Allahummə ləkə səcədtu və bikə əməntu və ləkə əsləmtu, səcədə vachiyə lil-ləzi xaləqahu, və savvarahu, fəəhsənə suvarahu və fəşəqqa səm'ahu va bəsarahu, təbərakəllahu əhsənu-l-xaliqin. Allahumməğfirli zənbi kulləhu, diqqahu va culləhu, və əvvaləhu və əxirahu və aləniyətəhu və sirrahu. Allahummə inni əuzu birıdakə min səxatikə və bimuafətikə min uqubətikə və əuzu bikə minkə, lə uhsi sənəan aleykə əntə kəmə əsneytə alə nəfsikə. Subbuhun, quddusun, Rabbul-mələikəti vər-ruh].

*"Allahım! Sənə səcdə etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Üzüm onu yaradana, ona surət verənə, surətini gözəl edənə, onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır! Allahım! Günahlarımın hamısını: kiçiyini və böyüyünü, birincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla! Allahım! Sənin qəzəbindən razılığına, cəzalandırmağından əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni layiqincə tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən! Allah pakdır, müqəddəsdir, mələklərin və Ruhun Rəbbidir!"*[227]

Necə də itaətkar və kərim bir Peyğəmbərdir! Gecənin səssizliyi içərisində Rəbbinə əl açıb yalvarır, təzim və qulluq dolu zikrlərlə Onu yad edir. O ﷺ, Rəbbini bu cür yad etdikcə, bu şəkildə Ona yalvardıqca sanki ruhən ən ali səmalarda seyrə çıxır. Sanki dağlar ona qulaq verərək, ulduzlar onu seyr edərək belə pıçıldaşırlar: Uca Allahın

*“Rəbbinin adını zikr et və özünü tamamilə Ona həsr et!”* (əl-Müzzəmmil, 8) deyə əmr etdiyi şəxs məhz budur.

Gecənin son altıda biri qalana qədər Allah rəsulu ﷺ həzin qiraətini, müti dualarını və pak zikrlərini davam etdirərdi.

Şair nə gözəl demiş:

Bütün gecəni müşriklər yatıb qalarkən
Peyğəmbər gecəni oyaq qalardı.

Əgər gecə namazını tamamlayıb Vitri qılmaq istəsəydi, birlikdə qılması üçün yoldaşını da oyadardı.[228]

Vitr namazını üç rükət qılar, birinci rükətdə Fatihədən sonra əl-Əla surəsini, ikinci rükətdə əl-Kəfirun, üçüncü rükətdə isə əl-İxlas surələrini oxuyar, bəzən isə əl-Fələq və ən-Nəs surələrini də əlavə edərdi.[229]

Vitr namazının sonunda isə bu duanı edərdi:

«اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ،
أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ.» لا

[Allahummə inni əuzu birıdakə min səxatikə və bimuafətikə min uqubətikə və əuzu bikə minkə, lə uhsi sənəan aleykə əntə kəmə əsneytə alə nəfsikə].

*“Allahım! Sənin qəzəbindən razılığına, cəzalandırmağından əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni layiqincə tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!”*[230]

Vitr namazını tamamladıqdan sonra belə dua edərdi:

«سُبْحَانَ الْمَلِكِ الْقُدُّوسِ»

[Subhanəl-Məlikil-Quddus].

*“Müqəddəs Hökmdar pak və nöqsansızdır!”* Bu duanı üç dəfə deyər və üçüncüdə səsini uzadaraq yüksəldərdi.[231]

Allah rəsulu ﷺ dünyanın naz-nemətlərindən tamamilə kənar olan otağında ibadətə çəkilər və üzərində səcdə edə

biləcəyi balaca bir həsirin üstündə namaza durardı. Bəzən yoldaşı önündə yatdığı halda namaz qılar, səcdə etmək istədikdə əli ilə yoldaşına toxunar, o da ayaqlarını Peyğəmbərin ﷺ səcdə edəcəyi yerdən çəkər, Allah rəsulu ﷺ qiyama qalxdıqda isə ayaqlarını yenidən uzadardı. Çünki o dövrdə gecə vaxtı evlərdə işıq yanmazdı.[232]

Nadir hallarda və müəyyən səbəblərdən ötrü məscidə gedərək gecə namazını orada qılardı. Ola bilsin ki, bu səbəblərdən biri də namaz qılması ilə yatmış yoldaşını oyadacağından ehtiyat etməsi idi.

Aişə anamız nəql edir ki, bir gecə Peyğəmbəri ﷺ yataqda görmədim, əlim ilə onu axtarmağa başladım, nəhayət, o, səcdə halında ikən əlim onun ayağının altına toxundu. Eşitdim ki, səcdədə bu cür dua edirdi: *"Allahummə inni əuzu biridakə min səxatikə, və bimuəfətikə min uqubətikə, və əuzu bikə minkə, lə uhsi sənaən aleykə, əntə kəmə əsneytə alə nəfsikə" ("Allahım! Sənin qəzəbindən razılığına, cəzalandırmağından əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni layiqincə tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!")*[233]

Başqa bir gecə barədə Aişə anamız belə deyir: "Allah rəsulunun ﷺ yataqda olmadığını hiss etdim. Elə zənn etdim ki, yoldaşlarından birinin yanına gedib. Axtarmağa başladım və gördüm ki, rüku, yaxud səcdə halında ibadətdədir və bu cür dua edirdi: *"Subhanəkə və bihəmdikə, lə iləhə illə əntə" ("Sən qüsursuzsan, Sənə həmd olsun! Səndən başqa haqq məbud yoxdur").* Bunu görən Aişə belə deyir: "Anam, atam sənə fəda olsun, ey Peyğəmbər! Mən nə hayda, sən nə hayda!"[234]

## GECƏNİN SÜKUNƏTİ İÇİNDƏ GƏZİNTİ

Allah rəsulu ﷺ bəzən gecənin son qismində – təhəccüd namazı vaxtı qızı Fatimənin, kürəkəni Əlinin ؓ evinə gedər, qapılarını döyər və onlara belə səslənərdi: *"Namaz qılmaq üçün durmursunuz?"* Bir dəfəsində Əli ؓ belə cavab verdi: "Ey Allahın elçisi, Allaha and olsun ki, biz yalnız bizim üçün əzəldən təqdir olunmuş qədər namaz qılırıq. Bizim canımız Allahın Əlindədir. Əgər O bizi oyatmaq istəsə, oyadar". Əli ؓ deyir ki, mən bunu dedikdə Allah rəsulu ﷺ mənə heç bir şey demədən çıxıb getdi. Sonra mən onun dönüb gedərkən qıçına vura-vura: *"Həqiqətən də, insan çox mübahisə edəndir!"* (əl-Kəhf, 54) dediyini eşitdim.[235]

Həyatının son günlərində gecə vaxtı Bəqi qəbiristanlığına gedər, oradakılar üçün dua edərdi. Aişə anamızın da xəbər verdiyi kimi, bunun başlanğıcı belə olmuşdur: "Peyğəmbərin ﷺ mənim yanımda qalacağı gecə idi. Ridasını (beldən yuxarı olan geyimini) çıxartdı. Sonra ayaqqabılarını çıxardaraq ayaq tərəfinə qoydu. İzarının bir tərəfini açaraq yatağının üstünə sərdi və böyrü üstə uzandı. Çox keçməmişdi ki, mənim yatdığımı zənn edib yavaşca ridasını aldı, yavaşca ayaqqabılarını geyindi, qapını açaraq çölə çıxdı və yavaşca qapını bağladı. Mən də örtüyümü başıma çəkib paltarıma büründüm və arxasınca yola çıxdım. Nəhayət, Bəqi qəbiristanlığına gəlib çatdı. Uzun müddət

ayaq üstə durdu və sonra üç dəfə əllərini qaldırdı. Daha sonra yan tərəfə keçdi, mən də keçdim. Yürüməyə başladı, mən də yürüdüm. İti addımlarla yürüdü, mən də sürətlə addımladım. O ﷺ daha sürətlə yürüməyə başladı, mən də sürətimi artırdım. Nəhayət, onu keçdim və içəri girdim. Elə təzə uzanmışdım ki, içəri girdi və belə dedi: *"Sənə nə olub, ey Aişə, təngnəfəs olmusan?"* Dedim ki, heç bir şey. Mənə belə dedi: *"Ey Aişə, ya özün de, ya da ki hər şeydən xəbərdar olan Allah Özü mənə bildirəcəkdir"*. Mən: "Anam, atam sənə fəda olsun, ey Allahın rəsulu!" – dedim və hər şeyi ona anlatdım. O ﷺ: *"Önümdə gördüyüm qaraltı sən idin?"* deyə soruşdu. Mən "bəli" dedikdə əli ilə sinəmi elə itələdi ki, məni incitdi və sonra belə dedi: *"Allah və Rəsulunun sənə haqsızlıq edəcəyinimi zənn etdin?"* Mən dedim: "İnsanlar nəyi gizlətsə də, Allah onu bilir". O *"bəli, elədir"*, – deyə qarşılıq verdi və belə dedi: *"Cəbrayıl yanıma gəldi və mənə belə dedi: "Rəbbin sənə Bəqi qəbiristanlığına getməyini və oradakılar üçün məğfirət (bağışlanma) diləməyini əmr edir". Mən isə sənin yatdığını zənn etdim, həm səni oyatmaq istəmədim, həm də (oyaq ikən) tənhalıq hiss edəcəyindən çəkindim"*. Daha sonra Aişə anamız: "Onlar üçün necə dua edim?" deyə soruşur. Allah rəsulu ﷺ da ona bu cür deməsini öyrədir:

«السَّلَامُ عَلَى أَهْلِ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ،

وَيَرْحَمُ اللَّهُ الْمُسْتَقْدِمِينَ مِنَّا، وَالْمُسْتَأْخِرِينَ، وَإِنَّا إِنْ شَاءَ اللَّهُ لَلاحِقُونَ»

[Əs-sələmu aleykum əhləd-diyəri minəl-mu'mininə vəl-muslimin, və yərhəmullahul-mustəqdiminə minnə vəl-mustə'xirinə və innə inşəallahu bikum lə-ləhiqun].

*"Ey bu diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah bizdən əvvəl gedənlərə də, qalanlara da rəhmət etsin! Allah istəsə, biz də sizə qovuşacağıq".*

Bu hadisədən sonra Allah rəsulu ﷺ hər gecənin sonu Bəqi qəbiristanlığına çıxar və belə dua edərdi:

«السَّلَامُ عَلَيْكُمْ دَارَ قَوْمٍ مُؤْمِنِينَ، وَأَتَاكُمْ مَا تُوعَدُونَ، غَدًا مُؤَجَّلُونَ، وَإِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ لاحِقُونَ، اللهُمَّ اغْفِرْ لِأَهْلِ بَقِيعِ الْغَرْقَدِ»

[Əs-sələmu aleykum dəra qoumi mu'mininə, və ətəkum mə tuadunə ğadən muəccilun və innə inşəallahu bikum ləhiqun, Allahumməğfir li-əhli Bəqiil-ğarqad].

*"Ey möminlər diyarının əhli, sizlərə salam olsun! Şübhəsiz ki, sizlərə də, bizlərə də və sabah vəd olunduğunuz şeylərə də müəyyən bir vaxta qədər möhlət verilmişdir. İnşəallah, biz də bir gün sizlərə qovuşacağıq. Allahım, Bəqi qəbiristanlığında yatanları əfv eylə!"*[236]

Ey Rəbbim, gecənin səssizliyi içərisində tənha şəkildə Bəqi qəbiristanlığına gedən və orada İslamın qələbəsi üçün çalışan, lakin bu zəfəri, Məkkənin fəthini və insanların Allahın dininə dəstə-dəstə girdiklərini görmədən vəfat edən əshabının qəbirləri önündə duran Peyğəmbərin ﷺ necə də kərim bir şəxsiyyətdir! Onun əshabı hər bir çətinliyə sinə gərərək, səbir edərək, ən sıxıntılı günlərdə belə Uca Allahın yolunda durmadan irəlilədilər və Rəblərinə qovuşdular. Lakin əməllərinin qarşılığı üçün bu dünyadan nə isə ummadılar.

Hər gün Peyğəmbərin ﷺ yanına axın edən heyətlərin çoxluğu, habelə onun gözü önündə durmadan genişlənən İslam əraziləri və s. onu öz dostlarını yad etməkdən yayındıra bilmədi. Əksinə, o ﷺ, gecə saatlarının bir hissəsini sadiq dostlarının qəbirləri önündə keçirərdi. Əllərini açaraq onlar üçün dua edər, onlara qarşı vəfa borcunu ödəyər və mübarək xatirələrini yad edərdi.

Artıq onun da dünyaya vida etmək vaxtı yaxınlaşırdı. Bunu hiss edən Peyğəmbər ﷺ Uca Dostuna (Rəbbinə) qovuşmamışdan öncə ölülər və dirilər ilə vidalaşmağa başlamışdı.

## SÜBH ÖNCƏSİ İSTİRAHƏT

İbadətlə – namaz, zikr və dua ilə keçən uzun bir gecədən sonra gecənin sonuna yaxın (son altıda biri qaldıqda) Peyğəmbər ﷺ dincəlmək üçün yatağına çəkilərdi. Gecə ibadətindən və gecə gəzintisindən sonra yataraq bədəninə dinclik və rahatlıq verər, özünü Sübh namazına və növbəti günün işlərinə hazırlayardı. Beləcə Allah rəsulu ﷺ sübh öncəsini yataraq keçirərdi. Aişə anamız belə demişdir: “Allah elçisini yanımda ikən sübh öncəsi oyaq görmədim”.[237]

Sübhün nuru gecənin zülmətini yarana və Bilalın azan səsi Mədinənin səssizliyini pozana qədər Allah rəsulu ﷺ yatardı. Daha sonra yuxudan oyanar, nübüvvət nəfəsi ilə, ətirli və risalət nuru ilə parlaq olan yeni gününə başlayardı.

## ☙ PEYĞƏMBƏRANƏ GÜNƏ ÜMUMİ NƏZƏR ❧

Peyğəmbərin ﷺ gündəlik həyat tərzi onun geniş həyat hekayəsinin, sadəcə olaraq, bir parçasıdır. Onun gündəlik yaşam tərzində bizlər üçün nümunə və ibrət olacaq yönləri aşağıdakı kimi qeyd etmək olar:

**1.** Peyğəmbərin ﷺ həyat tərzi zaman baxımından qısa bir vaxtda çoxsaylı və böyük işlər görmək üçün son dərəcə əlverişli idi. Ümumiyyətlə, bəşər tarixi bu böyük şəxsiyyətin, əzəmətli Peyğəmbərin ﷺ əli ilə ərsəyə gəlmiş nailiyyətlər qədər heç bir kəsin nailiyyətinə şahid olmamışdır.

**2.** Peyğəmbərin ﷺ həyatındakı şəffaflıq diqqəti cəlb edən məqamlardandır. Demək olar ki, onun həyatında qaranlıq və ya gizlin heç bir məqam mövcud deyildir. Əksinə, onun həyat tərzi o qədər şəffaf və aydındır ki, qapı arxasında evinin içindəki halını, ailədaxili işlərini, yoldaşları ilə olan yataq ədəbini, yuxuya getdikdə nəfəsinin səsini, yuxudan ayıldıqda ilk öncə nə dediyini – necə dua etdiyini bilir, sanki həyatının hər səhifəsini müşahidə edirik.

Peyğəmbərin ﷺ gündəlik həyat tərzini izlədikdə şəxsən mənə elə gəldi ki, mən onu anam-atamdan daha yaxşı tanıyıram və onun haqda daha çox məlumatlıyam. Ona ﷺ mənim canım, anam-atam fəda olsun! Allah rəsulu ﷺ həyatı sadə, tam açıq və parlaq biri idi. O ﷺ, digər insanlar kimi qızmar günəş altında piyada gəzən bir peyğəmbər idi.

**3.** Peyğəmbərin ﷺ həyat tərzində onun *"Gözümün nuru mənə namazda bəxş edildi"* [238] kəlamının həqiqətinə şahid oluruq. Belə ki, onun ﷺ gündəlik həyatı fərz, nafilə, yaxud gecə namazları ilə zəngin idi. Bu namazlar gün boyunca onun nəfsi və ruhi rahatlığını təmin edirdi. Sanki o ﷺ, ibadətlərində Rəbbinin dəstəyinə məzhər olur və beləcə hər namazdan sonra gücü, qüvvəsi və əzmi yenilənirdi. Bir sözlə, namaz onun gözünün nuru və ruhi qidası idi. Namaz vaxtı gəldikdə ibadətə qarşı olan şövqündən dolayı Bilala ؓ azan verməsi üçün belə deyərdi: *"Ey Bilal, namazla bizi rahatlandır"*.[239] Heç şübhəsiz ki, ibadətə qarşı olan şövqün *"namazla bizi rahatlandır"* sözündən daha dəqiq təsviri ola bilməzdi. Bax bu onunla Rəbbi arasında olan kamil əlaqənin təzahürü idi.[240]

İbn Qeyyim qeyd etmişdir ki, Peyğəmbərin ﷺ mütəmadi olaraq gündəlik qıldığı namazların rükət sayı qırx idi. Onlardan on yeddi rükət fərz namazlarına, on və ya on iki rükət ratibə sünnətlərə (yəni fərzlərə bağlı olan nafilələrə), on bir və ya on üç rükət isə gecə namazına aid idi. Bu qırx rükətdən əlavə qıldıqları isə Duha namazı, məscidə girdikdə və ya ziyarət etdiyi kəsin evində qıldığı və bu qəbildən olan ratibə olmayan nafilələr idi. Ona görə də gərək hər birimiz bütün həyatımız boyunca gündəlik ən azı bu qırx rükəti qılmalı və tərk etməməliyik. Heç şübhəsiz ki, gün ərzində bir qapını qırx dəfə döyən kəsin intizarı çox çəkməz, qapının açılmasını çox gözləməz.[241]

**4.** Onun ﷺ gecə namazı daha dərin mənalara sahib olan və ilahi ünsiyyətin ləzzətini özündə daha çox ehtiva edən

ibadət idi. Bu həm də ilahi ünsiyyətə bağlı olan mənəvi, ruhani yüksəlişin təcəssümü idi.

**5.** İnsanı heyrətə düşürən məqamlardan biri də budur ki, Peyğəmbər ﷺ Uca Allah tərəfindən keçmiş və gələcək xətalarının bağışlandığı müjdəsini almasına baxmayaraq, Rəbbindən ən çox bağışlanma diləyən kəs idi. Hər səhər azı yüz dəfə Rəbbindən əfv diləyərdi. Bir məclisdə məclis boyunca onun yüz dəfə *"Əstəğfirullah və ətubu ileyh"* (*"Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm"*) dediyini sayardılar.[242] Gecə namazlarında da tam bir mütilik və xuşu içərisində Rəbbindən bağışlanma diləyər və bu cür dua edərdi:*"Allahumməğfirli mə qaddəmtu və mə əxxartu və mə əsrartu və mə a'ləntu, və mə əntə ə'aləmi bihi minni, əntəl-muqaddimu və əntəl-muəxxiru lə iləhə illə əntə" (Allahım, əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım və məndən daha yaxşı bildiyin (pis) əməllərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sən! Səndən başqa haqq məbud yoxdur").*[243] Rəbbi tərəfindən asiliklərə mübtəla olmaqdan və günahlar çirkabına bulaşmaqdan qorunmuş, keçmiş və gələcək günahları bağışlanmış bir Peyğəmbər ﷺ Rəbbindən bu cür əfv və məğfirət diləyirdisə, o zaman biz necə bağışlanma diləməliyik?! Hansı ki həyatımızın hər saatı xəta ilə keçməkdədir. Allahım, səndən əfv diləyirik, bizi bağışla!

**6.** Allah rəsulu ﷺ Rəbbini zikr etməyə çox bağlı idi. Onun həyatına diqqət yetirən kəs görər ki, sanki o ﷺ, Rəbbinin cəlalını görürmüş kimi Ona qarşı sevgi və şövq içərisində həyat sürürdü. Dili zikr etməkdən usanmazdı. Oyandıqda ilk kəlməsi, yatdıqda isə son sözü Rəbbini zikr etmək olardı. Səhəri zikrlə açar, axşamı da zikrlə qarşılayardı. Dili daima

Rəbbini zikr etməklə nəm qalardı. Təbii ki, bütün bunlar həqiqi qulluğun və Uca Allaha qarşı olan sevginin və təzimin əsl göstəricisi idi.

**7.** Allah rəsulu ﷺ İşa namazından başqa bütün namazları ilk vaxtında qılmağa həris idi. İşanı isə bir az gecikdirərdi.

**8.** Peyğəmbərin ﷺ əshabına xitabı, adətən, fərz namazlarından, ələlxüsus Sübh və Zöhrdən sonra olardı. Çünki Sübhdən öncə gecə yatışı, Zöhrdən öncə isə qəylulə - günorta yatışı olduğuna görə bu vaxtlarda camaat son dərəcə gümrah olardı. Nadir hallarda Əsr və İşa namazlarından sonra əshabına xitab edərdi. Çünki bu vaxtlar camaatın çox yorğun olduğu və istirahətə ehtiyac duyduğu vaxtlar idi. Məğrib namazından sonra isə əshabına xitab etdiyinə dair bir şey nəql olunmamışdır. Çünki bu vaxt şam yeməyinin yeyildiyi vaxt idi. Ona görə də Allah elçisi ﷺ Məğribi ilk vaxtında qılar, namazı çox uzatmaz və namazdan sonra da camaata xitab etməzdi.

**9.** Vəzifə borcunu yerinə yetirmədə, boynunda olan haqları ödəmədə və ümumi həyat fəaliyyətindəki tarazlıq. Belə ki, o ﷺ, ibadətlərini əda etmiş, Allahın ona əmr etdiklərini insanlara çatdırmış, ailəsinin, qohum-əqrəbasının, dostlarının haqlarını ödəmiş, öz şəxsi işlərini də unutmamışdır. Bütün bunları isə çox rahat və tarazlı bir şəkildə eyni anda icra etmiş, heç bir nöqsana və qüsura yol verməmişdir. O ﷺ, səhabələrdən birinə belə nəsihət etmişdir: *"Sözsüz ki, bədəninin sənin üzərində haqqı vardır, gözlərinin sənin üzərində haqqı vardır, həyat yoldaşının sənin üzərində haqqı vardır, qonağının sənin üzərində haqqı vardır, övladının sənin üzərində haqqı vardır, dostunun sənin üzərində haqqı vardır".*[244]

Bu nəsihətin əməli tətbiqini biz onun öz həyatında görmüş oluruq. Həqiqətən də, Allah rəsulu ﷺ hər haqq sahibinin haqqını ödəmişdir.

**10.** Peyğəmbərin ﷺ gündəlik həyatı son dərəcə işgüzar keçməsinə baxmayaraq, o heç vaxt təlaşlı və gərgin olmamışdır. İşlərinin çox olmasına rəğmən, daima sakit və rahat olmuşdur. Onun halına diqqət yetirsən, elə zənn edərsən ki, onun dünyəvi heç bir məşğuliyyəti yoxdur. Çünki evindəki halı, rahatlığı elə səviyyədə idi ki, sanki çöldə onu heç bir iş-güc və həyat yükü gözləmir. Həmçinin əshabı ilə olan birlikdəliyi səndə elə bir təsəvvür yaradır ki, sanki onu narahat edən başqa bir məşğuliyyəti yoxdur. Belə ki, o ﷺ bütün varlığı ilə özünü onlara həsr etmiş, onlarla rahatlıq tapmış və hər kəsi gözəl əxlaqının ağuşuna almışdır. Bəzən insanda elə təsəvvür yaranır ki, Peyğəmbərin ﷺ yeganə işi əshabı ilə birlikdə oturmaq, onlarla söhbətləşmək idi. Halbuki vəziyyət belə deyildi. Sadəcə olaraq, Allah elçisi ﷺ elə bir mənəvi yüksəkliyə və rahatlığa nail olmuşdu ki, bütün işlərini gərginlikdən uzaq tam bir rahatlıq içərisində görə bilirdi.

**11.** Peyğəmbərin ﷺ həyat tərzi son dərəcə nizamlı idi, lakin yalnız bir xətt üzrə davam edən sıxıcı bir həyat tərzi də deyildi. Əksinə, onun yaşam tərzi hal-vəziyyətə uyğun olaraq dəyişərdi, lakin nizam və səliqəsini itirməzdi. Həyatı dağınıq və qarışıq deyildi. Belə ki, namaz vaxtları təyin edilmiş məlum vaxtlar olduğuna görə o ﷺ da öz işlərini buna əsasən və namaz aralarında nizamlayardı. Onun ﷺ məclisləri hal-vəziyyətə uyğun olaraq qısa və uzun olardı.

Beləcə onun həyatında nizam-intizam öz yerini tutar, sıxıcılıq və sönüklük isə aradan qalxardı.

**12.** Peyğəmbərin ﷺ həyat tərzi öz təbii axarında yürüyən sadə bir həyat tərzi idi. Həyat tərzi süni rəsmiyyətdən, sıxıcı və sərt ciddiyyətdən tamamilə uzaq idi. Əksinə, xoş bir hal ilə qarşılaşdıqda sevincini izhar edər, sevinc coşqusuna o da qoşular və istiqanlılıq göstərərdi. Uzun müddət görmədiyi dostunu qarşılamağa çıxdıqda ridası çiynindən düşər,[245] yol kənarında qoyunun dərisini soyan bir gəncə bu işin necəliyini göstərmək üçün qollarını çırmalayar, ət bişirən birinin yanından keçdikdə ondan: *“Yemək hazırdırmı?”* – deyə soruşar və həmin təamdan bir dişdək dadardı.[246] İnsanlara qarşı rəftarında son dərəcə sadə və səmimi olması ilə bütün maneələri aşa bilmiş, o ﷺ, insanlara, insanlar da ona qarşı qəlblərini açmışlar. Nəticədə Peyğəmbər ﷺ ilə onlar arasında ata-bala münasibəti yaranmışdır.

**13.** Onun ﷺ yaşam tərzində, evində və məclislərində xoş rəftar, gülərüzlük və isti münasibət hakim idi. Daima evində gülərüz və təbəssümlü olar, məclislərində isə xoş zarafatlara yer verərdi. Bir gün həbəşiləri məsciddə oynayarkən görmüş, onların əyləncəsinə baxmaqdan zövq almış, üstəlik bu səhnəyə tamaşa etməsi üçün yoldaşını (Aişə anamızı) da çağırmış və həbəşilərə belə demişdir: *“Ey Bəni Ərfidə, oynayın! Qoy yəhudi və nəsranilər bilsinlər ki, bizim dinimiz rahat bir dindir. Mən geniş və asan olan hənif (təkallahlılıq) dini ilə göndərilmişəm”.*[247]

**14.** Peyğəmbərin ﷺ ailə münasibətlərində ülvi hisslər üzərində qurulan möhkəm bir bağ var idi. Onun bu hissləri daima özünü müxtəlif məqamlarda: yoldaşına öz əli ilə su,

yaxud yemək tikəsi təqdim etməsində, gecə söhbətlərində, gündüz vaxtı onlara baş çəkməsində, ev işlərində onlara əl tutmasında və ər-arvad münasibətlərində büruzə verirdi.

**15.** Allah rəsulu ﷺ insanların fitri tələblərini, ehtiyaclarını daim nəzərə alar, hətta ibadətlərdə belə bu kimi şeyləri göz önündə tutardı. Özü tək namaz qıldıqda namazı uzatmasına rəğmən, camaata namaz qıldırdıqda namazı qısa tutardı. Namaza başladıqda onu uzatmaq istəyər, lakin ağlayan uşağın səsini eşitdikdə anası çox narahat olmasın deyə, namazı qısaldardı.[248]

**16.** Onun ﷺ ən dərin mənalara sahib olan ibadəti evində və gecənin səssizliyi içində etdiyi gizli ibadətlər idi. Hansı ki o ﷺ bu növ ibadətlərə ömrünün sonuna qədər davam etmiş və heç vaxt tərk etməmişdir. Təbii ki, onun bu halı həm də risalətinin haqq olduğunun nişanələrindəndir. Çünki bir şəxsin bütün ömrü boyunca nizamlı bir şəkildə özünü ibadətə həsr etməsi heç bir vəchlə saxtakar insanın halı ola bilməz. Deməli, Peyğəmbərin ﷺ bu halı onun Allah adına təbliğ etdiklərində necə sadiq və yəqin biri olduğunu ifadə edir.

**17. Peyğəmbərin ﷺ gündəlik həyatının ən fəal vaxtlarını üç hissəyə bölmək olar:**

❖ ***Gecə yarısı:*** Allah rəsulu ﷺ gecənin ilk yarısını yatıb dincəldikdən sonra təhəccüd (gecə) namazına qalxardı. Bununla da sanki o ﷺ, əsas gücünü, enerjisini gecə ibadətinə saxlayardı. Çünki namazı onun gözünün nuru və mənəvi qidası idi.

❖ ***Sübhdən sonra:*** Sübh çağından öncə azacıq yatıb dincələr, sonra Sübh namazını qılar, Rəbbini zikr edər, daha

sonra isə əshabı ilə oturub onlara öyüd-nəsihət verər, təlim-tərbiyə keçərdi.

❖ *Zöhrdən sonra:* Zöhrdən öncə azacıq yatıb dincələr, sonra isə Zöhr namazını qılar, namaz sonrası isə ehtiyac olduqda camaata xitab edər, yaxud oturub əshabı ilə söhbətləşər və ya onların zəruri problemlərini həll edərdi.

**18.** Fikir versək, görərik ki, günlük həyatımız müəyyən vaxt bölgülərinə əsasən hissələrə bölünmüşdür. Bu hissələri isə bir-birindən ayıran beş vaxt namazdır. Elə isə Peyğəmbərin ﷺ gündəlik həyatını namaz vaxtlarına əsasən təqribi və müxtəsər olaraq bu şəkildə vəsf etmək olar:

• **Sübh:** Allah rəsulu ﷺ sübh öncəsi istirahətdən sonra namaz üçün oyanar, Sübh namazını qılar və günəş doğana qədər əshabı ilə birlikdə namaz qıldığı yerdə oturardı. Sonra evinə keçərək yoldaşlarına baş çəkər, daha sonra məscidə qayıdaraq duha vaxtına qədər əshabı ilə birgə oturardı. Bu məclis elm, irfan məclisi idi. Bəzən isə bu məclisdən sonra dostlarından və ya qızlarından birini ziyarətə gedər, yaxud özünün hər hansı şəxsi bir işi ilə məşğul olardı. Zöhr qabağı isə yatıb dincələrdi. Bu dincliyi həm bədəni üçün rahatlıq, həm də gecə ibadətinə rahat qalxması üçün köməkçi vasitələrdən hesab olunurdu.

• **Zöhr:** Sonra günorta namazı üçün qalxar və Zöhrü qılardı. Əgər bir hadisə baş versəydi, onunla əlaqədar Zöhrdən sonra camaata xitab edərdi. Camaata ən çox xitab etdiyi vaxt da məhz bu vaxt idi. Sonra isə evinə qayıdar və Zöhrün son sünnət namazlarını qılardı. Daha sonra məscidə qayıdar və əshabı ilə oturar, yaxud özünün hər hansı şəxsi bir işi ilə məşğul olardı. Deмək olar ki, Zöhr ilə Əsr arası onun ﷺ iş vaxtı sayılardı.

• **Əsr:** Əsr namazını gecikdirməz, ilk vaxtında qılardı. Namazdan sonra zövcələrinin yanına gedər, bir-bir onlara baş çəkərdi. Bəzən isə yoldaşlarının hamısı həmin günü yanında qalacağı zövcəsinin evinə toplaşardı. Demək olar ki, Əsr ilə Məğrib arasında, əsasən, ailəsinə vaxt ayırardı.

• **Məğrib:** Məğrib namazını da gecikdirmədən ilk vaxtında qılar, namazdan sonra isə şam yeməyini yeyər və evində qalardı. Şam yeməyi onun ﷺ gün ərzində qəbul etdiyi əsas qidası sayılardı.

• **İşa:** İşa namazını qıldıqdan sonra evinə qayıdar, bir müddət zövcələri ilə axşam söhbəti edərdi. Hərdən bəzi mədinəli səhabələri ziyarətə çıxardı. Bəzən isə Əbu Bəkrin evində onunla və Ömərlə oturar, müsəlmanların problemləri və dövlət işləri ilə əlaqədar məsləhət-məşvərət edərdilər. Daha sonra evinə qayıdaraq gecə yarısına qədər yatardı. Sonra təhəccüd namazı (gecə ibadəti) üçün gecənin yarısı oyanardı. Yaxşı yatıb dincəldiyindən dolayı bu vaxt bədəni son dərəcə gümrah olardı. Beləcə gecənin üçdə birini ibadətlə keçirər, son altıda biri olduqda yatağına çəkilər və Sübh namazına qədər dincələrdi.

**19.** Gündəlik həyatında baş verən hadisələr onun peyğəmbərliyinin haqq olduğunun dəlillərindən idi. Həmin hadisələrin şahidi olan hər bir kəs dərhal anlayardı ki, bu hal Allah tərəfindən göndərilmiş bir peyğəmbərin halıdır və ona Uca Allah tərəfindən vəhy nazil olur. Anlayardı ki, bu hal hər hansı bir boş iddia sahibinin və ya öz şəxsi maraqlarını güdən kəsin halı deyildir. Elə Mədinəyə əsir olaraq gətirilmiş Sümamə ibn Üsal da bunu dərk edə bilmişdi. Allah rəsulu ﷺ onun ən çox nifrət etdiyi şəxs idi. Əsir olaraq gətirildikdə Allah elçisi ﷺ onun məscidin

dirəklərindən birinə bağlanmasını əmr edir. Beləcə Sümamə Peyğəmbərin ﷺ gündəlik həyat fəaliyyətinin şahidi olmuş, məscidə girərkən, məsciddən çıxarkən, əshabı ilə oturarkən onu seyr etmiş olur və anlayır ki, o ﷺ, zorbaçı bir padşah deyil, əksinə, Allah tərəfindən göndərilmiş bir elçidir. Allah rəsulu ﷺ onun sərbəst buraxılmasını əmr etdikdə Sümamə gedib qüsl alır və sonra Peyğəmbərin ﷺ yanına qayıdaraq belə deyir: "Şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. Yenə şəhadət edirəm ki, Muhəmməd Allahın elçisidir. Ey Muhəmməd, Allaha and olsun ki, yer üzündə ən çox nifrət etdiyim üz sənin üzün idi, indi isə sənin üzün mənə ən sevimli üzdür. Allaha and olsun ki, sənin gətirdiyin din ən çox nifrət etdiyim din idi, indi isə sənin dinin mənə ən sevimli dindir. Allaha and olsun ki, sənin şəhərin ən çox nifrət etdiyim şəhər idi, indi isə ən çox sevdiyim şəhərdir".[249]

Nəsrani olan Ədiy ibn Hatim də Peyğəmbərin ﷺ yanına gəldikdə bu hala şahid olmuşdu. Allah rəsulu ﷺ ilə birgə yolda yürüyərkən Peyğəmbərə ﷺ səslənən və ondan durmasını istəyən yanında uşağı olan bir qadın üçün Allah elçisi ﷺ ayaq saxlamış və onların ehtiyacını dinləmək üçün o qədər ayaq üstə durmuşdu ki, Ədiyin ona yazığı gəlmiş, sonra isə öz-özünə belə demişdi: "Həqiqətən də, sən mənim və Noman ibn Munzirin dininə tamamilə yad birisən. Əgər sən (bəzilərinin zənn etdikləri kimi) padşah olsaydın, heç vaxt bir qadın və uşaq üçün bu qədər ayaq üstə durmazdın. Beləcə Allah onun sevgisini mənim qəlbimə yerləşdirdi". Bu hadisədən sonra Ədiy İslam dinini qəbul etmişdir.[250]

**20.** Peyğəmbərin ﷺ günlük həyat tərzindən də aydın olur ki, o, gözəl və xoşbəxt bir həyat sürmüşdür.

Mənəvi yöndən xoşbəxtliyə gəldikdə, heç şübhəsiz ki, bu məsələdə o ən uca, əlçatmaz zirvədə idi. O ﷺ, insanlar içində Rəbbini ən yaxşı tanıyan və imanı ən güclü olan idi. Yeddi qat səmaya yüksəldilən, hətta mələklərin qələmlərinin səsini belə eşidən, Rəbbinin ona bəxş etdiyi müşk qoxan və dibi inci ilə dolu olan Kövsər çayını, Cənnəti öz gözləri ilə görən, hətta onun meyvəsindən qoparmaq istəyən bir kəs barədə başqa nə düşünə bilərik axı?![251]

*"Rəbbim məni Öz qatından yedizdirir və içirir"*[252] deyərək Allahı öyən və Rəbbinə bu qədər yaxın olan, bu cür ali maqama yüksəldilən bir kəsin halı başqa necə ola bilərdi axı?!

Allah rəsulu ﷺ təkcə mənəvi və imani baxımdan deyil, həm də dünyəvi yöndən çox xoşbəxt insan idi. Bu xoşbəxtliyi onun həyatının hər səhifəsində görmək, hətta bu xoşbəxtliyi necə daddığını hiss etmək belə mümkündür.

- Belə ki, Rəbbi onu qəm-qüssədən azad etmiş, hər növ pis xəstəlikdən qorumuşdur. O ﷺ, sağlam bədənə, sağlam düşüncəyə sahib olmuş və ailə səadəti içərisində yaşamışdır.
- Onun saf, gözəl zövcəsi olmuş, bir-birlərini sevmiş, öz ülvi hisslərini, sevgi və məhəbbətini onunla paylaşmışdır.
- Onun ﷺ pak qızı və o qızından da həyatının reyhanı – iki gözəl qoxulu nəvəsi olmuşdur. Atalıq hisslərini nəvələri ilə bölüşmüş, bu yöndə onlardan heç nə əsirgəməmişdir.
- Onun ﷺ özləri ilə dünyanın sıxıntısını, yükünü paylaşdığı Əbu Bəkr və Ömər kimi sadiq dostları olmuşdur. Çox vaxt Peyğəmbərin ﷺ belə dediyini

eşidərdilər: *"Mən, Əbu Bəkr və Ömər daxil olduq. Mən, Əbu Bəkr və Ömər çıxdıq. Mən, Əbu Bəkr və Ömər getdik".*[253]

- Onun ﷺ Əli ibn Əbu Talib رضي الله عنه kimi Allah tərəfindən sevilən, yaxın qohumu, qonşusu və kürəkəni olmuşdur.
- Onun ﷺ Osman ibn Əffan və Əbül-As ibn Rabi رضي الله عنهما kimi əməlisaleh, əhdə vəfalı kürəkənləri olmuşdur.
- Onun ﷺ özlərindən razı qaldığı və Uca Allah tərəfindən vəhylə təzkiyə edilmiş – qəlblərinin təmiz olduğuna zəmanət verilmiş əshabı var idi: *"Allah onların qəlbində olanı (imanı) bildi, onlara mənəvi rahatlıq nazil etdi"* (əl-Fəth, 18).

Bir sözlə, o ﷺ, ətrafındakılarla, yaxınları ilə tam bir səadətə məzhər olmuş xoşbəxt bir insan idi. Həmçinin o ﷺ elə bir həyat sürmüşdü ki, həyatı boyunca böyük işlərə imza atmışdır. Şübhəsiz ki, dünya həyatında ən böyük səadət insanın xəyal etdiyi işləri həyata keçirə bilməsidir. Onun isə bu dünyada ən böyük hədəfi Uca Allahın dinini insanlara çatdırması və insanların Allahın dininə dəstə-dəstə girməsi idi. Məscidində insanların sayının günbəgün artdığını və İslam coğrafiyasının durmadan genişlədiyini gördükdə Peyğəmbərin ﷺ nə hisslər keçirdiyini xəyal edə bilmərik. Vida həccində ikən Cəzirə yarımadasının hər yerindən gələrək onun ətrafında toplanan və onu dinləyən böyük bir izdihamın (yüz mindən artıq adamın) hamısının bir ağızdan: "Biz şahidlik edirik ki, sən bizə doğru yol göstərdin, Allahın dinini çatdırdın və boynundakı borcu ödədin" dediyini eşitdikdə onun hansı hissləri keçirdiyini təsəvvür edə bilmərik. Bütün bunlar *"Şübhəsiz ki, Rəbbin sənə*

*nemət bəxş edəcək, sən də razı qalacaqsan"* (əd-Duha, 5) deyən Allahın ona bu dünyada əta etdiklərinin bir hissəsidir.

**21.** Allah rəsulu ﷺ həyatı boyunca dadmış olduğu dünya nemətlərini, gördüyü hər bir gözəlliyi və daddığı hər bir şeyin ləzzətini Uca Allahın lütfünə bağlayardı.

Belə ki, o ﷺ, içdiyi şorbanı, yediyi tikəni belə Allahın neməti bilərək dadar və belə deyərdi: *"Rəbbimiz Allaha çoxsaylı, xoş, mübarək həmd olsun! Bizi himayə edən, bizi içirən Allaha sonsuz, ardı-arası kəsilməyən, ehtiyac duyulan bir şəkildə və (nemətləri) inkar olunmadan həmd olsun! Allahım, yedizdirən, içirən, zəngin edən, bəxş edən, doğru yol göstərən, həyat verən məhz Sənsən. Allahım, bəxş etdiklərinə görə Sənə həmd olsun!"*[254]

Oyandıqda Rəbbinin özünə bəxş etdiyi və yuxusuz qalan gözlərin təmənni etdiyi yuxu nemətinin, habelə yuxudan sağlam bir şəkildə oyanmanın necə bir nemət olduğunun fərqində olar, buna görə də Rəbbinə şükr edərək belə deyərdi: *"Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. Son dönüş yeri də Onadır!"*[255]

Bir anlıq düşünün, əgər o ﷺ, gündəlik yeməyinin, yuxusunun nemət olduğunun fərqində idisə, qarşılaşdığı gözlənilməz nemətlərə qarşı hansı hissləri keçirərdi?! Biz sözlə, o ﷺ heç bir neməti gözardı etməz, hər bir nemətin Allahdan olduğunun fərqində olar və belə deyərdi: *"Məni nemətləndirən və mənə yaxşılıq edən Allaha həmd olsun! Mənə bəxş edən və (bəxş etdiyini) bol edən Allaha həmd olsun! Hər halda, hər vəziyyətdə Allaha həmd olsun!"*[256]

Əgər Allah rəsulu ﷺ bu gün bizim sahib olduğumuz və çoxumuz üçün artıq adiləşmiş şeylər sayılan təhlükəsiz evlərimizi, sağlam bədənimizi və evimizdə olan qida məhsullarını görsəydi, belə deyərdi: *"Kim evində əmin-*

*amanlıq içində, bədəni sağlam və günlük yeməyi də yanında olduğu halda səhərə çıxarsa, sanki ona dünya (naz-nemət) bəxş edilmişdir".*[257]

Təbii ki, nemətin fərqinə varmaq və onu kiçiltməmək səadət dairəsini genişləndirən, dünya həyatını daha xoş, insan nəfsini tox və mütməin edən amillərdəndir. Beləcə insan bu nemətləri bəxş edən Allaha qarşı daha çox şükranlığını göstərər və nəticədə Rəbbinin ona bəxş etdiyi nemətləri başqa nemətlərin doğmasına, insan həyatının daha canlı və daha parlaq olmasına səbəb olar.

**22.** Peyğəmbərin ﷺ gündəlik həyatı vasitəsilə onun ümumi həyat hekayəsini öyrəndikdə, onun dünya həyatına qarşı necə nikbin olduğunu gördükdə həyatı boyunca nə qədər iztirablarla, sıxıntılarla qarşılaşdığını və onlara necə sinə gərdiyini xatırla! Belə ki, həyatının ilk çağlarında, uşaqlıq dönəmində təkrarlanan yetimlik günləri, peyğəmbərliyindən sonra qarşılaşdığı əziyyətlər, ən çox sevdiyi insanı – yoldaşı Xədicəni itirməsi, daha sonra oğlanlarının və qızlarının vəfatına şahid olması, sevdiyi diyarından – Məkkədən ayrılması, Uhud döyüşündə yaxınlarının və dostlarının başına gələnlər, İfk hadisəsində çəkdiyi sıxıntılar və digər dünya iztirabları və bəlaları. Lakin bütün bunlara baxmayaraq, o ﷺ, heyrətamiz əzmə sahib idi. Beləcə əzmkarlığı ilə həyatının çətin günlərini arxada qoymuş, sıxıntılara qarşı nikbin davranmış və həyatında yeni səhifələr aça bilmişdi. Onun ﷺ gündəlik fəaliyyətini, həyat enerjisini gördükdə elə zənn edirsən ki, bu insan həyatı boyunca heç bir qəm-qüssə çəkməmişdir. Halbuki o ﷺ, çox iztirablar görmüş, lakin bu sıxıntılara ilişib qalmamışdır. Həyatının hər anı böyük hədəflər, ali

məqsədlər uğrunda və son dərəcə fəal keçmişdir. Bir sözlə, onun həyatı yaşanılacaq əsl həyat olmuşdur.

**23.** Allah rəsulunun ﷺ əshabı ilə olan dərin əlaqəsindən və onlarla qarşılıqlı həyat fəaliyyətindən təəccüb etməmək mümkün deyildir! Hətta insan elə zənn edir ki, hər bir səhabənin Peyğəmbərlə ﷺ ayrı bir xatirəsi olmuşdur:

- Allah rəsulu ﷺ səhabə övladlarını elə həyatlarının ilk çağlarında tərbiyəsi altına almışdır. Həmin uşaqlar onun qucağında böyümüş, mübarək cisminin bərəkətindən öz nəsiblərini almışlar.[258] Sübh çağından başlayaraq uşaqlar ona xidmət etməkdən ötrü yarışardılar. Allah rəsulu ﷺ uşaqların qablarına (təbərrük – bərəkət qəsdi ilə) əlini salardı.[259] Yol boyunca oğlan və qız uşaqlarını gördükdə onlara öz sevgisini izhar edər, üzlərinə, başlarına sığal çəkərdi.[260] Oğlan uşağının üzünə su səpər,[261] öz əli ilə balaca qız uşağının paltarını geyindirərdi.[262] Beləcə o uşaqların hər birinin həyatında Peyğəmbər ﷺ ilə əlaqəli xoş xatirələr qalardı.

- Peyğəmbər ﷺ ilə qarşılaşdıqda təbəssümü onların (səhabələrin) üzündə bərq vurar, əlləri də onun əlinin bərəkəti və ətri ilə şərəflənərdi.[263]

- Mübarək ayaqları onların evlərinə qədəm qoyar, əli isə onlarla birgə yeməklərinə toxunardı.[264]

- Xoş günlərində onlarla birgə olardı. Onun iştirak etməsi ilə sevincləri daha da artardı.

- Onu dəvə kəsimi münasibəti ilə dəvət edərdilər. O ﷺ da dəvəti qəbul edər, onlarla birgə gözləyər və dəvə kəsimini seyr edərdi.[265]

- Məsciddə rəqs edən, əylənən həbəşilərə tamaşa edər və onları həvəsləndirərək *"Oynayın, ey Bəni Ərfidə!"* – deyərdi.

- Xəstələri ziyarət edərdi. Xəstə özünə gəldikdə başı üstə onu görərdi. Əli ilə xəstənin ağrıyan yerinə sığal çəkərdi.[266]

- Cənazələrində iştirak edər, qohumlarının, sevdiklərinin qəbirləri üstə durar, kədərlərinə şərik olar və göz yaşı tökərdi.

- Əshabından kimisə görmədikdə onun haqda soruşar, hal-vəziyyəti barədə maraqlanardı. Bir sözlə, öz həyatını onlarla bölüşərdi. Beləcə onların həyatı Peyğəmbərin ﷺ həyatının bərəkəti ilə bərəkətlənər, nuru ilə nurlanardı.

Sonda Allah rəsulu ﷺ vəfat etdi, lakin daima onların qəlblərində yaşadı, zehinlərində canlı qaldı və nuru onların gözlərindən itmədi. Onların hər birinin yaddaşına Peyğəmbərlə ﷺ əlaqəli silinməz və unudulmaz xatirələr həkk olundu. Beləcə hər dəfə onun haqda danışanda sanki onun xəyalı gözləri önündə durmuş və ona baxırcasına danışırdılar:

"Sanki mən onun baldırının parlaqlığına baxıram...".

"Sanki mən onun üzüyünün parıltısına baxıram...".

"Sanki mən onun saçının tağındakı ətrin parıltısına baxıram...".

"Hələ də onun əlinin soyuqluğunu (öz əlimdə) hiss edirəm...".

"Əli qardan soyuq, müşkdən daha ətirli idi...".

"Bəzən mənə elə gəlir ki, hələ onun ayaqlarının soyuqluğunu öz əllərimdə hiss edirəm...".[267]

**24.** Peyğəmbərin ﷺ həyat tərzini öyrənməyimiz qəlbimizdə ona qarşı böyük bir sevginin yaranmasına səbəbdir. Ona görə də Peyğəmbəri ﷺ ən çox sevən və ona qarşı ən çox hörmət bəsləyən kəslər məhz səhabələr olmuşdur. Çünki Peyğəmbərin ﷺ həyatında şahidi olduqları

hər bir an onların qəlblərində ona qarşı sevgi və təzimi artırardı. Həqiqətən də, Allah rəsulunun ﷺ həyatı hər bir səhifəsi ilə cəlbedici idi. Bəli, səhabələrin gördüklərini görmək bizə nəsib olmasa da, onun həyatını oxumaq və onu tanımaq mümkünsüz deyildir. Heç olmazsa, bu fürsəti əldən verməməliyik. Beləcə səhabələrin qəlbini Peyğəmbər sevgisi əhatə etdiyi kimi, bizim qəlbimizi də onun sevgisi bürüyəcəkdir. Peyğəmbərin ﷺ həyatını təfsilatlı şəkildə öyrənməyimiz qəlbimizdə ona qarşı olan sevginin bərqərar olmasına səbəb olan əsas amillərdəndir. O ﷺ elə bir şəxsiyyətdir ki, onu daha çox tanıdıqca ona qarşı olan sevgin artacaq, onun barədə daha çox bilgi əldə etdikcə onu görmək arzun çoxalacaqdır.

Uzun zamandır ki, mən Peyğəmbərin ﷺ həyatı haqda düşünürəm. Hətta mənə elə gəlir ki, mən həmin hadisələri öz gözümlə seyr edir və canlı yaşayıram. Onun nuruna qərq olacaq, nəfəsinin ətrini duyacaq qədər özümü ona yaxın hiss edirəm. Ona daha çox yaxınlaşmaq, əllərindən öpərək soyuqluğunu hiss etmək və ürəkdən ona: "Ey Allahın elçisi, Uca Allaha and olsun ki, sən mənə öz canımdan daha sevimlisən" demək istəyirəm.

Allahım, biz Sənin rəsulun Muhəmmədə ﷺ iman gətirdik, onu sevdik, ona tabe olduq, lakin onu görmədik. Allahım, bizi Qiyamət günü onu görməkdən məhrum etmə! Allahım, bizi onun zümrəsində həşr et, bizi onun şəfaətinə məzhər olan bəndələrindən et! Allahım, bizi onun hovuzu ətrafında toplanacaq qullarından et, bizi Firdovs cənnətində ona və onunla birgə özlərinə nemət bəxş etdiyin kəslərə: peyğəmbərlərə, salehlərə, şəhidlərə və siddiqlərə yoldaş et! Həqiqətən də, onlar nə gözəl dostlardır!

Ey Rəbbimiz, nazil etdiyin Kitaba iman gətirdik və Rəsuluna tabe olduq. Bizi həqiqi şahidlərdən qərar ver!

Allahım! İbrahimə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Allahım! İbrahimə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

## ☙ KİTABIN ƏRSƏYƏ GƏLMƏSİ ❧

**1.** Belə bir kitab təlif etmək fikri düz iyirmi il bundan öncə qardaşım Əbdüləziz əl-Məcid (Allah ona rəhmət etsin!) ilə aramda olan qısa söhbət əsnasında yaranmışdı. Ondan sonra bu barədə düşünməyə başladım. Söhbət əsnasında onun dediyi bu cümləni – ***"Tam təfərrüatı ilə Peyğəmbərin ﷺ gündəlik həyatı"*** yaxşı xatırlayıram. Qardaşım bunu deyərkən əli ilə işarə edərək *"Mədinəli uşaqların su qabları ilə Peyğəmbərin ﷺ yanına gəlməsi və Allah rəsulunun ﷺ da onların qablarına əlini salması"* barədə danışırdı. Bu səhnə və onun dediyi sözlər heç vaxt yadımdan çıxmadı. Hətta indi belə bu sözü nə vaxt və harda dediyini yaxşı xatırlayıram. Uca Allahdan diləyim budur ki, bu təklifini onun üçün vəfatından sonra əməl dəftərinə savab yazdıracaq elm qismindən, mənim üçün də bir qardaşın qardaşı üçün edə biləcəyi xeyirxahlıq növündən etsin!

**2.** Bütün bu illər ərzində qardaşımın təklifi mənim zehnimdə təkmilləşirdi. Mövzu ilə əlaqəli məlumatları toplamağa, saf-çürük etməyə başladım. Sonra isə müxtəsər şəkildə ***"Peyğəmbərin ﷺ gündəlik həyatı"***nı qələmə aldım, irad və təkliflərini bildirmələri üçün onu ustadlarıma və dostlarıma yolladım. Beləcə onların düzəlişlərindən, məsləhətlərindən və qeydlərindən bir xeyli yararlandım. Sonra həmin qeydləri bu kitaba əlavə edərək onu tamamladım. Allah onların əvəzini versin!

**3.** Kitabın təlifində əsas məqsəd Peyğəmbərin ﷺ gündəlik həyat tərzini kamil şəkildə ortaya qoymaqdır. Əsas qayəmiz onun ﷺ gündəliyində bizim üçün örnək və nümunə olacaq məqamları incələmək, daha sonra isə həyatımızı buna uyğun bir şəkildə tənzimləməkdir. *"Allahın Elçisi sizlərə: Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir"* (əl-Əhzab, 21). Biz onun ﷺ həyat tərzindən və yaşadığı hadisələrdən anlayacağıq ki, onun halı bəşər fitrətinə ən münasib olandır. Beləcə qoy hər kəs anlasın ki, o ﷺ, alicənablığın, habelə sadə və səmimiliyin – bir sözlə, insanlığın ən ali nümunəsidir. *"De: Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi kimi göndərilmiş bir insanam"* (əl-İsra, 93).

**4.** Peyğəmbərin ﷺ həyatından bəhs edən əksər sira (tarix) kitabları onun həyatını tarixi ardıcıllıqla qeyd edir. Beləcə oxucuya onun ﷺ ümumi həyat hekayəsini təqdim etmiş olurlar. Bu kitabın üslubu isə tamamilə fərqlidir. Bu kitab Peyğəmbərin ﷺ ümumi həyat hekayəsini deyil, məhz gündəlik həyat tərzini təqdim etməkdədir. Təbii ki, biz bu üslubların hər birinə, hətta digərlərinə də ehtiyac duyuruq. Çünki Allah rəsulunun ﷺ həyat hekayəsi o qədər geniş və əzəmətlidir ki, onu oxucuya təqdim etmək üçün birdən çox təlif üslubuna ehtiyacımız vardır. Şair demişkən:

Əgər söz demək üçün geniş imkan yarandısa,
Söz deməyə danışan dilin varsa, susma, danış!

**5.** Təbii ki, kitabda qeyd edilən bu hadisələrin hamısı bir gündə baş verməmişdi. Adətən, bir gündə baş verən hadisələr hər gün baş vermir. Lakin bu hadisələrin ümumi

məcmuəsi Peyğəmbərin ﷺ günlük həyatına dair təsəvvür yarada bilmək üçün önümüzə gözəl bir tablo çıxarır.

**6.** Kitabda qeyd olunan bəzi rəvayətlərdə həmin hadisənin günün müəyyən vaxtında (məsələn, Sübhdən və ya Əsrdən sonra) baş verdiyi bildirilir. Bəzi rəvayətlərdə isə bu açıq şəkildə qeyd edilməsə də, buna dəlalət edən müəyyən işarələr mövcuddur. Bəzi rəvayətlərdə bu işarə güclü (dəqiqliyə çox yaxın), bəzilərində isə nisbətən zəifdir. Təbii ki, bu kimi məsələlər ictihada açıq mövzulardır. Kitabı qələmə alarkən çalışdım ki, bu kimi məsələlərdə dəqiqlik olsun. Ona görə də rəvayətlərin məzmununu, məcmuəsini göz önündə tutaraq hərəkət etdim. Amma gəlinən nəticə xətalı ola bilir. Lakin bu istiqamətdə yetəri qədər çalışdığımı və səhlənkarlığa yol vermədiyimi düşünürəm.

**7.** İmkan daxilində səhih (etibarlı) rəvayətlərə istinad etməyə çalışdım. Bəzən sənədində müəyyən qədər zəiflik olan rəvayətlərə də yer verdim. Lakin həmin rəvayətlər kitabda qeyd etdiyim səhih rəvayətləri tamamlayıcı qismindən olan rəvayətlərdir. Bu qəbildən olan rəvayətləri qeyd edərkən hədisin mətnində ciddi bir problemin olmamasına diqqət yetirdim. Çünki bəzi hallarda sənədində zəiflik olan bütün rəvayətləri bir yerə yığmaqla həmin rəvayətin etibarlı versiyası arasında uyğunsuzluq əmələ gələ bilər. Bəzən isə tam əksinə, ayrı-ayrılıqda sənədlərində zəiflik olan rəvayətlər bir yerə gəldikdə, həm məna baxımından, həm də rəvayətin məzmunu yönündən qüvvət qazanmış olur.

**8.** Hədisləri və tarixi rəvayətləri qeyd edərkən bir rəvayətə əsaslanmadım, əksinə, həmin hədisin bütün

rəvayət yollarını cəm edərək hamısını bir yerdə qeyd etdim. Hədis kitablarından həmin rəvayətin mənbələrini də qeyd etdim. Həmin mənbələr ayrı-ayrılıqda qeyd etdiyim tarixi hadisəni tam şəkildə ehtiva etməsə də, bir yerdə həmin hadisəni tam təfərrüatı ilə ifadə edir.

**9.** Mövzu ilə əlaqədar səhabənin sözünü zikr etdikdə olduğu kimi hərfi-hərfinə qeyd etmədim. Həmin sözün digər rəvayətlər ilə bağlılığına baxaraq, habelə rəvayətin məzmununu əsas tutaraq müəyyən dəyişikliklərə yol verdim. Peyğəmbərin ﷺ kəlamına gəldikdə isə heç bir dəyişiklik etmədim. Sadəcə olaraq, rəvayətlər arasında seçim edərək və ya rəvayətləri bir yerə toplayaraq vahid bir mətn halına gətirdim.

**10.** Bu kitabı oxuyan hər kəsə duaçıyam və öz minnətdarlığımı bildirirəm. Həmçinin kimin nə irad və təklifi varsa, bizə yollamasını rica edirik. Biz də, öz növbəmizdə, həmin irad və təklifləri nəzərə alar və kitabda olan xəta və qüsurları aradan qaldırarıq. Həqiqətən də, insan təkbaşına deyil, məhz qardaşları ilə birlikdə güclü sayılır. Əldə etdiyimiz hər yeni bilgi bizə Uca Yaradanımızın bu kəlamını xatırladır: *“Sizə yalnız az elm verilmişdir”* (əl-İsra, 85).

✐ ***Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri***
🖂 Altriri@gmail.com

# ☙ MİNNƏTDARLIQ ❧

Kitabın ərsəyə gəlməsində əziyyəti keçən hər bir kəsə təşəkkürümü bildirirəm.

Hörmətli ustad şeyx Abdullah ibn Şeyx əl-Məhfuz ibn Bəyyəhə, hörmətli şeyx dr. Əbu Süleyman Əbdülvəhhab ibn İbrahimə, dr. Əhməd əl-Bəra əl-Əmiriyə, dr. Abdullah ibn Muhəmməd Ğazzəmiyə, dr. Səd ibn Ətiyyə əl-Ğamidiyə, dr. Abdullah ibn Nasır Subeyhə, dr. Əhməd ibn Muhəmməd əs-Saqra, dr. Sami ibn Əbdüləziz əl-Məcidə, dr. Abdullah ibn Həmədə, dr. Xalid ibn Fəhd əl-Bəhlələ, professor Cəmil Muhəmməd Əli Farisiyə, professor Saleh ibn Hamud əl-Fouzana, professor Yasir ibn Bədrə və şeyx Mahmud Əbdülmaqsuda dərin minnətdarlığımı bildirirəm. Onların hər biri kitabı oxumuş və öz qeydlərini, nəsihətlərini, irad və təkliflərini bildirmişlər. Mən də, öz növbəmdə, bu qeydləri nəzərə almış, düzəlişlər etmiş və beləcə kitabı tamamlamışam. Onların hər birinin bu kitabın ərsəyə gəlməsində çox əməyi keçib.

Hər birinə təşəkkür edir və minnətdarlığımı bildirirəm.

# HAŞİYƏLƏR
## (kitabda qeyd edilən mənbələr)

[1] Əhməd, "əl-Müsnəd", 3541, 23242, 23336, 24269, Buxari, 246, Müslim, 255, 746, Əbu Davud, 55, 56, 58, 1353, İbn Macə, 1191, Muhəmməd ibn Nasr əl-Mərvəzi, "Qiyam əl-leyl" (Məqrizinin müxtəsəri, səh. 110), Nəsai, 2, 1315, 1601, 1621, 1623, 1626, 1721, İbn Xüzeymə, 1078, İbn Hibban, 1072, 1075, 2441, İbn Sünni, "Əməl əl-youm vəl-leylə", 762, Beyhəqi, "Şuəb əl-iman", 1936, "əs-Sünən" 1/38-39, İbn Həcər, "Fəth əl-Bəri" 2/375.

[2] Əhməd, "əl-Müsnəd", 18603, 21366, 23286, Buxari, 6312, 7395, Müslim, 2711, Əbu Davud, 5049, Tirmizi, 3417, İbn Macə, 3880, İbn Hibban, 5532, 5539.

[3] Əbu Nueym əl-Fəzl, "əs-Salət", 196, 198, Dərimi, "əl-Müsnəd", 1202, 1238, 1239, Əhməd, "əl-Müsnəd", 16828, 24933, Buxari, 914, Əbu Davud, 526, İbn Xüzeymə, 414, İbn Hibban, 1683, 1684, Təbərani, "əl-Mucəm əl-kəbir" 19/318, 372 (720, 874), "əd-Dua", 437, 440, 442, 451, Hakim, "əl-Müstədrək" 1/204, Beyhəqi, "əs-Sünən" 1/409.

[4] Əhməd, "Müsnəd", 14619, 14817, Buxari, 614, 4719, "Xalqu əfal əl-ibəd", səh. 50, Əbu Davud, 529, Tirmizi, 211, İbn Macə, 722, İbn Əbi Asim "əs-Sünnə" 826, Nəsai, 680, İbn Xüzeymə, 420, Tahavi, "Şərhu məanil-əsar" 1/146, İbn Hibban, 1689, Təbərani, "əd-Dua", 430, 431, 432, Beyhəqi, "əd-Dəavat əl-kəbir", 49, "əs-Sünən" 1/410, İbn Əbi Hatim, "əl-İləl", 2011, İbn Rəcəb, "Fəth əl-Bəri" 5/265-271, Əlbani, "İrva əl-ğalil" 1/259-261.

[5] Əhməd, “əl-Müsnəd”, 1911, 24073, Buxari, 1147, 2013, 3569, Müslim, 763, Əbu Davud, 1341, Tirmizi, 439, Nəsai, 1697, İbn Xüzeymə, 48, 49, 1166, İbn Hibban, 2430, 6368.

[6] Əbdürrəzzaq, “əl-Müsənnəf”, 4792, Əhməd, “əl-Müsnəd”, 24125, 25824, 25315, Buxari, 618, 619, 1171, Müslim, 723-725, 736, Əbu Davud, 1255, Tirmizi, 459, İbn Macə, 1358, Nəsai, 685, 946, 1756, İbn Xüzeymə, 1108, 1113, İbn Hibban, 2457, 2466, Beyhəqi, “əs-Sünən” 3/43-44.

[7] Əhməd, “əl-Müsnəd”, 2038, 2045, 2386, 4909, 25510, Müslim, 726, 727, Əbu Davud, 1256, 1260, İbn Macə, 1148, Nəsai, 944, 945, İbn Xüzeymə, 1115, Təhavi, “Şərhu məanil-əsar” 1/298, Təbərani, “əl-Mucəm əl-kəbir”, 13123, Hakim, “əl-Müstədrək” 1/307, Beyhəqi, “əs-Sünən” 3/42, Ziya, “əl-Əhadis əl-muxtara” 7/119 (2546), Əlbani, “Əslu sifətu salət ən-nəbi” 2/448-456.

[8] Əbdürrəzzaq, “əl-Müsənnəf”, 4778, Əhməd, “əl-Müsnəd”, 24167, 24241, 24271, Müslim, 724, 725, Əbu Davud, 1254, İbn Xüzeymə, 1107, İbn Hibban, 2457, 2458, 2463, Beyhəqi, “əs-Sünən” 2/470.

[9] Humeydi, “əl-Müsnəd”, 175, Buxari, 626, 994, 1123, 1160, 1161, 1168, Müslim, 736, 743, Əbu Davud, 1263, Tirmizi, 418, İbn Xüzeymə, 1122, Əbu Əvanə, 2156, 2157, Beyhəqi, “əs-Sünən” 2/188, 3/45, İbn Həcər, “Fəth əl-Bəri” 3/44.

[10] Əhməd, “əl-Müsnəd”, 2572, Nəsai, “əs-Sünən”, 686, “əs-Sünən əl-kubra”, 399, 1338, 1650, Əbu Əvanə, 2285, Əbu əş-Şeyx, “Əxlaq ən-nəbiy”, 460, Beyhəqi, “əs-Sünən” 3/7.

[11] Tayəlisi, “əl-Müsnəd”, 1712, 1735, Əhməd, “əl-Müsnəd”, 26616, 26704, 26729, Əbdü İbn Humeyd, “əl-Müsnəd”, 1536, Əbu Davud, 5094, Tirmizi, 3427, İbn Macə, 3884, Nəsai, 5486,

5539, Təbərani, “əl-Mucəm əl-kəbir” 23/320 (726), 24/9 (11), “Mucəm əl-avsat”, 2383, “əd-Dua”, 411-414, 416-420, Qatii, “Cüzu əl-əlfi dinar”, 178, “əl-Müstədrək” 1/519, Beyhəqi, “əd-Dəavat əl-kəbir”, 62, 453, “əs-Sünən” 5/251, İbn Həcər, “Nətəic əl-əfkar” 1/156-165.

[12] Əbdürrəzzaq, “əl-Müsənnəf”, 1664, İbn Əbi Şeybə, “Müsənnəf”, 3412, 29764, Əhməd, “əl-Müsnəd”, 26416, 26417, 26419, Əbu Davud, 466, Tirmizi, 314, İbn Macə, 771, Əbu Yalə, “əl-Müsnəd”, 6754, 6822, Təbərani, “əl-Mucəm əl-kəbir”, 1043, “əd-Dua”, 423, 424, Beyhəqi, “əd-Dəavat əl-kəbir”, 68, Bəğavi, “Şərh əs-sünnə”, 481.

[13] Əhməd, “əl-Müsnəd”, 20804, 20849, 20852, Müslim, 606, Əbu Davud, 537, Tirmizi, 202, İbn Xüzeymə, 1525, Təbərani, “əl-Mucəm əl-kəbir”, 1912, “əl-Müstədrək” 1/201-202, 213, 286, Beyhəqi, “əs-Sünən” 1/385, 2/19.

[14] Peyğəmbərin ﷺ *“namaz üçün iqamə verildikdə məni görmədikcə namaza qalxmayın!”* kəlamı üçün bu mənbələrə müraciət oluna bilər: Tayəlisi, “əl-Müsnəd”, 622, Əhməd, “əl-Müsnəd”, 7238, 22533, 22581, 22587, Buxari, 637, 638, 909, Müslim, 604, 605, Əbu Davud, 539, 540, Tirmizi, 592, Nəsai, 687, 790, İbn Xüzeymə, 1526, 1644, İbn Hibban, 1755, 2236.

[15] Humeydi, “əl-Müsnəd”, 499, Əhməd, “əl-Müsnəd”, 7238, 7804, 8466, Buxari, 275, 639, 640, Müslim, 605, Əbu Davud, 235, İbn Macə, 541, Nəsai, 792, 809, “əs-Sünən əl-kubra”, 2943, İbn Xüzeymə, 1628, “Şərhu müşkilil-əsar”, 623, “Şərhu məanil-əsar” 2/104, İbn Hibban, 2236, Əbu Nueym, “əl-Müstəxrəc”, 1343-1345, Beyhəqi, “əs-Sünən” 2/398.

[16] Tayəlisi, “əl-Müsnəd”, 2094, 2222, Əhməd, “əl-Müsnəd”, 12011, 12813, 12884, 13664, 13778, 14096, Dərimi, 1263,

Buxari, 719, 723, Müslim, 433, Əbu Davud, 668, İbn Macə, 993, 994, Nəsai, 814, 845, Əbu Yalə, 2997, 3055, İbn Hibban, 2165, 2168, 2173, 2174, Beyhəqi, "əs-Sünən" 2/21, 3/99-100.

[17] Tayəlisi, 1117, 2776, Əhməd, "əl-Müsnəd", 717, 4674, 18850, Buxari, 735-738, 740, Müslim, 390, 391, Əbu Davud, 722, 738, 742, Tirmizi, 3423, İbn Macə, 860, 864, Nəsai, 876-882, İbn Xüzeymə, 470, 479, 584, 589, İbn Hibban, 1770, 1860, 1869, Təbərani, "əl-Mucəm əl-kəbir", 11485, Dəraqutni, 1/284, Beyhəqi, "əs-Sünən" 2/24-26, 29-30, 4/238, "Fiqh əl-ibədə" 2/152-153, 156-158.

[18] Əhməd, "əl-Müsnəd", 7164, 10408, Dərimi, 1244, Buxari, 744, Müslim, 598, Əbu Davud, 781, İbn Macə, 805, Nəsai, 60, 895, Əbu Yalə, 6081, 6097, İbn Xüzeymə, 465, İbn Hibban, 1775, 1776, 1778, Təbərani, "əd-Dua", 521, Dəraqutni 1/336, Beyhəqi, "əs-Sünən" 2/195.

[19] Əbu Ubeyd, "Fədail əl-Quran" (səh. 156-157), Əhməd, "əl-Müsnəd", 26583, Əbu Davud, 4001, Tirmizi, 2927, İbn Xüzeymə, 493, "Şərhu müşkilil-əsar", 5406, Təbərani, "əl-Mucəm əl-kəbir" 23/278 (603), "əl-Müstədrək" 2/232, Beyhəqi, "Şuəb əl-iman", 2115, "əs-Sünən" 2/44.

[20] Tayəlisi, 962, Əhməd, "əl-Müsnəd", 19418, 19793, 19811, 22654, Buxari, 541, 599, 759, 779, Müslim, 461, 647, Əbu Davud, 398, 799, İbn Macə, 818, Nəsai, 530, Əbu Yalə, 7429, Ruyəni, "əl-Müsnəd", 772, İbn Xüzeymə, 528, 530, Beyhəqi, "əs-Sünən" 1/436, 450, 2/389.

[21] Əhməd, "əl-Müsnəd", 2799, 2906, 10102, Dərimi, 1542, Buxari, 891, 1068, Müslim, 879, 880, Əbu Davud, 1074, Tirmizi, 520, İbn Macə, 821, Nəsai, 956, İbn Hibban, 1821,

Təbərani, “əl-Mucəm əl-kəbir”, 10085, 12333, Beyhəqi, “əs-Sünən” 3/201.

[22] Əhməd, “əl-Müsnəd”, 7465, 9149, 18661, Dərimi, 1595, Buxari, 4560, 6394, Müslim, 677, 678, Tirmizi, 401, İbn Xüzeymə, 1098, Əbu Əvanə, 2177-2179, İbn Hibban, 1980, Təbərani, “əl-Mucəm əl-kəbir”, 11986, 12311, “əl-Müstədrək” 1/299, Beyhəqi, “əs-Sünən” 2/197, Ziya, “əl-Əhadis əl-muxtara” 10/184 (186).

[23] Əhməd, “əl-Müsnəd”, 15737, Buxari, 1155, 6151, “əl-Əhad vəl-məsəni”, 1981, Beyhəqi, “əs-Sünən” 10/239.

[24] Tayəlisi, 371, 1662, Əhməd, “əl-Müsnəd”, 22365, 22408, 25507, Dərimi, 1347, 1348, Müslim, 591, 592, Əbu Davud, 1512, 1513, Tirmizi, 298-300, İbn Macə, 924, 928, Nəsai, 1337, 1338, İbn Xüzeymə, 736, 737, İbn Hibban, 2000-2003, Təbərani, “əd-Dua”, 644-650, “Müsnəd əş-şəmiyyin”, 1088, Beyhəqi, “əs-Sünən” 2/183, “əd-Dəavat əl-kəbir”, 112.

[25] Əhməd, “əl-Müsnəd”, 3631, 4084, 4383, Dərimi, 1350-1352, Buxari, 852, Müslim, 707-709, Əbu Davud, 1042, Tirmizi, 301, İbn Macə, 929-931, Nəsai, 1359-1361, Ruyəni, “əl-Müsnəd”, 285, 413, İbn Xüzeymə, 1563, 1565, 1714, Əbu Əvanə, 2090, İbn Hibban, 1996-1999, Beyhəqi, “əs-Sünən” 2/294, “Şərh əs-sünnə”, 704.

[26] Mənası: Allah qatında heç kəsə nə mal-dövləti, nə də övlad-uşağı fayda verər.

[27] Əhməd, “əl-Müsnəd”, 16105, 16889, 18158, Dərimi, 1349, Buxari, 844, Müslim, 593, 594, Əbu Davud, 1505-1507, Nəsai, 1339-1343, Əbu Yalə, 6811, İbn Xüzeymə, 740-742, İbn Hibban, 2005-2010, Təbərani, “əl-Mucəm əl-kəbir” 20/391-

392, (925-928), "əd-Dua", 679-681, 682-704, Beyhəqi, "əs-Sünən" 2/184-185, "əd-Dəavat əl-kəbir", 113, 116.

[28] Əhməd, "əl-Müsnəd", 21600, 21659, Buxari, 843, 6329, Müslim, 595-597, Əbu Davud, 1502, Tirmizi, 3413, Nəsai, 1348-1350, İbn Xüzeymə, 752, İbn Hibban, 2017, Təbərani, "əl-Mucəm əl-kəbir", 4898, "əd-Dua", 731, "əl-Müstədrək" 1/253, Beyhəqi, "əs-Sünən" 2/186-187, "əd-Dəavat əl-kəbir", 331, 332.

***Bu zikrlər bir neçə şəkildə varid olmuşdur:***

1. "Subhanəllah", "əlhəmdulilləh", "lə iləhə illəllah", "Allahu əkbər" zikrinin hər birini iyirmi beş dəfə, ümumilikdə isə yüz dəfə deməkk.
2. "Subhanəllah", "əlhəmdulilləh", "Allahu əkbər" zikrinin hər birini otuz üç dəfə demək və sonda yüzü bu zikrlə tamamlamaq: "Lə iləhə illəllah vəhdəhu lə şərikə ləkə, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir".
3. "Subhanəllah", "əlhəmdulilləh" zikrinin hər birini otuz üç dəfə, "Allahu əkbər" zikrini isə otuz dörd dəfə demək.
4. "Subhanəllah", "əlhəmdulilləh", "Allahu əkbər" zikrinin hər birini otuz üç dəfə demək və sonda əlavə heç bir zikr etməmək.
5. "Subhanəllah", "əlhəmdulilləh", "Allahu əkbər" zikrinin hər birini on bir dəfə demək.
6. Bu zikrlərin hər birini on dəfə demək.

[29] Əhməd, "əl-Müsnəd", 4192, Müslim, 2723, Əbu Davud, 5071, Tirmizi, 3390, Əbu Yalə, 5014, İbn Hibban, 563, Təbərani, "əl-Mucəm əl-kəbir", 1170, "əd-Dua", 295, İbn

Sünni, “Əməl əl-youm vəl-leylə”, 36, 37, Beyhəqi, “əd-Dəavat əl-kəbir”, 24.

[30] Əhməd, “əl-Müsnəd”, 4785, Əbdü İbn Humeyd, “əl-Müsnəd”, 837, Buxari, “Ədəb əl-mufrad”, 1200, Əbu Davud, 5074, İbn Macə, 3871, İbn Hibban, 961, Təbərani, “əl-Mucəm əl-kəbir”, 13296, “əd-Dua”, 305, İbn Sünni, “Əməl əl-youm vəl-leylə”, 40, Beyhəqi, “əd-Dəavat əl-kəbir”, 32, “əl-Əsma vəs-sifət”, 276.

[31] Tayəlisi, 909, İbn Əbi Şeybə, “Müsənnəf”, 29184, Əhməd, “əl-Müsnəd”, 20430, “Ədəb əl-mufrad”, 701, Əbu Davud, 5090, Nəsai, “əs-Sünən əl-kubra”, 9850, 10407, Təbərani, “əd-Dua”, 345, İbn Sünni, “Əməl əl-youm vəl-leylə”, 69, Beyhəqi, “əd-Dəavat əl-kəbir”, 33.

[32] Əhməd, “əl-Müsnəd”, 12401, Əbdü İbn Humeyd, “əl-Müsnəd”, 1274, Müslim, 2324, Beyhəqi, “Şuəb əl-iman”, 1361, “Dələil ən-nübüvvə” 1/331, “Şərh əs-sünnə”, 3677, İbn Həcər, “İthaf əl-məhəra”, 653.

[33] İbn Əbi Şeybə, “Müsənnəf”, 25389, 25740, 35847, Əhməd, “əl-Müsnəd”, 23784, Dərimi, 1501, 2674, Tirmizi, 2485, İbn Macə, 1334, 3251, Təbərani, “Məkərim əl-əxlaq”, 153, “əl-Müstədrək” 3/13, 4/159, Beyhəqi, “əs-Sünən” 2/502, Ziya, “əl-Əhadis əl-muxtara” 9/431-433 (399-404).

[34] Əhməd, “əl-Müsnəd”, 17142, 17144, 17145, Dərimi, 95, Əbu Davud, 4607, Tirmizi, 2676, İbn Macə, 22-24, İbn Əbi Asim, “əs-Sünnə”, 33, 254, Mərvəzi, “əs-Sünnə”, 69-72, İbn Hibban, 5, Təbərani, “əl-Mucəm əl-kəbir” 18/245-249, 257 (617-624, 642), “əl-Mucəm əl-avsat”, 66, “Müsnəd əş-şəmiyyin”, 437, 697, 1379, “əl-Müstədrək” 1/95-97, Beyhəqi,

"Şuəb əl-iman", 7109, 7110, 7515, 7516, "əs-Sünən" 10/114, "ət-Tərğib vət-tərhib", 342, 485.

[35] Tayəlisi, 253, Əhməd, "əl-Müsnəd", 3581, 3587, 4041, Buxari, 68, 6411, Müslim, 2821, Tirmizi, 2855, Əbu Yalə, 5032, İbn Hibban, 4524, Xaraiti, "Məkərim əl-əxlaq", 273, 274, Xatib əl-Bağdadi, "əl-Fəqih vəl-mütəfəqqih", 933, "Şərh əs-sünnə", 145.

[36] "Tarixu Diməşq" 39/114. Bu rəvayət sənəd yönündən zəif olsa da, ümumən, Peyğəmbərin ﷺ həyat tərzi rəvayətin mətninin doğruluğuna dəlalət edir.

[37] Tayəlisi, 2568, Əhməd, "əl-Müsnəd", 8634, 9037, Buxari, 458, 1337, Müslim, 956, Əbu Davud, 3203, Əbu Yalə, 6429, İbn Hibban, 3086, Beyhəqi, "İsbat əzab əl-qabr", 162, "əs-Sünən" 4/32-47, Tureyri, "Qasas nəbəviyyə", səh. 195-200.

[38] Əhməd, "əl-Müsnəd", 12399, 12480, 14060, Buxari, 3613, 4846, Müslim, 119, "əl-Əhad vəl-məsəni", 1921, 3399, İbn Əbi Asim, "əl-Cihad", 225, Əbu Yalə, 3331, 3381, 3427, Ruyəni, 1002, İbn Hibban, 7167-7169, Təbərani, "əl-Mucəm əl-kəbir", 1309-1316, 1320, İbn Məndə, "əl-İman" 500, 501, "əl-Müstədrək" 3/235, Beyhəqi, "əs-Sünən" 6/356-357.

[39] Əhməd, "əl-Müsnəd", 23787, Buxari, 3813, 7014, Müslim, 2484, "əl-Müstədrək" 4/394, "Şərh əs-sünnə", 3289, "Tarixu Diməşq" 29/222.

[40] Əhməd, "əl-Müsnəd", 2113, "Fədail əs-səhabə", 590, Buxari, 7046, Müslim, 2269, Əbu Davud, 3267, 4632, Tirmizi, 2293, 2294, İbn Macə, 3918, İbn Əbi Asim, "əs-Sünnə", 1143, "əl-Müstədrək" 3/71, Beyhəqi, "Şuəb əl-iman", 1826, "əs-Sünən" 2/187-188, 10/38-39.

[41] Əhməd, "əl-Müsnəd", 20165, Buxari, 1386, Müslim, 2275, Tirmizi, 2294, İbn Hibban, 4659, Beyhəqi, "əs-Sünən" 5/275, "İsbat əzab əl-qabr", 97, "Şərh əs-sünnə", 2053.

[42] İbn əl-Cəd, "əl-Müsnəd", 2068, 2661, Əhməd, "əl-Müsnəd", 20844, Müslim, 670, 2322, Nəsai, 1358, Əbu Əvanə, 1317, İbn Hibban, 6259, Təbərani, "əl-Mucəm əl-kəbir", 1933, 1999, 2017, Beyhəqi, "əs-Sünən" 7/52, 10/240, "Dəlail ən-nübüvvə" 1/323.

[43] "Sübh çağının şəfəqləri" bölümündə qeyd edilən Peyğəmbərin ﷺ məscidə daxil olarkən oxuduğu duanın mənbələrinə müraciət et!

[44] Əhməd, "əl-Müsnəd", 13025, 13575, 24144, 24795, Buxari, 4794, Müslim, 253, 1428, Əbu Davud, 51, Nəsai, 8, Əbu Yalə, 3332, İbn Xüzeymə, 134, Əbu Əvanə, 477, 4180, İbn Hibban, 1074, Beyhəqi, "əs-Sünən" 1/34, 7/ 56, 300.

[45] Əhməd, "əl-Müsnəd", 2334, 3308, 26758, Buxari, "əl-Ədəb əl-mufrad", 647, Müslim, 2726, Əbu Davud, 1503, Tirmizi, 3555, İbn Macə, 3808, Muhəmməd ibn Osman ibn Əbi Şeybə, "əl-Ərş", 4, Nəsai, 1352, "əl-Əhad vəl-məsəni", 3108, İbn Xüzeymə, 753, "ət-Touhid", 5, 233, İbn Hibban, 828, 832, Təbərani, "əd-Dua", 1741, Beyhəqi, "Şuəb əl-iman", 596, "əs-Sünən" 6/297, "əd-Dəavat əl-kəbir", 127.

[46] Əhməd, "əl-Müsnəd", 24220, 25731, 27301, Buxari, 1494, Müslim, 1076, 1154, Əbu Davud, 2455, Tirmizi, 733, 734, İbn Macə, 1701, Nəsai, 2322-2330, İbn Xüzeymə, 2141, 2143, İbn Hibban, 3630, Beyhəqi, "əs-Sünən" 4/203, 274.

